Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 19 (6161) 22 may 2026-cı il | Qiyməti 40 qəpik

# Şuşa və Trabzon qardaşlaşdı






**Azərbaycanın Şuşa və Türkiyənin Trabzon şəhərləri qardaşlaşıb. Adalet.az xəbər verir ki, bununla bağlı Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində əməkdaşlığa dair memorandum imzalanıb.**

## Kəmaləddin Heydərov belaruslu nazirlə görüşdü



**Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində ölkəmizdə səfərdə olan Belarusun memarlıq və tikinti naziri Aleksandr Studnev ilə görüşüb.**

Adalet.az xəbər verir ki, görüşdə Bakının uğurla ev sahibliyi etdiyi Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının əhəmiyyətinə toxunulub, bu mötəbər tədbirdə Belarus nümayəndə heyətinin iştirakının ölkələrimiz arasında sıx dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə və təcrübə mübadiləsinin aparılmasına mühüm töhfə verəcəyinə əminlik ifadə olunub. İki ölkə liderlərinin qarşılıqlı hörmətə və etimada əsaslanan uzaqgörən siyasəti sayəsində Azərbaycan və Belarus arasında münasibətlərin sürətlə inkişaf etdiyi vurğulanıb, bu çərçivədə tikinti və təhlükəsizlik sahəsində ölkələrimizin uyğun qurumları arasında əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensialın mövcud olduğu qeyd edilib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

## "WUF13 məqsədlərimizə çatmaq üçün təkan ola bilər"



**"Ümumdünya Şəhərsalma Forumu qlobal böhranlar, bahalaşan ərzaq qiymətləri fonunda keçirilir".**

Adalet.az xəbər verir ki, bu fikirləri BMT baş katibi Antonio Quterreş Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) rəsmi açılış mərasiminə ünvanladığı videomüraciətdə deyib. O bildirib ki, təxminən üç milyard insan qeyri-adekvat yerlərdə yaşayır: "İnkişaf edən dünyalar, iqtisadiyyatlar evsizlikdən sığortalanmayıb. Tələbəlik vaxtımda Lissabonun yoxsul məhəllələrinin birində könüllü işlədiyim vaxt yaşayış şəraitinin insanın sağlamlığına necə təsir etdiyini daha yaxşı anladım. Biz adekvat, təhlükəsiz və əlverişli mənzillərin təmin edilməsi yolu ilə qeyri-rəsmi yaşayış məntəqələri və gecəqondular transformasiyası və sosial gərginliyi artıran bərabərsizliklərin aradan qaldırılması ilə mübarizə aparmalıyıq. Mənzil insan hüququdur və insan ləyaqətinin əsasını təşkil edir. Bu Ümumdünya Şəhərsalma Forumu bu məqsədi ortaq reallığa çevirmək üçün bir təkan ola bilər. Birlikdə dünyanı mənzillə təmin edə bilərik və heç kəsi kənarda qoymarıq".

## Vətəndaşlarımıza müjdə




**2026-cı il 25 may saat 00:00-dan dəmiryol nəqliyyatı vasitəsilə Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycana vizasız gəlmə hüququ olan bütün xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikası ilə Gürcüstan arasında giriş-çıxışına icazə veriləcək.**

Adalet.az-ın xəbərinə görə, Nazirlər Kabineti bu barədə qərar verib. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Miqrasiya Xidməti və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti bu qərardan irəli gələn məsələləri qanunvericiliyin tələblərinə uyğun olaraq həll etməlidirlər.

## Əbülfət Mədətoğlu oxucularla görüşəcək




Mayın 22-də tanınmış şair, publisist, Əməkdar jurnalist Əbülfət Mədətoğlunun Gəncə şəhər Mərkəzi kitabxanasında oxucularla görüşü keçiriləcək.

Adalet.az xəbər verir ki, tədbirdə şairin yaradıcılığından söhbət açılacaq, Ə.Mədətoğlu yeni şeirlərini oxuyacaqdır. Ədəbiyyatsevərləri və bütün oxucuları bu maraqlı görüşə dəvət edirik.

## ŞALVARIMIZIN YAMAĞI GÖRÜNƏR



Sovetlər dönəmində belə bir lətifə vardı. Xruşşov iclasda çıxış edərkən deyir:

**- Səksəninci ildə Amerikaya çatacağıq və onu ötəcəyik.**

Yerdən bir nəfər qalxıb deyir:

**- Nikita Sergeyeviç, Amerikaya çataq, amma ötməyək.**

**- Niyə?**

**- Ötsək, şalvarımızın yamağı görünəcək.**

Yevlax-Bakı magistral yoluna o qədər yamaq vurublar ki, Sovet hökumətinin yamaqlı şalvarı onun yanında toya getməlidi.

## Ermənistan-Azərbaycan sərhədi nə vaxt açılacaq?

**Türkiyə-Ermənistan sərhədi respublikada 7 iyunda keçiriləcək parlament seçkilərindən sonra açılacaq.**

Adalet.az xəbər verir ki, bu barədə Bakının Ankaradakı səfiri Rəşad Məmmədov Türkiyənin "Cümhuriyyət" qəzetinə verdiyi müsahibədə bildirib.

Onun sözlərinə görə, 7 iyun seçkilərindən sonra Ermənistan nümayəndələri konstitusiyaya dəyişiklik edəcək və referendum keçirəcəklər. Səfir əlavə edib ki, "Bundan sonra Ermənistanla Türkiyə, eləcə də Ermənistanla Azərbaycan arasında sərhədlər açılacaq".

Məmmədov qeyd edib ki, Bakı Ermənistanla Türkiyə arasında münasibətləri normallaşdırır. O, iddia edib ki, Azərbaycanın Qarabağ üzərində nəzarəti ələ keçirməsi Türkiyə ilə Ermənistan arasında sərhəd keçid məntəqələrinin açılmasına ümid yaradıb.



Vəli Xramçaylı babat vurubmuş. Küçədə bir çirkin qadınla rastlaşır.

Yanında olan şair Akif Əhmədgilə deyir:

***- Ə, qağa, bu nə çirkin qadındı?***

Qadın da iyrənirmiş kimi ona baxıb deyir:

***-Sən də sərxoşsan.***

Vəli gülərək:

***- Mənim sərxoşluğum sabah keçəcək, amma sənin çirkinliyin...***

## Prezident İlham Əliyev BMT Baş katibinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də BMT Baş katibinin müavini Amina Mohammedi qəbul edib.**

Dövlətimizin başçısı Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının keçirilməsi ilə bağlı göstərdiyi dəstəyə görə BMT rəhbərliyinə minnətdarlığını bildirdi, tədbirin uğurlu olması üçün Azərbaycan Hökumətinin və BMT-nin Məskunlaşma Proqramının bir komanda kimi fəaliyyət göstərdiyini dedi.

WUF13-ün COP29-dan sonra iştirakçı sayına görə ölkəmizdə keçirilən ikinci mühüm qlobal tədbir olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev COP29 kimi Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının da uğurla təşkil edildiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı ilə səmərəli əməkdaşlıq həyata keçirdiyini deyərək, ölkəmizin gələcəkdə də bu Proqramla tərəfdaşlığını davam etdirəcəyini və Ümumdünya Şəhərsalma Forumunun digər sessiyalarının işində də fəal olacağını bildirdi.

Amina Mohammed BMT-nin Baş katibi Antonio Quterreşin salamlarını dövlətimizin başçısına çatdırdı.

Salamlara görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını Antonio Quterreşə çatdırmağı xahiş etdi.

WUF13-ün uğurla keçdiyini deyən Amina Mohammed bununla bağlı dövlətimizin başçısını təbrik etdi. O, bu tədbirdə dünyanın müxtəlif ölkələrindən çox sayda yüksək səviyyəli qonağın iştirak etməsinin dərin təəssürat hissi yaratdığını bildirdi. Amina Mohammed Bakıda müasir şəhərsalma qaydaları tətbiq olunmaqla tarixi irslə müasirliyin vəhdətinin təmin edildiyini məmnunluqla vurğuladı və bildirdi ki, bu, paytaxtımıza xüsusi gözəllik verir. Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə postmünaqişə şəraitində həyata keçirdiyi bərpa və quruculuq işlərinin postmünaqişə vəziyyətindəki regionlar üçün bir nümunə olduğu bildirildi və bu xüsusda ölkəmizin təcrübəsinin BMT çərçivəsində digər ölkələrlə bölüşməsinin faydalı olacağı vurğulandı.

Azərbaycanın "ASAN xidmət" modelinin BMT-nin dövlət xidmətləri mükafatına, həmçinin BMT-nin rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində xüsusi mükafatına layiq görüldüyü xatırlandı, "ASAN xidmət"in uğurlu təcrübə kimi Afrika və Asiyanın müxtəlif ölkələrində tətbiq olunduğu qeyd edildi. Söhbət zamanı Azərbaycanla BMT arasında uzun illərdir uğurlu əməkdaşlığın həyata keçirildiyi və ölkəmizin bu təşkilatın fəal üzvü olduğu, onun proqram və tədbirlərinin icrasına mühüm töhfələr verdiyi vurğulandı. İndiyədək BMT-nin müxtəlif mövzulara aid beynəlxalq tədbirlərinin Azərbaycanda yüksək səviyyədə təşkil olunması məmnunluqla xatırlandı.

## Böyük Britaniya Kralı Prezident İlham Əliyevə təbrik ünvanlayıb

**Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlz Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

Məktubda deyilir:

"Cənab Prezident.

Müstəqillik Günü münasibətilə həyat yoldaşım və mən Zati-alinizə və Azərbaycan Respublikasının vətəndaşlarına ən səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq.

Bu əlamətdar gün xalqlarımız arasındakı davamlı dostluq barədə düşünmək üçün dəyərli fürsətdir. İkitərəfli əlaqələrimizin möhkəmliyini yüksək qiymətləndirir və qarşıdakı illərdə əməkdaşlığımızın daha da genişləndirilməsinə sadiq qaldığımı bildirirəm. Dövrümüzün ortaq çağırışları, xüsusilə iqlim dəyişikliyi və ətraf mühitimizin qorunması ilə bağlı məsələlərə üzləşdiyimiz bir vaxtda ölkələrimizin təsirli və uzunmüddətli həllər naminə birgə fəaliyyətini davam etdirəcəyinə ümidvaram. Həyat yoldaşım və mən qarşıdakı dövrdə sülh, firavanlıq, rifah diləyi ilə Sizə və bütün azərbaycanlılara ən səmimi salamlarımızı göndəririk".

# Hikmət Hacıyev: "Bakı mədəni irsin qorunması baxımından mühüm mərkəzdir"

**Həyatımız şəhərlərlə bağlıdır. Şəhərlər böyüdükcə əhalinin artımı və iqlim dəyişiklikləri yeni çağırışlar yaradır. Azərbaycanda da iqlim dəyişikliklərinin təsirlərini müşahidə edirik.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "WUF13 QHT Forumu: Qlobal Tərəfdaşlıqlar və Qərarvermə" ("WUF13 NGO Forum") adlı tədbirdə çıxışında bildirib.



"Forumun ilk günündə gözlənilməz yağışla üzləşdik - bu da iqlim dəyişikliyinin real təsirlərini bir daha göstərir. Şəhərlər bu dəyişikliklərə daha çox məruz qalır.

Dünən Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan bu müzakirələr üçün əlverişli bir məkandır. Azərbaycan xalqı şəhərsalma sahəsində qədim ənənələrə malikdir. Qəbələ qədim İpək Yolunun mühüm şəhərlərindən biri olub. Bakı isə mədəni irsin qorunması baxımından mühüm mərkəzdir.

Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə aparılan tikinti və bərpa işləri böyük bir missiyadır. Minalarla çirkləndirilmiş ərazilərdə biz yeni tarix yazırıq.

Təəssüf ki, XX əsrdə şəhərlər gözlərimizin önündə dağıdılıb, doqquz şəhərimiz məqsədli şəkildə yerlə-yeksan edilib. Ağdam, məsələn, Qafqazın "Xirosiması" adlandırılırdı. Yüz minlərlə insana ev olan bu şəhər tamamilə dağıdılmışdı.

Biz isə bu ərazilərdə vətəndaşlarımız üçün yeni həyat qururuq. Azərbaycan doğrudan da bu Şəhərsalma Forumu üçün ən münasib məkandır. Biz öz təcrübəmizi bölüşməyə və müxtəlif təcrübələri öyrənməyə hazırıq. Azərbaycan Qlobal Şimal və Qlobal Cənub arasında körpü rolunu oynayır", - deyə Hikmət Hacıyev bildirib.

# WUF13 çərçivəsində MİM tərəfindən tədbir keçirildi

**20 may tarixində Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyası (WUF13) çərçivəsində "Media İnkişaf Mərkəzi (MİM)" İctimai Birliyi tərəfindən "Urban Dayanıqlılıq və Mənzilləşmə ilə bağlı İctimai Müzakirədə Media Hərəkətverici Qüvvə kimi" mövzusunda tədbir keçirilib.**

Adalet.az xəbər verir ki, tədbirdə MEDİA Agentliyinin struktur bölmə rəhbərləri, media nümayəndələri, beynəlxalq ekspertlər, parlament üzvləri və müxtəlif qurumların təmsilçiləri iştirak ediblər.



Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının üzvü, ADA Universitetinin Kommunikasiya və Rəqəmsal Media ixtisasının müəllimi Şəfəq Mehrəliyeva çıxışında WUF13 kimi beynəlxalq platformaların şəhərsalma, dayanıqlı inkişaf və urbanizasiya məsələlərinin ictimai müzakirəsində mühüm rol oynadığını bildirib. Qeyd olunub ki, belə qlobal təşəbbüslərin cəmiyyətə düzgün çatdırılmasında media peşəkarlığı, rəqəmsal kommunikasiya və keyfiyyətli ictimai məlumatlandırma xüsusi əhəmiyyət daşıyır. Medianın İnkişafı Agentliyinin Beynəlxalq əlaqələr və sənədlərlə iş departamentinin direktoru Rasim Bağırov isə şəhərsalma və dayanıqlı inkişaf mövzularının ictimaiyyətə düzgün çatdırılmasında medianın rolundan danışıb. Bildirilib ki, urbanizasiya, iqlim dəyişiklikləri və şəhər dayanıqlılığı ilə bağlı məsələlərin peşəkar və məsuliyyətli şəkildə işıqlandırılması müasir informasiya mühitində vacib faktordur. Tədbirdə şəhər dayanıqlılığı, mənzil siyasəti, iqlim çağırışları və ictimai kommunikasiya məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

## 2026-cı ilin sonuna ÜDM nə qədər arta bilər?



**"Bu ilin ilk rübündə müşahidə olunan mənfi dinamikanın ardından artıq aprel ayından etibarən Azərbaycan iqtisadiyyatında yenidən müsbət hərəkət görünməyə başlayıb. Yanvar-aprel aylarında Azərbaycanda 39 milyard 875,1 milyon manatlıq ümumi daxili məhsul istehsal olunub və iqtisadiyyat ötən ilin eyni dövrü ilə müqayisədə 0,2 faiz artıb".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, amma neft-qaz sektorunda geriləmə vardır: "Belə ki, neft-qaz sektorunda əlavə dəyər 0,9 faiz azalaraq 12 milyard 135 milyon manata düşüb. Çox vaxt sual verilir ki, neftin qiyməti yüksəlirsə, niyə neft-qaz sektorunda azalma görünür?Səbəb ondadır ki, ÜDM hesablanarkən neftin bazardakı satış qiyməti deyil, ölkədə nə qədər neft və qaz hasil olunduğu, yəni istehsal həcmi əsas götürülür. Yəni hasilat azalanda, qiymətlər yüksək olsa belə, statistik olaraq sektorda azalma olur. Qeyri-neft-qaz sektoru isə 0,7 faiz artaraq 27 milyard 740,1 milyon manata çatıb. Bu da iqtisadi aktivliyin getdikcə daha çox qeyri-neft sahələri hesabına formalaşdığını göstərən müsbət siqnaldır.Birinci rübdəki mənfi 0,3 faizlik nəticədən sonra dinamikanın aprel ayında müsbət 0,2 faizə keçməsi göstərir ki, bu temp qorunarsa, 2026-cı ilin sonuna ÜDM artımının təxminən 1,3-1,5 faiz civarında olacağını ehtimal etmək olar. Təbii ki, mövcud dinamika saxlanılarsa. Hətta iqtisadi aktivliyi gücləndirən əlavə qərarlar və addımlar olarsa bu temp daha da sürətlənə bilər".

**Vasif ƏLİHÜSEYN**

## Region müharibələri Türkiyə iqtisadiyyatına müsbət təsir edib



**Türkiyəyə rəhbərlik etdiyimiz illər ərzində ölkəni bütün sahələr üzrə daha yüksək səviyyəyə çatdırmış, milli iqtisadiyyat üçün güclü və dayanıqlı təməl yaratmışıq. Dünyada proteksionist meyillərin gücləndiyi, ticarət rəqabətinin isə daha da sərtləşdiyi bir dövrdə Türkiyə iqtisadiyyatının həcmi 1,6 trilyon dollara yüksəlib, adambaşına düşən gəlir isə 18 min dolları ötüb.**

Adalet.az xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada Türkiyənin Ticarət və Sənaye Palataları və Birjaları Birliyində keçirilən tədbirdə səsləndirib. Prezident bildirib ki, Türkiyənin yerləşdiyi bölgədə münaqişələrin davam etməsinə baxmayaraq, ötən ilin yekunlarına görə, ölkə iqtisadiyyatı 3,6 faiz artıb. "Xarici ticarət dövriyyəsi 820 milyard dollara çatıb. Məhsul və xidmət ixracı 396 milyard dollar təşkil edib. Yaxın vaxtlarda ixrac həcmi 400 milyard dolları keçəcək", - deyə Ərdoğan qeyd edib. Dövlət başçısı vurğulayıb ki, müharibələr və böhranların yaratdığı çətinliklərə baxmayaraq, Türkiyənin ixrac göstəricilərində artım davam edir. Bu ilin aprel ayının nəticələrinə əsasən, Türkiyədən dünyanın 166 ölkəsinə məhsul tədarükündə artım qeydə alınıb. "Türkiyə iqtisadiyyatının potensialını görən xarici investorlar son 23 ildə ölkəmizdə 89 min şirkət yaradıb və Türkiyəyə 290 milyard dollar sərmayə yatırıb. Həmin investisiyalar 1,2 milyon Türkiyə vətəndaşının işlə təmin olunmasına imkan verib, ixrac hesabına isə ölkəyə hər il 70 milyard dollar valyuta gəliri qazandırıb", - deyə Rəcəb Tayyib Ərdoğan bildirib.

# Fərəc Quliyev Prezident Administrasiyasında qəbul edilib

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev Prezident Administrasiyasında qəbul edilmişdir.**

Bu barədə redaksiyamıza Fərəc Quliyevin özü məlumat verib.

Partiya sədri bildirib ki, mayın 19-da Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevlə keçirilmiş görüşdə Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə aparılan iqtidar-müxalifət siyasi dialoqunun vacibliyi və nəticəsi olaraq cəmiyyətdə formalaşmış milli-siyasi birliyin önəmi xüsusi vurğulanmışdır.





Həmçinin regionda baş verən son hadisələr, ölkəmizin geosiyasi uğurları və Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Bakıda keçirilməsinin ölkəmizin artan beynəlxalq nüfuzunun göstəricisi olduğu barədə fikir mübadiləsi aparılmışdır. Eyni zamanda Vətən müharibəsində qazanılmış böyük Zəfərdən sonra Azərbaycanın Qərbin aparıcı dövlətləri ilə əlaqələrinin möhkəmlənməsi, regionun və Avropanın enerji təchizatında ölkəmizin mövqeyinin güclənməsi məsələləri haqqında söhbət aparıldığını bildirən F.Quliyev belə bir məqamda dövlətin daha da güclənməsi naminə ölkədəki bütün siyasi qüvvələrin birliyinin vacibliyinə toxunmuşdur.

**İşğaldan azad edilmiş torpaqlarda aparılan genişmiqyaslı quruculuq işləri, Böyük Qayıdış Proqramının sürətli icrası və öz doğma torpaqlarına qayıdan vətəndaşlarımız üçün layiqli və təhlükəsiz həyat şəraitinin qurulması F.Quliyev tərəfindən yüksək dəyərləndirilmiş və bütün bu uğurların fonunda Azərbaycanın nailiyyətlərini həzm edə bilməyən radikallaşmış şəxslərin antimilli fəaliyyəti qınanılmışdır.**

# Birləşmiş Ərəb Əmirlikləri İranın 530 milyard dollarını mənimsəyib

## Növbə Rusiyanındır?

**Həyat göstərir ki, külli miqdarda ölkə aktivlərini xarici banklara yerləşdirmək təhlükəli və mənasızdır. Bu gün sənə ”qızıl viza” və 99 illik müdafiə vəd edənlər, sabah heç bir izahat vermədən pullarının dalına keçə bilərlər.**

Birləşmiş Ərəb Əmirliklərinin İranın 530 milyard dollar dəyərində aktivlərini mənimsəməsi, buna acı misal ola bilər. Bu, xüsusilə Rusiyaya tanış ssenaridir. Avropa Birliyi və ABŞ artıq neçə illərdi Rusiyanın yüz milyardlarla avroluq aktivlərini dondurub, indi onların mənimsənilməsinin qanuni yollarını axtarırlar.



Aİ-də və ABŞ-da bunun məhkəmələr, direktivlər vasitəsiylə həlli yolları axtarılır, Yaxın şərqdə isə vəziyyət tamamilə başqa cürədir, məhkəmə filana ehtiyac duyulmur, açıdan-açığa mənimsənilir vəssalam. Avropa və Amerikada itirilən yüz milyardlarla avronun dərdinə əlac tapmamış Rusiya, indi də Birləşmiş Ərəb Əmirliklərində rəsmi göstərilən 20 milyard, Boston Consulting Crupun qiymətləndirməsinə görə isə, qeyri rəsmi 500 milyard dollar dəyərində aktivlərinin hayına düşüblər.

Rusiya prezidentinin illər əvvəl iş adamlarına və dövlət strukturlarına, xarici ölkələrdə və banklarda yerləşdirilən aktivlərini Rusiysya köçürmək barədə verdiyi tövsiyyələrə məhəl qoymayan biznes adamları, indi əl-ayağa düşüblər. BƏƏ-də, ofşor hesablarda yatırılan vəsaitlərinin əllərindən çıxa biləcəyindən bərk narahatlıq keçirirlər. Lakin, Rusiyanın hazırda ərəb dövlətlərinin ərazilərinə raket zərbələri endirən İrana dəstək verməsi, vəziyyəti daha da çıxılmaz edir. Rusların ən çox ehtiyat etdiyi-qorxduğu məsələ odur ki, Birləşmiş Ərəb Əmirliklərinin Rusiyanın da aktivlərini mənimsəməsinin qarşısını kim saxlaya bilər, məsələsidir.

**Rüstəm Hacıyev**
**SMİ 2 analitik mərkəzinin materiallarından istifadə olunub**

### *Azərbaycan süni intellekt və data mərkəzləri üzrə regional hab olmağı hədəfləyir*

**Azərbaycan süni intellekt və data mərkəzləri sahəsində regional hab kimi mövqeyini gücləndirməyi planlaşdırır.**

Adalet.az xəbər verir ki, bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov Bakıda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) bildirib.

Onun sözlərinə görə, Qafqaz, Mərkəzi Asiya və qonşu bazarlarda data mərkəzlərinə tələbat təxminən 850 meqavat həcmində qiymətləndirilir, halbuki mövcud regional təklif cəmi 30 meqavat təşkil edir.

”Bu isə Azərbaycan üçün böyük imkan yaradır. Ölkənin üstünlükləri sırasında 2 giqavatdan artıq enerji gücü, inkişaf mərhələsində olan 10 giqavatlıq yaşıl enerji layihələri, rəqabətqabiliyyətli elektrik tarifləri, tam fiberoptik şəbəkə əhatəsi və Avropanın əsas internet mübadilə nöqtələrinə çıxış yer alır.

Uzunmüddətli perspektivdə Azərbaycanda 30-50 min GPU yerləşdirilməsi nəzərdə tutulur və bu istiqamətdə aparıcı qlobal texnologiya şirkətləri ilə müzakirələr aparılır”, - deyə Samir Məmmədov əlavə edib.

# Politoloq: Tramp və Putin Çini qazanmaq uğrunda mübarizə aparır

**”Rusiya prezidenti Vladimir Putin ABŞ prezidenti Donald Trampdan sonra Çinə səfər etdi. İki böyük dövlət liderinin ardıcıl şəkildə Pekinə getməsi Çinin artan strateji mövqeyindən irəli gəlir. Yeni dünya siyasi nizamının formalaşması və strateji qərarların qəbulu artıq böyük ölçüdə Pekinin mövqeyindən asılıdır”.**



Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, Donald Trampla Si Cinpin arasında bir sıra strateji məsələlər üzrə müəyyən razılaşmaların əldə olunması da istisna deyil:

”V.Putin bildirib ki, Çinlə çoxqütblü dünyanın qurulması və yeni siyasi nizamın formalaşdırılması istiqamətində əməkdaşlıq ediləcək. Hazırkı mərhələdə həm ABŞ, həm də Rusiya Çinin dəstəyinə ehtiyac duyur. Hər iki dövlət Pekini öz geosiyasi tərəfdaşı kimi qazanmağa çalışır. Lakin Çin strateji təmkinini qoruyaraq daha çox öz geosiyasi mövqelərinin gücləndirilməsinə yönəlmiş siyasət həyata keçirir. Artıq qlobal qərarların yekun nəticəsi təkcə Vaşinqton və ya Moskvada deyil, müəyyən mənada Pekində formalaşır”. Politoloq bildirib ki, Çinin artan strateji üstünlüyü növbəti mərhələdə Tayvan üzərində nəzarəti genişləndirmək cəhdlərini sürətləndirə bilər:

”Pekin Rusiyaya hərbi və logistik dəstəyi artırmaqla Qərbin üstünlüyünün qarşısını almağa çalışır. Eyni zamanda, İrana dəstək verməklə Vaşinqtonu müxtəlif geosiyasi böhranlarla məşğul etməyə və beynəlxalq qərarların verildiyi əsas mərkəzlərdən birinə çevrilməyə çalışır. Çin soyuqqanlı və uzunmüddətli strateji siyasət yürüdərək qlobal nüfuz dairəsini genişləndirir. Beynəlxalq siyasi nizamın deqradasiyaya uğradığı və təhlükəsizlik risklərinin artdığı bir dövrdə həm Vaşinqton, həm də Moskva Çinlə əməkdaşlığa xüsusi önəm verir. ”Şərq Əjdahası”nın yüksəlişi və artan geosiyasi ambisiyaları isə ABŞ üçün ciddi strateji çağırışlar yaradır”.

**Sübhan**

### *Vilayət Eyvazov gürcüstanlı həmkarı ilə görüşüb*



**Azərbaycanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Gürcüstanın daxili işlər naziri Sulxan Tamazaşvili və onun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana rəsmi səfərə gəlib. Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, Azərbaycanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov gürcüstanlı həmkarı və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

V.Eyvazov daxili işlər naziri vəzifəsinə təyin olunması münasibətilə S.Tamazaşvilini təbrik edib, dəvətini qəbul edərək rəsmi səfərə gəldiyinə görə təşəkkürünü bildirib.

O, iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu məmnunluqla vurğulayıb, ötən illər ərzində imzalanmış sənədlərin işgüzar mühitin formalaşmasına əlverişli şərait yaratdığı, bunun informasiya mübadiləsində özünü göstərdiyi, transmilli cinayətkarlığın bütün növləri, o cümlədən kibercinayətkarlıqla mübarizə sahəsində səmərəli əməkdaşlığın xalqların mənafelərinə, bölgədə təhlükəsizliyə xidmət etdiyi qeyd olunub.

Qonaq səmimi qəbula, ətraflı məlumata və göstərilən qonaqpərvərliyə görə təşəkkür edib, Azərbaycanın sürətli inkişafından, ölkədə mövcud sabitlikdən, Bakının dünyanın təhlükəsiz şəhərlərindən biri olmasından məmnunluğunu ifadə edib. Səfər çərçivəsində qonaqlar DİN-in Daxili Qoşunlarının Bakı şəhərində yerləşən ”N” saylı hərbi hissəsinə baş çəkərək fəaliyyəti ilə tanış olublar.

### *“Vətəndaşlarımız yollarda qalır, stress keçirir, imtahana çata bilmir”*

**”Az qala 3 il öncədən bilinirdi ki, bu tarixdə Bakıda qlobal forum keçiriləcək. Tədbirlərlə bağlı Prezident sərəncam imzalayıb, Təşkilat Komitəsi yaradılıb, məsul şəxslər müəyyənləşdirilib. Amma qəribədir ki, belə bir beynəlxalq tədbirin keçirildiyi gündə DİM ölkə əhəmiyyətli magistratura imtahanı da planlaşdırıb.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib.

O, bildirib ki, bu necə koordinasiyadır:

”Təşkilat Komitəsi bu tip məsələləri nizamlamalı deyildimi? Bir tərəfdə şəhərdə geniş təhlükəsizlik tədbirləri, bağlanan yollar və yüksək trafik var, digər tərəfdə isə minlərlə insanın vaxtında çatmalı olduğu, ölkə miqyaslı bir imtahan. Xeyli sayda insanlar da yollarda qalıb, imtahana gecikib və ya ümumiyyətlə imtahana çata bilməyib. Bunların hamısı da əvvəlcədən bilinən məsələlər idi. Rəqəmsallaşmadan, ”smart city”, müasir şəhər idarəçiliyindən danışırıqsa, ilk növbədə dövlət qurumları arasında məlumat paylaşımı, vahid planlama və koordinasiya işləməlidir. Əks halda bütün bu plansızlığın nəticəsini yenə vətəndaş yaşayır. Vətəndaşlarımız yollarda qalır, stress keçirir, imtahana çata bilmir və bununla da dövlət idarəçiliyinə inam zədələnir”.

O.Gündüzün sözlərinə görə, yüksək səviyyəli forumlar keçirmək çox yaxşıdır, lakin bununla iş bitmir axı:

”Əsas məsələ eyni zamanda qurumlar arasında intizamın, məsuliyyətin, koordinasiyanın vəidarəetmə mədəniyyətinin işləməsidir. Ümumiyyətlə son zamanlar baş verənlər göstərir ki, dövlət intizamının gücləndirilməsi üçün, həmçinin tapşırılan işə cavabdehliyin və məsuliyyətin gücləndirilməsi üçün daha sərt tədbirlər görülməlidir”.

### *“Xalqın içində olmaq, onunla sarılmaq insanı güclü edir”*

**”Məmurların əksəriyyəti efir, ekran üçün hazırlıqlı deyillər.İctimaiyyətlə isə ümumiyyətlə işləyə bilmirlər. Xidmət sahələrində olanlar isə xalq arasına çıxmağı çoxdan unudublar. Bir neçə müddətdir ki, bəzi sosial media kanalları rəhmətlik, Ümummilli Liderin görüşlərindən parça -parça görüntülər yayırlar. Şərhlərini oxumamaq olmur. Xalqın içində olmaq, onunla sarılmaq insanı güclü edir”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib. ”Problem əlbəttə ki, həmişə var, lakin Heydər Əliyevin içərisinə düşdüyü situasiyanı kimsə yaşamamışdı:

Məcburi köçkün düşərgələrinə gedir: evsiz, eşiksiz, ac, sussuz adamlara dövlətin o zaman sözdən başqa verəcəyi nəsə yox idi, amma onu edirdi.İndi həmin videoların şərhinə baxanda adamları başa düşmək olur. Çünki məmurlar xalqın qarşısında danlanır, fəaliyyətinə görə tənqid edilirdi. İndi nəinki tənqid etmək, məmur belə tapmaq mümkün olmur.Tapılanların isə ütülü sözləri öz əleyhlərinə çevrilir. Kommunikasiya münasibətdən, cavabdeh olduğun xidmət sahəsindən faydalanan insanlarla uğurlu əlaqədən keçir. İctimai fəaliyyətdən, unikal, yaradıcı, korporativ fəaliyyətdən keçir.Axı bunlar o qədər də çətin şey deyil”, - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**

# Bakı şəhəri qlobal şəhərsalma müzakirələrinin mərkəzinə çevrilib



*İradə Rizazadə, "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai .Birliyinin sədri, forum iştirakçısı*

**Bildiyiniz kimi, mayın 17-dən 22-dək davam edəcək WUF13 BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) və Azərbaycan hökumətinin birgə təşkilatçılığı ilə keçirilir. Forum "Dünyanı məskunlaşdırmaq: Təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar" mövzusuna həsr olunub və qlobal mənzil böhranı, dayanıqlı urbanizasiya, şəhər dayanıqlılığı, iqlim dəyişikliklərinin şəhərlərə təsiri və müasir şəhər idarəçiliyi kimi mühüm məsələləri əhatə edir.**

Belə ki, Bakıda keçirilən bu Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının dünyanın ən nüfuzlu qlobal şəhərsalma platformalarından biri hesab olunur, 182 ölkədən 45 mindən artıq iştirakçı qeydiyyatdan keçdiyi forum son illərin ən böyük beynəlxalq tədbirlərindən birinə çevrib. Bu, COP29-dan sonra ölkəmizdə keçirilən ikinci ən böyük beynəlxalq tədbirdir. Bəli, Bakı artıq qlobal siyasi, iqtisadi və humanitar müzakirələrin keçirildiyi mühüm mərkəz statusu qazanıb.

Onu da qeyd edim ki, cari ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması bu sahəyə dövlət səviyyəsində göstərilən diqqətin ifadəsidir. Eyni zamanda, 2022-ci ildən etibarən BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlıq çərçivəsində Ağdam, Zəngilan və Xankəndidə milli şəhərsalma forumlarının keçirilməsi Azərbaycanın postmünaqişə dövründə şəhərsalma siyasətinə xüsusi önəm verdiyini təsdiqləyir. Xüsusən də Azərbaycanın əldə etdiyi zəfərdən sonra regionda yeni düzən formalaşıb. Bu düzən kontekstində də belə forumların təşkil edilməsi Azərbaycanın mövcud potensialına strateji mövqeyinin təqdim edilməsi baxımından önəmlidir. Bu, həm də onu ifadə edir ki, ölkəmiz beynəlxalq siyasi, iqtisadi və humanitar platformalarda etibarlı tərəfdaş, mühüm təşəbbüslərin müəllifi və nüfuzlu təşkilatçıdır.

Forumda Prezident cənab İlham Əliyev tərəfindən səsləndirilən fikirlər Azərbaycanın müasir inkişaf strategiyasının mahiyyətini, milli-mənəvi dəyərlərə söykənən şəhərsalma siyasətini və gələcəyə hesablanmış dövlət baxışını bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Bu çıxış yalnız şəhərsalma məsələlərinə dair siyasi mövqe kimi yox, eyni zamanda Azərbaycanın müasir dövlət fəlsəfəsinin təqdimatı kimi böyük əhəmiyyət daşıyır. Ölkə rəhbərinin çıxışında çox aydın diktə edilib ki, şəhərsalma məsələləri təkcə bir tədbir çərçivəsi deyil, həm də Azərbaycanın qədim dövlətçilik ənənələrinə, memarlıq irsinə, Qarabağ və Şərqi Zəngəzurun bərpasına, ekoloji yenilənmə siyasətinə və dayanıqlı inkişaf modelinə dair mühüm mesajlardır. Bu istiqamətdə bundan sonra da beynəlxalq aləmin diqqəti məhz bu kimi məsələlərə yönəldiləcək.

Bu gün Bakı qədim tarixlə müasirliyin harmoniyasını özündə birləşdirən nadir dünya şəhərlərindən biridir. Bir tərəfdə əsrlərin yaddaşını yaşadan İçərişəhər, digər tərəfdə isə müasir memarlıq nümunələri, innovativ urbanizasiya layihələri və dayanıqlı şəhər mühiti Azərbaycanın inkişaf modelinin necə balanslı şəkildə qurulduğunu nümayiş etdirir. Tarixi irsin qorunması ilə müasir infrastrukturun paralel inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri olaraq uğurla həyata keçirilir. Bu yanaşma yalnız memarlıq baxımından yox, həm də milli kimliyin və mədəni yaddaşın qorunması baxımından xüsusi strateji əhəmiyyət daşıyır.

Məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son illərdə şəhərsalma sahəsində regionun aparıcı ölkəsinə çevrilib. Ölkəmiz artıq yalnız öz daxilində quruculuq prosesləri həyata keçirən dövlət kimi yox, beynəlxalq şəhərsalma platformalarında təşəbbüslərlə çıxış edən, qlobal urbanizasiya çağırışlarına töhfə verən etibarlı tərəfdaş kimi qəbul olunur.

Forum çərçivəsində Azərbaycanın qədim şəhərlərinin tarixi-mədəni irsi və memarlıq ənənələrinin xüsusi vurğulanması da böyük qürur hissi doğurur. Şamaxı, Naxçıvan, Gəncə, Şəki, Qəbələ və xüsusilə Şuşa kimi şəhərlərimiz əsrlər boyu formalaşmış yüksək memarlıq məktəbinin, zəngin mədəni irsin və milli dövlətçilik tariximizin canlı nümunələridir. Bu şəhərlərin qorunması və gələcək nəsillərə çatdırılması milli irsə verilən dəyərin göstəricisidir. Bu gün işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı yenidənqurma layihələri isə dünya şəhərsalma tarixində xüsusi əhəmiyyətə malik nümunələr sırasında yer alır. Qısa zaman ərzində inşa olunan yollar, tunellər, körpülər, hava limanları, yaşayış kompleksləri, məktəblər, xəstəxanalar və sosial infrastruktur layihələri Azərbaycanın güclü siyasi iradəsini və dövlət potensialını açıq şəkildə nümayiş etdirir.

Böyük Qayıdış Proqramı çərçivəsində həyata keçirilən bu layihələr yalnız quruculuq prosesi yox, həm də tarixi ədalətin bərpası, milli qürurun təntənəsi və vətəndaş həmrəyliyinin təcəssümüdür.

Onu da qeyd etmək istəyirəm ki, rəhbəri olduğum "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyi "Əlilliyi olan Şəxslərin Təşkilatları İttifaqı" İctimai Birliyi ilə birlikdə tərəfimizdən "Bakı Şəhərsalma Həftəsi"nin üçüncü günündə "Şəhərlər hamı üçün - heç kim kənarda qalmasın" adlı tədbir keçirildi. Tədbirdə çıxış edərək, şəhərlərdə inklüziv inkişafın təşviqi, vətəndaş cəmiyyətinin bu istiqamətdə rolunun gücləndirilməsi, eləcə də müxtəlif sosial qrupların qərarvermə prosesində iştirakının vacibliyini diqqətə çatdırdım.

**Ümumilikdə hesab edirəm ki, Ümumdünya Şəhərsalma Forumu bir daha nümayiş etdirir ki, Azərbaycan yalnız regionun deyil, bütövlükdə beynəlxalq məkanın mühüm şəhərsalma, urbanizasiya və davamlı inkişaf mərkəzlərindən birinə çevrilməkdədir.**

# Bakı Şəhərsalma Mükafatı təsis edilib

**Azərbaycan Hökuməti və BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) dayanıqlı şəhər inkişafı sahəsində yeni qlobal mükafat - Bakı Şəhərsalma Mükafatını (Baku Urban Award) təsis edir.**

Bakıvaxtı.az xəbər verir ki, WUF13 çərçivəsində dayanıqlı şəhər inkişafı və əlçatan mənzil sahəsində qabaqcıl şəhərsalma həllərinin təşviqi və genişləndirilməsi məqsədilə Azərbaycan Respublikası Hökumətinin təşəbbüsü ilə BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) ilə birgə təsis olunan yeni beynəlxalq mükafat - Bakı Şəhərsalma Mükafatının (Baku Urban Award) rəsmi təqdimetmə mərasimi keçirilib.

Bakı Şəhərsalma Mükafatı uzunmüddətli sosial, iqtisadi və ekoloji təsir potensialına malik praktik şəhər həllərinin beynəlxalq səviyyədə təşviqinə yönəlmiş qlobal platforma kimi formalaşdırılır.

Mükafat Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) əsas qalıcı irsindən biri olacaq. Mükafat Forum çərçivəsi ilə məhdudlaşmayaraq, qlobal şəhər gündəliyinin uzunmüddətli təşviqinə xidmət edən beynəlxalq mexanizm kimi nəzərdə tutulur.

Təşəbbüs üç əsas istiqamətin birləşdirilməsini nəzərdə tutur: şəhərsalma mütəxəssisləri tərəfindən artıq tətbiq olunan praktik həllər;ekspert biliklər və elmi əsaslandırılmış yanaşmalar;

uğurlu təcrübələrin milli və beynəlxalq siyasətə inteqrasiyası.



Qiymətləndirilmə memarlıq, şəhərsalma, mənzil təminatı, iqlim dayanıqlılığı, maliyyə və vətəndaş cəmiyyəti sahələrində aparıcı beynəlxalq ekspertlərdən ibarət müstəqil münsiflər heyəti tərəfindən həyata keçiriləcək.

Mükafat dünyanın bütün regionlarını təmsil edən iştirakçılar üçün açıq platforma olacaq. Bakı Şəhərsalma Mükafatının təsis olunması Azərbaycanın qlobal şəhərsalma və iqlim gündəliyinə uzunmüddətli sadiqliyinin növbəti təzahürüdür.

Bu istiqamətdə həyata keçirilən təşəbbüslərə COP29-a ev sahibliyi, "Dayanıqlı və Sağlam Şəhərlər üçün Multisektoral Fəaliyyət Yolları (MAP)" və "Bakı Davamlılıq Koalisiyası" təşəbbüslərinin irəli sürülməsi, UN-Habitat-ın "Hər kəs üçün münasib mənzil" üzrə Açıq Hökumətlərarası İşçi Qrupuna həmsədrlik , eləcə də WUF13-ə Bakının ev sahibliyi etməsi daxildir.

**Azərbaycanın UN-Habitat ilə əməkdaşlığı 2022-ci ildə Azərbaycan Milli Şəhərsalma Forumunun təsis edilməsindən etibarən ardıcıl şəkildə inkişaf edir. Bu əməkdaşlıq çərçivəsində şəhərsalmanın inkişafı sahəsində birgə layihələr həyata keçirilir. Buraya həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında üç Milli Şəhərsalma Forumunun təşkili, eləcə də 2023-cü ildə Bakıda Ümumdünya Məskunlaşma Günü münasibətilə keçirilmiş tədbirlər daxildir.**

## *Könül Nurullayeva: "Azərbaycanın enerji ixrac imkanları daha da genişlənir"*

**Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Hazırda Azərbaycan təbii qazı 16 ölkəyə ixrac edir. Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində bir daha bəyan etdi ki, "boru kəmərləri vasitəsilə qaz tədarük etdiyimiz ölkələrin sayına görə biz dünyada birinci yerdəyik". Bu, Azərbaycanın enerji diplomatiyasını uğurla genişləndirdiyini və Avropa üçün etibarlı tərəfdaşa çevrildiyini göstərir.**



Dövlət başçısı həmçinin yaxın gələcəkdə yeni yataqlardan qaz hasilatına başlanacağını açıqladı. Bu isə Azərbaycanın enerji ixrac imkanlarının daha da genişlənəcəyi deməkdir. Avropa ilə əməkdaşlığın qarşılıqlı maraqlara əsaslandığını vurğulayan Prezident İlham Əliyev bildirdi ki, "Avropanın Azərbaycan kimi alternativ təchizat mənbəyinə ehtiyacı var".

Müsahibədə Azərbaycanın beynəlxalq nüfuzu, Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma işləri, enerji təhlükəsizliyi və regional diplomatiya məsələlərinə dair mühüm mesajlar səsləndi. Müsahibənin əsas mövzularından biri Bakıda keçirilən Dünya Şəhərsalma Forumu - WUF13 oldu. Cənab Prezident forumun yüksək beynəlxalq iştirak səviyyəsini Azərbaycanın artan nüfuzunun göstəricisi kimi qiymətləndirdi. Dövlət başçısı qeyd etdi ki, "182 ölkənin təmsil olunması Azərbaycana göstərilən hörmətin bariz nümunəsidir". Təsadüfi deyil ki, COP29-dan sonra WUF13 kimi qlobal platformanın Bakıda təşkili ölkənin şəhərsalma və dayanıqlı inkişaf sahəsində söz sahibi olduğunu təsdiqləyir.

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma layihələrinə də toxunan Prezident İlham Əliyev Azərbaycanın "misilsiz təcrübə formalaşdırdığını" bildirərək vurğuladı ki, işğaldan azad edilmiş ərazilərdə şəhər və kəndlər faktiki olaraq sıfırdan qurulur. Belə ki, son 5 ildə artıq 85 min insanın doğma torpaqlarına qayıdışı təmin olunub. . Bu rəqəm dövlətin "Böyük Qayıdış" proqramını prioritet istiqamət kimi davam etdirdiyini göstərir.

Müsahibədə diqqət çəkən məqamlardan biri də "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının tətbiqi idi. Prezident bildirdi ki, artıq əsas investisiyalar yaşayış məntəqələrinin qurulmasına yönəldilib və müasir şəhərsalma yanaşmaları tətbiq edilir. Qarabağda yaşıl enerji siyasətinin həyata keçirilməsi də Azərbaycanın gələcək inkişaf modelinin əsas hissəsidir. Dövlət başçımızın sözlərinə görə, "307 meqavatlıq hidroenerji gücü istifadəyə verilib", eyni zamanda yüzlərlə meqavat gücündə Günəş enerjisi layihələri icra olunur. Bu, postmünaqişə dövründə ekoloji və texnoloji baxımdan müasir quruculuğun təsdiqidir.

Müsahibənin mühüm hissələrindən biri də regional sabitlik və diplomatiya ilə bağlı idi. Prezident İlham Əliyev Yaxın Şərqdəki gərginliklərə toxunaraq Azərbaycanın enerji və nəqliyyat marşrutlarının şaxələndirilməsi sayəsində daha dayanıqlı mövqedə olduğunu qeyd edib. O vurğuladı ki, "biz daim diplomatiyanın tərəfdarıyıq". Rəsmi Bakı hesab edir ki, enerji layihələrinin uğuru qonşularla etibarlı münasibətlər və çoxtərəfli əməkdaşlıq mexanizmləri ilə mümkündür.

Bu, Azərbaycanın yeni geosiyasi və iqtisadi reallıqlara baxışını göstərir.

## *5 ildə 3 rayona köçənlərin sayı*

**Son 5 ildə Ağdam, Füzuli və Xocavənd rayonlarına 13 min 700 nəfər köçüb.**

Adalet.az xəbər verir ki, bunu Prezidentin Ağdam, Füzuli və Xocavənd rayonlarında xüsusi nümayəndəsi Emin Hüseynov jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, digər çalışanlarla birgə bu 3 rayonda 50 mindən çox adam yaşayır.

"Hədəfimizdir ki, bu il daha 30 min sakin doğma torpaqlarına qayıtsın. Ağdamda 4 və 5-ci yaşayış komplekslərinin, iki kəndin tikintisinin başa çatması, Füzulinin isə Dövlətyarlı və Pirəhmədli kəndlərinin tikitinisinin başa çatması ilə bunu təmin edə biləcəyik".

Onun sözlərinə görə, bu gün azad edilmiş ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" layihələri əsas yer tutur:

"Baş planlar elə tərtib olunur ki, əsas obyektlər bir yerdə cəmlənsin və insanlar üçün əlverişli olsun. Milli, mədəni və tarixi irsimizi qorunması da bərpa və quruculuq işlərində vacib yer tutur.

Həmçinin müasir iş yerləri və ləyaqətli yaşayışın təmin edilməsi önəmlidir".

O vurğulayıb ki, işğaldan azad olunmuş ərazilərdə "yaşıl zona" prinsipi tətbiq edilir:

"Fərdi yaşayış evlərinin üzərində günəş panelləri yerləşdirilir, ikitərəfli sayğaclar tətbiq olunur. Qarabağ və Şərqi Zəngəzurda elektrik enerjisinin mənbəyi alternativ enerji mənbələrindən qaynaqlanır".

**Akif Rəfiyev,**
**Binəqədi Rayon Ağsaqqallar Şurasının sədri, Əməkdar hüquqşünas**



# Tariximizin yeni inkişaf mərhələsi

**Xalqın azadlıq və müstəqillik mübarizəsi tarixinə qızıl hərflərlə həkk olunmuş 1918-ci il mayın 28-i hər bir Azərbaycan vətəndaşının milli qürur hissi duyduğu ən əlamətdar günlərdən biridir. Əsrlərlə azadlıq və müstəqillik arzusu ilə yaşayan Azərbaycan xalqı ötən əsrin əvvəllərində öz arzusuna qovuşdu. Şərqdə ilk dəfə azad, demokratik, dünyəvi dəyərlərə söykənən müstəqil bir respublikanın yarandığı dünyaya bəyan edildi. Xalq 1918-ci il mayın 28-də çar Rusiyasının bir əsrdən artıq davam edən müstəmləkə əsarətindən azad oldu, Şərqin ilk demokratik respublikasının təməlini qoydu. Həmin gün Azərbaycan Milli Şurasının iclasında İstiqlal Bəyannaməsi qəbul edildi. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında yeni bir mərhələ, tarixi hadisə oldu.**

Heç kəsə sirr deyil ki, Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş Ulu Öndər öz titanik fəaliyyətində həmişə xalqa arxalanıb, ən çətin anlarda ona müraciət etmişdi. Xalq da heç vaxt ondan öz dəstəyini əsirgəməmişdi. Ən ağır məqamlarda Azərbaycan xalqı əmin idi ki, Heydər Əliyev müstəqilliyi, dövlət maraqlarını, xalqın, dövlətin maraqlarını qoruyacaq və xalqın mənafeyi ilə bağlı ən düzgün qərar verəcək. Ulu Öndərin xalq işinə sədaqəti, siyasi müdrikliyi, böyük dövlətçilik təcrübəsi, parlaq hafizəsi, geniş dünyagörüşü, polad iradəsi və yüksək intellekti bir dövlət başçısı kimi onun ən yüksək keyfiyyətlərdən idi. Ulu Öndər Heydər Əliyev respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı. İlk dəfə olaraq rəsmi qaydada üçrəngli bayrağı Ulu Öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında rəsmi dövlət bayrağı kimi qaldırıb. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağı 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilmişdi. Bununla da müstəqilliyə gedən yolun əsası qoyulub. Sovet İttifaqı mövcud olduğu bir vəziyyətdə belə cəsarətli addımın atılması Ulu Öndərin xalqına, dövlətinə nə qədər bağlı olduğunu, bu yolda nə qədər cəsarətli, dönməz olduğunu bir daha göstərdi. Azərbaycanın müstəqil dövlət kimi ilk Konstitusiyası qəbul edildi.

Tarixi proseslər, hadisələr deməyə əsas verir ki, müstəqilliyin əldə edilməsi mürəkkəb bir proses olsa da onu qoruyub saxlamaq daha çətin, məsuliyyətli bir işdir. XX əsrin sonlarında müstəqilliyinə yenidən qovuşan Azərbaycan suverenliyini qoruyub saxlamağı bacardı. Çətin siyasi-iqtisadi dövrdə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Həmin dövrdə Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü bir tərəfdən, daxili münaqişələr digər tərəfdən ölkəni çətin bir vəziyyətə salmışdı. Məhz belə bir şəraitdə xalqın təkidi ilə hakimiyyətə gələn Heydər Əliyev dövlətimizin və dövlətçiliyimizin xilaskarı oldu.

Ulu Öndərin hakimiyyəti dövründə Azərbaycanda daxili ictimai-siyasi sabitlik möhkəmlənməyə başladı. Azərbaycanın dünyanın bir çox ölkələri ilə iqtisadi əlaqələri quruldu. 1994-cü ildə Azərbaycan Dövlət Neft Şirkəti ilə bir çox böyük şirkətlər arasında imzalanmış "Əsrin müqaviləsi" Azərbaycan iqtisadiyyatının inkişafına təkan verdi və gələcək layihələr üçün yol açdı. Azərbaycanın müstəqil dövlət kimi ilk Konstitusiyası qəbul edildi.

Ölkədə iqtisadi, siyasi, sosial, mədəni və digər sahələrdə islahatlar aparıldı, dövlətimiz sürətli inkişaf yoluna qədəm qoydu. Düşünülmüş və uzaqgörən siyasət nəticəsində Azərbaycan dövləti iqtisadi və siyasi böhrandan çıxmış oldu. İqtisadi, sosial, ictimai həyatda aparılan islahatlarla yanaşı Azərbaycanın milli ordusu - Silahlı Qüvvələr yaradıldı.

Ümummilli Liderin hərtərəfli uzaqgörən siyasətini bugünkü gündə Prezident cənab İlham Əliyev uğurla davam etdirməkdədir.

Ölkə başçısının diqqət və qayğısı sayəsində maddi-sosial və texniki cəhətdən təchiz olunmuş, ən müasir silahlarla silahlanıb, dünyanın ən güclü orduları sırasında özünə layiqli yer tutan Azərbaycan Ordusu formalaşıb. 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusunun işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əkshücum əməliyyatında əldə etdiyi möhtəşəm qələbələrin ən başlıca səbəbi Prezident, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası, milli birlik, döyüşçülərimizin qəhrəmanlığı, vətənpərvərliyi, ruh yüksəkliyi idi. Qırx dörd günlük müharibədə məğlub olan Ermənistanın Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etməsi, Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin birgə imzaladıqları Bəyanat da məhz düşmən ölkənin kapitulyasiyasının ifadəsi və Azərbaycan dövlətinin birmənalı qələbəsinin göstəricisi oldu.

Məhz Prezident, Ali Baş Komandan İlham Əliyevin və rəşadətli Azərbaycan Ordusunun sayəsində xalqımız artıq altı ildir ki, 28 May - Müstəqillik Gününü torpaqlarımızın işğaldan azad edilməsinin sevinci, Vətən müharibəsi zəfərinin qüruru ilə yaşayır və qeyd edir.

Hazırkı dövr respublikamız üçün xüsusilə əlamətdar bir mərhələni təşkil edir. Azərbaycan dövlətinin gündəliyində dayanan əsas məsələlərdən biri 44 günlük Vətən müharibəsində işğaldan azad edilən ərazilərə Böyük Qayıdışın təmin olunmasıdır.

Qeyd etmək yerinə düşər ki, güclü dövlət olan Azərbaycan işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasına və bərpasına müharibə başa çatdıqdan dərhal sonra başladı. Artıq ərazi bütövlüyünü təmin edən Azərbaycan vətəndaşları öz torpaqlarına geri dönür.

Əminliklə deyə bilərik ki, bu dönüş qürurlu və möhtəşəmdir, işğaldan azad edilmiş ərazilərimiz ən qısa vaxtda öz inkişafları ilə yeni nümunələr yaradır.

**Bir sözlə, bu gün məhz ümummilli lider Heydər Əliyevin siyasi kursunun böyük uğurla davam etdirilməsi nəticəsində möhtəşəm tarixi Zəfərə imza atıldı. Ümummilli Liderin ən böyük arzusu gerçəkləşdi - Azərbaycanın ərazi bütövlüyünün bərpa edildi! Bütün bunlar onu deməyə əsas verir ki, vaxtilə Ulu öndər Heydər Əliyev tərəfindən qorunub saxlanılan müstəqilliyimiz bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və onun əbədiliyi təmin edilir.**



*Gülbar Heydərova*

# Şəhidlik zirvəsi

### *Füzulidə Yazılan Qəhrəmanlıq: Gülbar Heydərovanın Şəhidlik Zirvəsi*

**Azərbaycan xalqının tarixində qəhrəmanlıq salnaməsi yazan yüzlərlə igid övladımız var. Bu igidlərdən biri də 1-ci Qarabağ müharibəsində şücaət göstərərək Vətən uğrunda canından keçən cəsur döyüşçü, şəhid Gülbar Heydərovadır. O, yalnız silah tutan bir əsgər deyil, həm də fədakarlığı, mərdliyi, vətənə bağlılığı ilə yadda qalan bir şəxsiyyət idi. Onun həyatı və döyüş yolu bu gün də qürurla xatırlanır və gələcək nəsillər üçün bir nümunə, örnəkdir.**

### *Həyat yolu və formalaşması*

Gülbar Heydər qızı Heydərova 1965-ci il martın 1-də Füzuli rayonunun Qaraməmmədli kəndində, fəhlə ailəsində dünyaya göz açmışdır. Üç qardaşın tək bacısı idi. Uşaqlıqdan zəhmətə alışmış, ailəsinə bağlı, qayğıkeş və güclü xarakterli bir insan kimi böyümüşdür. Qonşu Zərgər kəndində 8 illik məktəbi bitirdikdən sonra Bakıdakı Neft-Kimya Texnikumuna daxil olmuşdur. Təhsilini başa vurduqdan sonra doğma yurduna qayıtmışdır.

O, əvvəlcə doluya qarşı hərbiləşdirilmiş mühafizə dəstəsində çalışmış, qısa müddət zamanı, rabitə rəisi vəzifəsinə yüksəlmişdir.

### *Cəbhəyə gedən yol*

Qarabağ müharibəsi başlayanda Gülbar Heydərova tərəddüd etmədən könüllü olaraq Füzulidə yaradılan özünümüdafiə batalyonuna qoşulmuşdur. Ailəsinin etirazına baxmayaraq, o bu qərarından dönməmişdi. Xüsusilə, Xocalı faciəsindən sonra onun qəlbində Vətənə xidmət etmək hissi daha da güclənmişdi. "Mən bu yolu seçmişəm, yolumdan dönməyəcəyəm"- deyərək cəbhəyə yollanmışdı. Gülbar qardaşı Kərimlə birgə eyni cəbhədə vuruşmuşdur.

### *Döyüş yolu və qəhrəmanlığı*

Gülbar Heydərova Füzuli rayonunun ən ağır döyüş bölgələrində-Gövşad, Qacar, Veysəlli, Divanalılar, Xırmanca, Məlikcan, Zərgər, Axullu, Dördlər, Üçbulaq kəndləri uğrunda gedən döyüşlərin fəal iştirakçısı olmuşdur. O, həm ön xətt döyüşçüsü, həm də peşəkar rabitəçi kimi fəaliyyət göstərirdi.

Zabit Rasim İbrahimovun təqdimatı ilə 20 nəfərlik rabitə xidmətinin rəisi vəzifəsi ona həvalə edilmişdi. Leytenant rütbəsi daşıyan Gülbar döyüşlər zamanı düşmən mövqelərinin koordinatlarını dəqiqliklə müəyyən edir, bu məlumatları topçu bölmələrə ötürərək düşmənə ciddi zərbələr endirilməsinə nail olurdu.

1993-cü ilin aprel ayında strateji əhəmiyyətli Məngələnata yüksəkliyi uğrunda gedən döyüşlərdə onun qəhrəmanlığı xüsusilə seçilmişdir. Gülbar həyatını riskə ataraq düşmənə ən yaxın mövqeyə qədər irəliləmiş, orada kəşfiyyat apararaq topçulara dəqiq koordinatlar vermişdir.



Onun bu addımı nəticəsində düşmən qüvvələri darmadağın edilmişdir. Gülbar Heydərovanın dəqiq və peşəkar fəaliyyəti düşmənə böyük itkilər verdiyi üçün ermənilər onun başına pul mükafatı təyin etmişdilər. Onu diri və ya ölü ələ keçirənə mükafat vəd olunsa da, düşmən bu niyyətinə nail ola bilməmişdir.

O, yalnız döyüşən bir əsgər deyildi. Eyni zamanda onlarla yaralı silahdaşını güclü atəş altında döyüş meydanından çıxararaq hospitala çatdırmış, bir çox insanın həyatını xilas etmişdir.

Döyüş yoldaşları onun cəsarətindən ilham alır, onun yanında özlərini daha güvənli hiss edirdilər. Gülbar Heydərova 1993-cü il iyulun 24-də qardaşı Kərimlə birlikdə yaralıları daşıyarkən "UAZ" markalı avtomobildə hərəkət edərkən qarşılarına düşən mərminin partlaması nəticəsində ağır yaralanmışdır. O, boğaz nahiyəsindən aldığı qəlpə yarası səbəbindən həyatını xilas etmək mümkün olmamışdır.

Qardaşı Kərimin qollarında son dəfə Füzulinin səmasına baxaraq gözlərini əbədi yummuşdur.

Onun şəhidliyi ailəsi üçün böyük faciə olmuşdur. Anası bu itkiyə dözə bilməmiş, qısa müddət sonra vəfat etmişdir. Gülbarın yoxluğu ailənin həyatında dərin iz buraxmışdır. Xatirəsi və təltif olunması,Gülbar Heydərova ölümündən sonra Azərbaycan Respublikası prezidenti İlham Əliyevin 859 nömrəli 24 iyun 2005-ci il tarixli sərəncamına əsasən "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmuşdur. O, Bakıda Şəhidlər xiyabanında dəfn edilmişdir. Gülbarın anası bu dünyadan Gülbarın həsrəti ilə köçdü. O, istəyirdi Gülbara "Milli Qəhrəman" adı verilsin, lakin buna nail ola bilmədi. Hər zaman deyirdi, "Gülbarın haqqını verməditər".

Gülbarın sağlığında göstərdiyi misilsiz igidlikləri nəzərə alan komandirləri ona "Milli Qəhrəman" adının verilməsi üçün yuxarı instansiyalara təqdimat göndərmişdi. Təəssüf ki, həmin təqdimat Müdafiə Nazirliyində it-bata düşdü.

Onun adı bu gün də böyük hörmətlə yad edilir. Adına bulaq kompleksi yaradılmış, haqqında məqalələr yazılmış, televiziya proqramları hazırlanmışdır. Hər il onun məzarı ziyarət olunur, insanlar onun ruhuna ehtiram göstərirlər.

Ailəsi onun adını yaşatmaq üçün qardaşı qızına Gülbar adını verirlər.

Bu gün Gülbar bu adı layiqincə daşıyır və hər zaman fəxr hissi duyur ki, nə yaxşı ki, mənim belə qəhrəman bibim olub. Bu məqaləni qələmə alan, onun adını daşıyan Gülbardı..bu mənim üçün böyük qürur və eyni zamanda ağır məsuliyyətdir. Mən hər zaman çalışacağam ki, Gülbar adının daşıdığı gücə, mərdliyə və vətən sevgisinə layiq olum. Gülbar adı sadəcə bir ad deyil eyni zamanda Heydərovlar ailəsinə mirasdır.

Artıq, ruhun rahatlıq tapsın qəhrəman bibim.. Çünki torpaqlarımız düşmən tapdağından azad edildi.. Bu gün biz əzəli torpaqlarımızın əbədi sakinləriyik.

Bu məqaləni yazarkən onu yalnız oxuduqlarımla deyil, ailəmdən eşitdiklərimlə, xatirələrdə yaşayan Gülbarla tanıdım. Üzünü heç vaxt görmədiyim, lakin qəlbimin dərinliklərində sonsuz sevgim olan Şəhidim...

Baharın ilk günündə doğuldun sən. Buna görə də ismin Gülbar oldu. Gülün bar verməsi, çiçəklənməsi. Həyatın heç zaman gül-çiçək açmasa da, sən hər zaman bizim qəlbimizdə çiçəkləndin..

Deyirlər, Gülbar çox mehriban, amma bir o qədər də güclü idi. Hər kəsə dayaq olur, qorxmadan irəli gedirdi. Mən də çalışıram ki, bu adı sadəcə daşımaqla kifayətlənməyim, ona layiq olum. o, bu ada cəsarət, fədakarlıq və vətən sevgisi yazdı.

Bu gün mən onun adını daşıyıram və hər dəfə bu adla çağırılanda bir daha xatırlayıram ki, bu sadəcə bir ad deyil bu, bir qəhrəmanın yadigarıdır.

Qəhrəmanlar unudulmur- Gülbar da yaşayır.

Onun keçdiyi yol qürurumuz, xatirəsi əbədidir.




Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az


# Ölən tək dəniz deyil, Göy üzüdü...

*(Millət vəkili, yazıçı-publisist İmamverdi İsmayılovun "Labirint" povesti çox möhtəşəmdir)*

**İstedadlı insanlar nə iş görsələr həmişə adamları təəccübləndirməyi bacarırlar... Çünki onlar nəyi necə yazmağı hamıdan yaxşı bilirlər. Bu mənada millət vəkili, yazıçı-publisist İmamverdi İsmayılov da həmişə öz oxucusuna sevgi ilə yanaşan, onun qəlbinə, ürəyinə yol tapan, daha doğrusu, onu övladı, nəvəsi qədər sevən qələm adamlarındandır. O, ilk hekayəsindən tutmuş, sonuncu povestinə kimi öz ənənəsinə sadiq qalır.**

**İmamverdi müəllim yaxşı bilir ki, oxucunu küsdürmək olmaz. Özü də indiki ədəbiyyat bolluğunda. Ona görə də istedadlı yazıçı hansı janrda əsər qələmə alırsa, orada sona qədər səmimi olur. Elə oxucular da bu səmimiyyətinə görə onu çox istəyir, oxuyur və hər dəfə özünü tapır. Və mən də İmamverdi İsmayılovu bu cəhətlərinə görə çox istəyirəm... 50 il əvvəl necə tanımışamsa, elə həmin İmamverdi İsmayılovdur! Heç dəyişməyib, əksinə bir qədər də sadə və səmimi olub. Onun hər hekayəsi, povesti, romanı, hətta portret oçerkləri möhtəşəmdir; gözəl dili, obrazlı təsvirləri, sözlərin rəngi və çalarları istər-istəməz adamın qəlbini ovsunlayır. Müasir yazarlar arasında mən bu detalları Seyran Səxavətdə, Aqil Abbasda, İmamverdi İsmayılovda görürəm. Xalq dilinin zənginliyi, bədii təsvir vasitələri, milli kökə bağlılıq onların yazılarında daha aydın görünür. İmamverdi İsmayılovun "Labirint" povesti isə məni lap heyran elədi. Sözün açığı, bu povesti düz iki dəfə oxudum; çünki burada çox dərin mənalar, fəlsəfi düşüncələr var. Bunu anlamaq üçün ən azından o povesti düşünə-düşünə oxumalısan...**

**Əgər düşünə-düşünə oxusan dünyanın çox qaranlıq məqamları sənin üçün aydınlaşacaq. Povestin qəhrəmanı ölümlə qalım arasında mücadilə aparır... Çox çətindir onun üçün bu dünyada yaşamaq ... Hara gedir haqsızlıq görür... Hara addım atır xəyanət hiss edir... Kimə yaxınlaşır, soyuqluq, laqeydlik duyur... Elə bil kı, bu dünyada onu anlayan, onu başa düşən, dünya boyda dərdini anlayan adama rast gələ bilmir... İnsanlar hər şeyi pula, vəzifəyə, şan-şöhrətə qurban verib. Qəbiristanlığa gedəndə ürəklərinə işıq gəlir, yumşalır, ancaq oradan çıxandan sonra qəddarlaşıb əvvəlki adam olurlar! Və insanlar qalır, amma insanlıq ölür... Bundan böyük faciə yoxdur.**

**Bu tək bir məmləkətin ağrısı, faciəsi, göz yaşları deyil. Bu, bəşəriyyətin göz yaşları, dünyanın göz yaşları, faciəsi, ölümüdür... Bu nə deməkdir? Bu o deməkdir ki, bir insan yanında can verir, onun yanında olan buna əhəmiyyət vermir! Bundan ağır anmı olar??? İnsan insandan bu qədər uzaqmı olar? Bax bütün bu detallar povestin əsas ana xəttini təşkil edir... Bu anları, bu məqamları təsvir etmək, obrazlı dildə oxucuya çatdırmaq elə də asan deyil. Bunu İmamverdi İsmayılov kimi istedadlı yazıçılar eləyə bilər. Bu povest tək bədii əsər kimi yadda qalmır, həm də bəşəri, elmi-fəlsəfi əsər kimi oxucunun yaddaşında dərin izlər qoyur. İnsanlara zülm eləyən, haqqına girən, gözü vardövlətdən doymayanlara bu povest həm də bir mesajdır! Bəlkə bundan həmin xislətli adamlar nəticə çıxaralar!**

**Povestin çox maraqlı hissələri var:" İnsan çiy süd əmib" deyirlər, ay-hay, guya bişirib versələr, canındakı pis vərdişlərin mayasını əriyəcək?" İnsan var ki, dünyaya gələn gündən hamıya pislik eləyir, ev yıxır, ona-buna "torba" tikir, badalaq atır və axırda da elədiyi pisliklər gec-tez qabağına çıxır. Hələ belələri utanmaz-utanmaz urvatlı ölüm arzulayırlar. Və belələri Allaha and olsun ki, it kimi ölürlər . İmamverdi İsmayılov bunların hamısını çox ustalıqla oxucuya çatdırır! Nə gözəl! " İnsan var - içində xurma yetişdirir, insan var - zəqqum..."**

**Məgər, belə insanları az görmüşük? Onlar gürzə ilanından da zəhərli və təhlükəlidirlər! Yazıçı bütün bunları bəşəriyyətə, dünyaya, insanlara çatdırır... Əsərin qəhrəmanı bu dünyada heç kimdə, heç kəsdə sədaqət, səmimiyyət, etibar görmür... Hara gedir soyuqluq görür... Hara addım atırsa xəyanət hiss edir... Hara üz tutursa, nəinki insanlar , hətta dünya da ondan üz döndərir... Ev soyuq... İnsanlar soyuq Göy üzü də soyuq... Onun gözündə dəniz öldüyü kimi, Yer üzü də, Göy üzü də ölür... Çünki səsini heç kim eşitmir... Və beləcə özünü Allahın qucağına atır...**

**Yəqin ki, bu dünyada başa düşülməyən, anlaşılmayan adam Allahın yanında daha rahat olur... Ruhu sakitləşir... Və möhtəşəm bir sonluq... Çünki insan bu dünyada istədiyini tapa bilməyəndə o dünyaya ümid bəsləyir...**

## Asan xidmət, yoxsa, çətin xidmət!




**Artıq uzun illərdir ki, ölkəmizdə " Asan" xidmət fəaliyyət göstərir. Ədalət naminə deyək ki, ilk aylar bu xidmətdən əhalinin hamısı çox razılıq edirdi. Çünki bu xidmət həm bürokratiyanın qarşını almışdı, həm də rüşvətin.Və gün də bu xidmətdə şəffaflıqdır, rüşvət də yoxdur! Çox gözəl! Amma bu xidmətdə müyyən nöqsanlar mövcuddur.**

Bu günlərdə bizim bir qohumun yolu Qara Qarayev prospektindəki " Asan" Kommunal Xidmətinə düşüb. Ona görə ki, işığı , qazı , suyu öz adına rəsmləşdirmək istəyib. Məlumat bürosunda ona deyiblər ki, qazın kartı yanında olmadığına görə ona növbə vermək mümkün deyil. Amma suya və işığa növbə götürmək olar.

Həmin adam da növbə götürüb ikinci mərtəbəyə qalxıb. Evin sənədlərin təqdim edib. Mütəxəssis xanım deyib ki, burda iki ünvan var, əməkdaşlarımız üç iş günündə onu aydınlaşdırıb dəqiqləşdirəcək və sizinlə əlaqə yaradılacaq. Bu məqsədlə onun mobil telefon nömrəsini də qeydə alıblar. Üstəlik də xanım deyib ki, sizin ünvana 4 nəfər yazacağıq. Bunlar hamısı formadır. Əgər su saygacı varsa, onda 4. nəfəri ora yazmağa nə ehtiyac!

Bax , bu məsələlər köhnə sistemdən qalan neqativ hallardır. Ona görə də, bu mövcud nöqsanların aidiyyəti qururum aradan qaldırmalıdır ki, abonentlər get- gələ salınmasın. Artıq bir çox sakinlər " Asan xidmət" dəki bürokratiyadan narazılıq edir. Bir - iki saatlıq əməliyyatlar dörd- beş saat çəkir. İnsanlar növbə götürməkdən bezir. Ona görə də ev alqı-satqısı zamanı Notariat Ofislərinə üz tuturlar. Çünki həmin əməliyyatlar bu ofislərdə uzağı bir- iki saat çəkir. Tay " Asan xidmət" dəki kimi bütün günü itirmirsən!

## Ən yaxşı maaşı da, ən yaxşı təqaüd də onlar almalıdır

**Bu gün ölkəmizdə ən az maaşı həkimlər, müəllimlər və mədəniyyət işçikəri alırlar. Əlbəttə,yüksək maaş alanlar da var! Sağlıqlarına qismət! Amma adını çəkdiyimiz peşə sahibləri daha çox maaş və təqaüd almalıdır. Ancaq almırlar. Hansı ki, xalqa da ən çox xidmət edən həmin peşə sahibləridir.**



Müəllimsiz, həkimsiz, mədəniyyət işçisi olmadan həyatımızı təsəvvür etmək çox çətindir. Çünki hər adddımda onların qayğısın, nəfəsin, köməyin hiss edirik. Və insanların ən çətin anında həkimlər biz yardım edirlər. Müəllim olmasa , dünya qaranlığa qərq olur. Eyni zamanda mədəniyyət işçisilərimiz bizə xidmət etməsə ruhumuz qidalanması!

Ancaq baxıb görürük ki, elə ölkəmizdə ən az maaş və təqaüd olan bu insanlardı. Bu mənada mədəniyyət işçiləri daha çox əziyyət çəkirlər.Xüsusən də aktyorlar daha az əmək haqqı alır və dolana bilmirlər.Nəcicədə bəzi aktyorlar sənətdən uzaqlaşırlar.Nə yaxşı ki, cənab prezident İlham Əliyev onların bir çoxuna prezident təqaüdü verilməsi barədə sərəncam imzalayıb. Əgər bu təqaüdlər olmasa, istedadlı aktyorlar daha çox əziyyət çəkərlər. Ona görə də adını çəkdiyimiz peşə sahibləri dövlətin diqqətində olmalı və onların rifah halı yüksəldilməlidir. Düzdür, hər il təqaüdlər artırılır. Bunlar hamısı çox gözəldir! Ancaq bu peşə sahiblərinin təqaüdləri isə bir neçə dəfə artırılmalıdır. Çünki onların başqa yerlərdən dolanışığı yoxdur! Bunu hər ay, hər il onlar səbirsizliklə gözləyirlər!!!

## Biz ət yeyən millətik...



**Başqa millətləri deyə bilmərəm, amma bizim millət ət yeyən millətdir.**

Çünki dədə- babadan gözümüzü açıb belə görmüşük. Özü də yağlı əti daha çox xoşlayırıq. Amma düşünmürük ki , yağlı ət xolesterin deməkdir..

Xolesterin isə ürəyin düşməmidir. Yəni damarlarda tıxac yaradır və nəticədə damarlar tutulur,ya infakt, ya da açıq ürək əməliyyatı keçirməli olursan. Ancaq buna baxmayaraq, əksər ailələr ət və ət məhsullarından istifadə edirlər. Elə ailə var ki, hər gün ət istehlak edir.Onlar bir gün ət yeməsələr dünya dağılar.Artıq dünya ət məhsullarında imtina edir.

Ən yaxşı halda onlar balıq və quş əti yeyirlər.Biz isə ətdən əl çəkmək istəmirik!Sağlam olmaq istəyiriksə, düzgün qidalanmalı, xolesterinlə zəngin məhsullardan uzaq durmalıyıq!!!

## Dana kəndiri qırıb qaçdı...

Bir neçə gün bundan əvvəl Bakının Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsində ət satışı köşkünün yanında ağaca bağlanmış dana kəndiri qıraraq qaçıb.

Biz bunu 50 nömrəli marşrutda gələndə gördük! Dana sürətlə üzü Köhnə Günəşliyə tərəf qaçırdı.Özü də avtomobil yoluyla.Heç sahibinin də hələ xəbəri yox idi. Nə yaxşı insanlara hücum eləmirdi.

Qarşısına çıxan adamlar bu təhlükəni hiss etdiyi üçün həmin yerdən uzaqlaşırdılar. Balaca uşaqlar isə dananın dalınca qaçırdılar. Böyüklərdən kimsə , onları başa saldı ki,bu,çox təhlükəlidir və dana sizi bura bilər.



Ona görə də,uşaqlar tay onun dalınca qaçmadılar. Ümumiyyətlə, belə hadisələr zamanı dananı hörkütmək olmaz. Çünki onda heyvan daha da qəzəblənir və insanlara hücum çəkir.

Türkiyədə də belə hadisələr tez-tez olur və bəzən dana marketə , mağazaya girir . Onu sakitləşdirib tuturlar. Amma bu dana yolboyu qaçırdı və heç kimə də zərər toxundurmurdu. Sonradan öyrəndik ki, əlaqədar qurumların kölməy ilə dananı tutub, qəssabxanaya gətiriblər! Bir sözlə, ət satışı ilə məşğul olanlar daha məsuliyyətli olmalı, heyvanları təhlükəsiz yerdə saxlamalı,insanların həyatı üçün təhlükə yaratmamalıdırlar!!!

## Motosiklet yerüstü piyada keçidinə çırpıldı...



**Bakıda son vaxtlar motosikletlərin, mopedlərin, skuterlərin sayı daha da, çoxalıb. Bu da istər-istəməz paytaxtda nəqliyyat axınını və sıxlığını bir qədər də artırır.**

Ona görə də bunlar üçün ayrıca yol zolağı yadadılıb. Düzdür, bundan ən çox velosipedçilər istifadə edir, amma yeri gələndə adını çəkdiyimiz nəqliyyat vasitələrinin də həmin yerdə hərəkət etdiyini görürük. Bunlar hamısı aydındır.Amma aydın olmayan odur ki, adını çəkdiyimiz nəqliyyat vasitələrinin sürücülərinin bəzi yol hərəkəti qaydalarını pozurlar. Bu da birmənalı olaraq, ölüm və xəsarəalma deməkdir.

Bir neçə gün bundan əvvəl Bakının prospektlərinin birində yüksək sürətlə hərəkət edən motosiklet yerüstü piyada keçidinin dayağına çırpılıb. Qəza nəticəsində sürücü elə hadisə yerində həyatın itirib.Bu , nə deməkdir??? Bu, o deməkdir kı,bəzi motosiklet, mobed, velosiped sürücüləri həmin nəqliyyat vasitələrini yüksək sürətlə idarə edir və yol hərəkəti qaydalarını kobud surətdə pozurlar.

Ona görə də, Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi, polis mayoru Toğrul Nəsirli həmin sürücülərə müraciət edərək bildirir ki, onlar birmənalı olaraq yol hərəkəti qaydalarına əməl etsələr belə ölümlə nəticələnən ağır yol-nəqliyyat hadisələri baş verməz.Heç şübhəsiz ki,bu cür hadisələr digər sürücülər də bir ibrət olmalıdır. Ki, sükan arxasında diqqətli olsunlar,ağır yol-nəqliyyat hadisələrinə münbit şərait yaratmasınlar!!!

## Kənddə naxırçı yoxdu...

**Biz uşaq olanda hər səhər inəklərimizi, camışlarımızı naxıra aparıb, naxırçıya təhvil verərdik. O da səhərdən axşama kimi, kəndin örüş sahəsində heyvanları otarar, sonra da axşam düşəndə heyvanlar naxırdan həyətimizə qayıdardı.**



Bir heyvanımızda gəlməyəndə yapışardıq naxırçının sinəsindən. O da and- aman edərdi ki, vallah, mən heyvanları dəmiryoldan sağ-salamat keçirmişəm, bir az gözləyin gəlib çıxacaq. Və bir qədər gözləyirdik , bir də görürdük ki, inəyimiz qapımızdadır! İndi kəndimiz yerindədir, amma nə naxır var,nə örüş, nə də naxırçı! Çünki kəndin otlaq sahələri yoxdur.Torpağın böyük bir hissəsini əkib- becərmək üçün camaata payladılar.

Qalan yerləri də evlər tikildi. " Palıdlı bağ" kimi tanınan yerdə bir qarış boş yer yoxdur və hər yerdə yeni mənzillər inşa edilib.Bax belə olanda da camaat mal- qoyununu ya öz təsərrüfatında , ya da həyətində saxlayir. Əlbəttə, bu da müəyyən çətinliklər yaradır.

Belə vəziyyətdə bir çox insanlar mal- qoyun saxlamaqdan imtina edir. Və onları satıb pula çevirir!!! Məhz bu amillərə görə də ölkəmizdə mal və qoyun ətinin qiyməti tez-tez artır. Kənd onda gözəl idi ki, o kəndin naxırı vardı, naxırçısı vardı! İndi bunların hamısı artıq tarixə qovuşub!!!Kəndlər də öz gözəlliyin zaman- zaman itirir!!!


Emil FAİQOĞLU




# Nigar Carullaoğlu: "Orada bütün zəngin insanları təhsilin inkişafına cəlb edirdilər"

*Müsahibimiz Türkiyə Cümhuriyyəti Erciyes Universitetinin professoru, "Doğuda ve Batıda İnsan ve Şahsiyet" kitabının müəllifi, Fəlsəfə elmləri doktoru Nigar Carullaoğludur. Müsahibimizlə iki ölkənin təhsilindən və bu ölkələrin mədəniyyətindən danışdıq:*

**-Azərbaycanda doğulub, yaşamısınız. Pedaqoq kimi Türkiyədə çalışmağınız sizin üçün çətin oldu?**

-Mən Türkiyəyə gedəndə 60 yaşım var idi. Ömrümün böyük bir hissəsini vətənimdə yaşayandan sonra qardaş ölkəyə köçmək əlbəttə, heç də asan olmadı. Təxminən 2-3 il adaptasiya dönəmi keçirdim. Paxtaxt Bakıda yaşayıb, böyüyən bir adam birdən- birə Türkiyənin əyalətinə köçür. Dəyişən həyat tərzimi təsəvvür edin. Son 30 ildə Kayseridə dörd universitet ard-arda açıldı. Həmin universitetlərin fəaliyyəti Kayserini inkişaf etdirdi. Kayseri kimi qapalı bir mühitə universitetlərin tələbələri yeni həyat gətirdilər. Ora şəhər tipli əyalət olsa da, insanlar müasirləşməmişdilər. Orada yeni binaların tikilməsinə, təhsil ocaqlarının açılmasına baxmayaraq, onların beynində əyalət psixologiyası var idi.Orda ilkin olaraq Tibb Universiteti açmışdılar. Həmin ali təhsil ocağının daşlarını hicablı qadınlar qucaqlarında daşıyırdılar. Mənim üçün bunun mənəvi anlamı çox böyük idi. Bir qadın təhsil ocağının qurulmasını arzulmaqla yanaşı, onun inşa edilməsində də fədakarlıq göstərir. Bununla necə qüruru duymayım? Gözəl hisslərdir Erciyes Universiteti elm sahəsində Türkiyədə 8-ci yeri tutan ali təhsil ocağıdır. Hazırda professor olaraq orada çalışıram. Universitet təkcə tələbələr yetişdirmir, həm də orda vaksin hazırlandı. Bir sözlə kəşfləri daha çox oldu.

**-Hazırda işlədiyiniz universiteti digər universitetlərdən fərqləndirən hansı cəhətlər var?**

-İndi dediyim kəşflərin çoxalmasını üstünlüyümüz hesab edirəm. Ancaq ən vacib məqamlardan biri isə hər müəllimin orada özünün şəxsi otağının olmasıdır. Bu çox gözəldir. Orada müəllimlərin komfortu möhtəşəm səviyyədə təmin olunur. Məhz bu səbəbdən müəllimlər bir-birlərilə az ünsiyyətdə olurlar. Onlar elmə daha çox zaman ayırırlar. Universitetin böyük bir sahəsi var ki, orada bütün fakültələr mövcuddur. Bu fakültələr o qədər böyükdür ki, hər birini rahatlıqla universitet adlandırmaq olar. Sanki bir tələbə şəhərciyidir. Burada elm sürətlə imkişaf etdi.

**- Başqa ölkələrin gəncləri ilə bizim gənclər arasında nə kimi fərq görürsünüz?**



-Başqa ölkələrin gənclərində ən sevdiyim cəhət onların elmlə məşğul olmaq həvəsinin çox olmasıdır. Öyrənməyə çox həvəslidirlər. Bu məni sevindirir. Onlara elm öyrədən müəllimin əllərindən öpüb, minnətdarlıq edirlər. Bu onların ən gözəl xarakteridir. Əlbəttə, bizim gənclərdə də təhsilə maraq var. Ancaq etiraf edim ki, Türkiyədə daha çox rast gəlirəm. Amma Azərbaycanda sənətə və sənətkara dövlət tərəfindən daha yüksək qiymət verilir.Bizim universitetdə təhsil alan tələbələr Azərbaycanda filosoflara, akademiklərə verilən dəyəri görürlər deyə, istəyirlər ki, burda təhsil alsınlar. Ancaq buradakı təhsil sistemi ilə Türkiyədəki təhsil sistemin eyniləşdirmək olmaz. Sovetlər dönəmində təhsil heç də pis deyildi. Zamanında biz onlardan çox şey öyrəndik. Dünya tarixini, dünya ədəbiyyatını, dünya musiqisini yaxşı öyrənə bildik. Ancaq Azərbaycan tarixi çox zaman təhrif olunurdu. Bunun da səbəbləri bəlli idi. Burda rus siyasəti əlbəttə, danılmazdır. Biz müstəqil olandan sonra Azərbaycan tarixini dərindən öyrənə bildik. Həyat yoldaşım orada çalışan zaman həmin universitetin rektoru bütün zəngin insanları təhsilin inkişafına cəlb edirdilər. Orada hər fakültənin xərclərini bir varlı insan ödəyirdi və həmin binanı dövətə bağışlayırdı. Bu da o binaların üzərində yazılırdı.

**- Hazırda orada müəllim olaraq sizin də yaşamınız təmin olunur?**

- Bəli. Əlbəttə. Daha çox zəngin insanlar universitetlərin xərclərini qarşılayır.Ancaq bəzən biz hər şeyi dövlətdən gözləyirik. Amma dövlətin də öz qayğıları var axı. İndi heç kəsə sirr deyil ki, bütün dövlətlərin hərbi bazası güclü olmalıdır. Bunun üçün silaha nə qədər dövlət büdcəsindən pul xərclənir. Məsələn, bizim güclü ordumuz və silahımız oldu deyə ermənilərə qalib gəldik.

Türkiyədə savadlı adamlara sevgi böyükdür. Varlı insanları heç vaxt bahalı geyimlərdə, bahalı maşında görmədim. Çox sadə insanlardır. Ömrünü elmə sərf edənlərə orda cəmiyyət yüksək qiymət verir. Türkiyədə dövlətdən çox xalq elm adamlarının qayğısını çəkir. Cəmiyyətini elmi və elm adamını sevməsi çox sevindirici haldır. Mən həmişə deyirəm ki, siyasət də dəyişəcək, iqtisadi durğunluq və ya inkişaf da keçəcək, ancaq xalqı, milləti yaşadan elm və sənətdir. Əgər sənət və mədəniyyət yoxdursa, siz bilin ki, artıq həmin dövlət də yoxdur.

**-Türkiyə mədəniyyəti ilə Azərbaycan mədəniyyətini fərqləndirən cəhətlər hansılardır?**

- Mən bunu kitabımda da qeyd etmişəm ki, türklər doğulandan döyüşkən olurlar. Hər hansı bir dövlət dörd təməl üzərində qurulur: od, torpaq, su və hava. Od siladır, torpaq yetişdirir- məhsul verir, su ticarətdir, hava isə fikir, sənət, mədəniyyətdir.

Çıxışlarımın birində demişəm ki, sizdə alov da, su da çox yaxşıdır. Ancaq torpaq (yetişdirmək) məsələsi və hava çox azdır, deyərdim ki, zəifdir. Azərbaycanda da ticarət var, hava boldur. Ancaq od və torpaq məsələsi zəidir. Bu fikrimi 44 günlük zəfərimizdən əvvəl səsləndirmişdim. Ondan sonra İkinci Qarabağ Müharibəsi başladı və biz 20% torpaqlarımızı mənfur ermənilərdən azad etdik.

**-İllərdir müəllim işləyirsiniz. Heç unutmadığınız tələbəniz var?**

-Əlbəttə, çoxdur. Nurəli Şahbazov, Bəyimxanım Vəliyeva, Toğrul Əsədullayev mənim unudulmaz tələbələrimdəndilər. Bu tələbələr Bülbül adına orta ixtisas musiqi məktəbinin məzunlarıdır. Ancaq mən 44 il ərzində Bakı Dövlət Universitetindən başqa demək olar ki, bütün universitetlərdə işləmişəm. Mən sovetlər dönəmində Moskva Dövlət Universitetində müdafiə etmişəm. O zaman oranın mühiti ilə Azərbaycanın mühiti arasında çox böyük fərq var idi. Dünyanın bütün ölkələrindən orda təhsil almağa gəlirdilər. Kooridor boyunca hər dildə danşan adama rast gəlirdim. Kitabxanası çox zəngin idi. Ordan çox böyük təəssüratla geri dönmüşdüm. Həqiqətən bir çox ölkələri gəzmək, görmək, təhsil sistemində bilavasitə iştirak etmək insanı inkişaf etdirir.

Həmişə tələbələrimə deyirəm ki, mən istəyirəm ki, siz bilik qazanmaqla yanaşı, üfiqiniz də açılsın. Dünyaya baxışınız genişlənsin, düşüncələriniz zənginləşsin. Bu keyfiyyətlər bir insanın inkişafı üçün mütləqdir.

**- Nigar xanım, gələcək planlarınızdan nə deyə bilərsiniz?**

- Uzun illərdir dinlə maraqlanıram. Bu sahə məni özünə çox cəlb edib. Bütün dinlər haqqında saysız-hesabsız kitablar oxumuşam. Sonda İslam dininin nə qədər zəngin olduğunu anlamışam. Həyatım boyu dayanmadan dinlə maraqlanmışam. Mən dünyanı gəzdikcə çox millət görmüşəm. Bunların içərisində pis insana da rast gəlmişəm, yaxşı insanala da qarşılaşmışam. Bütün dünyanı birləşdirən bir məfhum var ki, o da insandır. İnsana xidmət etməlisən. Bunun üçün isə insan təhsilli, kifayət qədər bilgili və ən əsası əsl insan olmalıdır. Bəşəri insan tipi üzərində çalışmaq istəyirəm.

**Əntiqə KƏRİMZADƏ**

## "Əgər Azərbaycan vətəndaşı Gürcüstan ərazisinə daxil olub Tiflisdə 1 gün qalacaqsa..."

**"Çox sevinməyin ki, qatarla 81 manata Bakıdan Tiflisə səfər edəcəksiniz. Baxmayaraq ki, təxminən 135 manatlıq təyyarə biletinə yaxındır qiymət! Siz həta ordan Türkiyəyə və ya Kutaisi limanından çox ucuz Avropaya uça biləcəksiniz.Quru sərhədləri açılmır. Açılan dəmiryoludur. Və.... Vəsini də yazım... Gürcüstan hökuməti 1 yanvar 2026-cı ildən etibarən ölkəyə daxil olan bütün xarici vətəndaşlar üçün tibbi/səyahət sığortasını məcburi edib. Bu tələb turist, biznes və tranzit səfərlərinə də aiddir.Bu qayda Azərbaycan vətəndaşlarına da şamil olunur".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı ekspert Razi Abasbəyli deyib.

O, bildirib ki, Azərbaycan vətəndaşı Gürcüstana gedərkən sığorta almalıdır: "Gürcüstana gedən zaman ən azı 30 000 Gürcü larisi (GEL) məbləğində tibbi və qəza sığortası olmalıdır. 30 000 GEL hazırkı kursla təxminən 18-19 min AZN civarındadır. Beləliklə, Gürcüstana 1 həftəlik (7 gün) məcburi səyahət sığortası təxminən 15-25 GEL - yəni təxminən 9-15 AZN edir. 1 aylıq (30 gün) sığorta təxminən 50-90 GEL yəni təxminən 30-55 AZN civarında olur.

Əgər Azərbaycan vətəndaşı Gürcüstan ərazisinə daxil olub Tiflisdə 1 gün qalacaqsa, hətta məqsəd Türkiyəyə tranzit keçmək olsa belə sığorta tələb oluna bilər. Çünki siz sərhəddən keçib Gürcüstan ərazisinə daxil olursunuz. Ən sadə məcburi sığorta adətən təxminən 2-5 GELyəni təxminən 1-3 AZN olur. Sığortanın təminatı yenə də minimum: 30 000 GEL tibbi təminat olmalıdır. Yəni Gürcüstana 81 manata bilet alıb ən azı 30 manat da sığorta almalısınız".

**Sübhan**

## "Namizədlərinin maraqlarının ön planda tutulması vacib idi..."

**Xəbər verdiyimiz kimi, əlverişsiz hava şəraiti ilə əlaqədar baş verən fors-major hal nəzərə alınaraq Bakı, Abşeron və Sumqayıt şəhərlərində 14 iyun 2026-cı il tarixində magistraturaya qəbul imtahanının ikinci cəhdi təkrar keçiriləcək. Bu haqda Dövlət İmtahan Mərkəzi məlumat yayıb.**

Adalet.az xəbər verir ki, təhsil eksperti Məzahir Məmmədli açıqlaması zamanı qərarı təqdir etdiyini bildirib.

"Qərarını təqdir edirəm. İmtahan günü yaranan çətinlikləri nəzərə alaraq, abituriyent və magistratura namizədlərinin maraqlarını ön planda tutulması vacib idi. Bu qərar göstərdi ki, belə həssas məsələlərdə imtahan iştirakçılarının mövqeyindən çıxış etmək, onların narahatlıqlarını dinləmək və obyektiv yanaşma sərgiləmək mümkündür", - deyə o, bildirib.

## "Bu siyasət Rusiyanın qonşu ölkələrlə münasibətlərində etimadsızlığı artırır..."

**"Rusiya qonşu ölkələrdə yaşayan "rus icmalarina"vətəndaşlıq verməyi planlaşdırır. Vladimir Putin "Dnestryanı sakinlərinin Rusiya vətəndaşlığına qəbulu haqqında" yeni fərman imzalayıb. Rusiya separatçı regionlarda yaşayan əhaliyə Rusiya pasportlarının verilməsi siyasətindən əl çəkmir. Daha əvvəl Abxaziya və Cənubi Osetiya bölgələrində yaşayan insanlara Rusiya vətəndaşlığı verilməsi də bu siyasətin tərkib hissəsi olub".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, Moldova ərazisində yerləşən Dnestryanı bölgə sakinlərinə belə bir vətəndaşlığın verilməsi Moskvanın regiona təsir və müdaxilə siyasətinin davamıdır:

"Ümumilikdə, Rusiyanın bu yanaşması qonşu dövlətlər üzərində siyasi təsir imkanlarını genişləndirməyə və gələcək təzyiq mexanizmləri formalaşdırmağa xidmət edir. Növbəti mərhələdə bu tip addımların Qazaxıstan ərazisində yaşayan ruslara və ya digər postsovet ölkələrindəki rus icmalarına münasibətdə də tətbiq olunması mümkündür. Bu siyasət Rusiyanın qonşu ölkələrlə münasibətlərində etimadsızlığı artırır və həmin dövlətlərdə müdafiə və təhlükəsizlik siyasətinin sərtləşməsinə səbəb olur".

Politoloq bildirib ki, Moskvanın oxşar yanaşmanı vaxtilə Qarabağda ermənilərə tətbiq etməyə çalışırdı:

"Azərbaycan isə vaxtında həyata keçirdiyi siyasi və hərbi addımlarla belə bir ssenarinin qarşısını aldı. Rusiyanın Ukraynaya müdaxiləsi zamanı istifadə etdiyi arqumentlər də göstərir ki, xaricdə yaşayan rusdilli əhalinin "müdafiəsi" tez-tez siyasi və geosiyasi alət kimi təqdim olunur.

Bu baxımdan, Azərbaycanın ölkə vətəndaşlarına münasibətdə xarici dövlətlərin birtərəfli hüquqi qərarlarının tətbiqini məhdudlaşdıran qanunvericilik mexanizmlərini gücləndirməsi vacibdir. Rusiya yumşaq güc, pasport siyasəti və informasiya təsiri vasitəsilə qonşu ölkələr üzərində təzyiq imkanlarını artırmağa çalışır. Bu isə regionda təhlükəsizlik balansına və dövlətlərarası münasibətlərə birbaşa təsir göstərir".

## "Odur ki, din tacirlərindən, Quran dəllallarından, məzhəb alverçilərindən özünüzü..."

**"Adam var ki, saxta məhsul hazırlayıb fırıldaqçılıq edir. Adam var ki, südə su qatır, çəkidə aldadır fırıldaqçılıq edir. Adam var, ustadır, sənətini dələduzluq alətinə çevirib, adamları aldadır. Adam da var, dini, müqəddəsatı fırıldaqçılığına alət edib. Bax bu sonuncu ən təhlükəlisi, ən qorxulusudur".**

Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib.

O, bildirib ki, əvvəlkilər dini, Quranı dələduzluğa alət etməyə bəlkə çəkinər, bəlkə başına iş gələcəyindən qorxar, etməz:

"Amma dini alət edənlər buna cəsarət edər. Demək ya daxildə tamamilə dinin həqiqət olmadığına yəqin ediblər. Qərara gəliblər ki, onsuz da axirət, hesab yoxdur, yaxşısı budur heç olmasa bu adla dünyada qazanc əldə edək. Ya da inanır, amma cəhaləti üzündən dinin də alver, qazanc mənbəyi olduğunu zənn edir. Yanlış inanır. Hər bir halda bu zümrə bank yaran, işə düzəltmək adı ilə adam aldadan, südə su, çörəyə kafur qatan dələduzlardan daha zərərlidir cəmiyyət üçün.

Ona görə ki, onların cürət etmədiyi, çəkindiyi üsuldan bunlar qorxmadan istifadə edirlər. Odur ki, din tacirlərindən, Quran dəllallarından, məzhəb alverçilərindən özünüzü, övladlarınızı, gələcəyinizi qoruyun. Çünki onlar üçün artıq toxunulmaz, müqəddəs heç nə yoxdur. Əgər ən böyük müqəddəsin, Allahın adı ilə mənfur əməllərə cəsarət edirlərsə demək istənilən cinayətə, istənilən mənfur işə gözlərini qırpmadan qol qoya bilərlər".

**Vasif ƏLİHÜSEYN**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# MƏNDƏN KÜSƏN SÖZDƏKİ TƏNHALIĞIM

Ürəyimdən səssizlik keçir. Sakit, heç kimin olmadığı mobil, elektron, daha nə bilim nələr,nələr olmayan bir guşə... Sadəcə su şırıltısı, yarpaq, ot xışıltısı, bir də quşların səsi. Yetər ki, bunlar mənim ayaqda olduğumu, yaşadığımı, mövcudluğumu xatırlatsın.Yəni bunların mövcudluğu və mənim bunlarla təmasım artıq özü-özlüyündə yaşadığımı,düşündüyümü büruzə verir. Və mən də həmin o düşüncələri sadəcə indi xəyal edirəm,ürəyimdən keçirirəm ki, kaş, o sakit guşəni heç olmasa bir saatlıq haqq edə bilim,onu mənə bağışlasınlar... o bir saatlıq anı yaşamaq imkanı, dəstəyi versinlər...

Axı yaşananlar o vaxt şirin və yaddaqalan olur ki, onu xatırlayanda ürəyin ağrımır. Özündən, yaşadıqlarından,ümumiyyətlə, dünənindən incimirsən, küsmürsən,bezmirsən və dünəninə də, özünə də acımırsan.

Bu mənada mənim dünənimdən incidiyim məqamlar heç də az deyil. Amma neyləyim ki, hər dəfə dizimə dəyən daşlar ağlımı özümə qaytarmır. Axırda dizim daşdan bezir, daş da dizimdən. Və hər ikisi"eh" edib başını bulayıb çəkilir öz işinin arxasına.

Buna görə də həm doğmalar, həm simsar olanlar, məni mənim kimi duyan sənin özün də hər dəfə məni qınayırsan, mənə nəsihət edirsən, məsləhət verirsən, ağıllı olmağa, özümü toparlamağa çağırırsan. Mən isə ağıllana bilmirəm. Deyəsən südlə gələn sümüklə çıxacaq axırda.

Yəni normal, səmimi yanaşıb qayğı-diqqət ayırdığım insanın divarın o üzündəki mövqeyi, yanaşması, hətta açıqlamalar verməsi "qulağı" olan yerin yaratdığı fürsət hesabına çoxda gizlin qalmır, açılır üstü, bəlli olur hər şey. Bax, onda ürəyim ağrıyır, özümü qınayıram. Amma bu da bir an çəkir. Çünki mən təbiətən tamam fərqli baxmışam dünyaya.

Bunun da əsas səbəbi müəllimlərim olub - həm məktəbdə, həm də həyatda. Hər zamanda onların öyrətdikləri, onlardan öyrəndiklərim əlimdən tutub və o sarsıntıları,o ürəyimə dəyənləri büküb bir kənara qoymaqda mənə kömək olublar. Və mən yenə öz yolumla, öz axarımla getmişəm, gedirəm... onlar da yenə öz axarlarıyla, öz yollarıyla gedirlər. Bu yollar kəsişən deyil. Bu yolların bəxtinə paralellik yazılıb. Ona görədə paralel olanın bir-birindən qurtulması üçün hansısa birinin sıradan çıxması lazımdı.Bu da Allahın ixtiyarındadı.

Mən də Allahın işinə qarışmağı nə bacarmıram, nə dəbu barədə heç düşünmürəm də. Sizə də məsləhət görmürəm. İstəyirəm ki, bu həyatın bütün rənglərini, bütün çalarlarını gözünüzün önünə gətirib necə var elə qəbul edəsiniz. Reallığa, gerçəyə sığınasınız, onu önə çəkəsiniz, onun yanında olasınız.

Bax onda görəcəksiniz ki,bu dünyanın "qara daş"ı göyərməsə də , üstündə ot göyərdir. Axı, iradə Allahındı! Hökm onundu!

Şəxsən mən bir az pafoslu, bir az böyük görünsə də, əlimi ürəyimin üstünə qoyub deyirəmki, bəli, məni necə, hardan vursanız da, onun ağrısı Allahımın və Sənin sayəndə bir məlhəm tapır. Və çəkilib bir təkliyə, bir kimsəsizliyə düşünürəm. Düşünürəmki, içimdəki təkliyin diktəsi də Tanrıdan gəlir.

*Kədər bol, ağrı bol, qəm başdan aşır*
*Bu bolluq dəm verir, dəm , başdan aşır!..*
*Varım ,varidatım cəm, başdan aşır -*
*Bir az... yaşamağa ehtiyacım var!*

*Dünənim, bu günüm üst-üstə dağdı*
*Gül açan, bar verən, baxcadı, bağdı!..*
*Canım hərəkətdə , üzüm də ağdı -*
*Bir az... yaşamağa ehtiyacım var!*

*Əməlim ortada, sözüm yazıda*
*Göstərdim ədanı, çəkdim nazı da!*
*Xərclədim həmişə çoxu, azı da -*
*Bir az ... yaşamağa ehtiyacım var!..*

*Ürək sığmayanda sinə - qəfəsə,*
*Coşub dəlilər tək, gəlib həvəsə...*
*Bir çətir altında nəfəs- nəfəsə -*
*Bir az yaşamağa ehtiyacım var!..*

*Yurd salıb bir gizli fərəh içimdə*
*Fərəhə sarılsın gərək içim də!*
*Mən dua edirəm , fərəh üçün də -*
*Bir az yaşamağa ehtiyacım var!*

***

Bu bir həqiqətdir ki, istəyimizdən asılı olmayaraq vaxt öz işini görür, fəsillər bir-birini əvəzedir. Deməli, yazın gəlişinə sevinən bəndə payızın nəfəsin duyduqca kövrəlməyə başlayır. Bu, obrazlı ifadə olsa da, daxilində bir gerçəklik hakimdi. Gerçəkliyi də insan özü yaradır, yəni biz özümüzüçün bunu normal bir şəkildə qəbul etmişik. Və ömrümüzün payızını elə saralan yarpaqlara bənzədərək yavaş-yavaş üzüqışa, özü də hardasa dirəşərək, tələsmədən getmişik. Bizim tələsib-tələsməməyimiz isə heç nəyə yaramayıb. Yenə təkrar edirəm:

- Zamanı durdurmaq mümkün deyil. Mən zaman ölçülərini heçnəyə bənzədə bilmirəm. Heç kimin ömürlüyünə uyğunlaşdırmaq gücüm də yoxdur. Bircə özümdən və sevgimdən başqa. Çünki sevgi bu zamanın özü boydadır. Onun mənimlə hər anımda və gerçək bir şəkildə təmasda olması danılmazdı. Dünənimdə də, bugünümdə də, əgər var olsam sabahımda da olacaq.

Bu inamı mənə Tanrım verib. Bilirəm ki, Tanrının verdiyini d yalnız Tanrı ala bilər. Haqdan gələnin qarşısında bütün varlığımla dayanıb onu qarşılamaqla yanaşı onu yaşatmağı da bu günə qədər bacarmışam və

Mən özümdən, sözümdən həmişə incik olsam da, bircə nöqtədə özümü də, sözümü də günahsız görürəm. O da səni düşünmək, səndən yazmaqdı. Deyə bilərsən ki, bütün yazdıqlarında varamsa, deməli məni düşünməidiyin an yoxdur.

Bəli, bu həqiqətdir və elə həqiqə olduğuna görə sən də heç olmasa gününün, ayının, ilinin bir anın da məni düşün. Mənim nə çəkdiyimi, necə yaşadığımı dəyərləndir, mənə görə yox, özünə və sevginə görə

Hə, gəlimli-gedimli dünyanın hər üzünü görüb tanıya-tanıya yaşlaşırıq və elə bilirik ki, sabah bugündən hansısa bir mənada bizim üçü daha yaxşı olacaq. Bu bir düşüncədi, bir istəkdi, bir xəyaldı. Gerçəkdə isə bizim istəklərimiz elə tumurcuq da solur, çiçək açmır. Bu, ümidsizlik deyil. Bu, mənim sənə çatdırmaq istədiyim duyğularımın bir ləçəyidi. Əgər oxşamaq, toxunmaq istəsən, aç əlini. Amma elə et ki, gözlərindən o ləçəyə şeh düşməsin

Ürəyindəkilərin səsini kağıza köçürə bilmirəm, rəsmini çəkməyə gücüm çatmır. Amma özümü cəmləyib indiki anda sənə bunu pıçıldayıram:

*Ayağını şeh öpürsə*
*nə gözəl!..*
*Yanağını meh öpürsə -*
*nə gözəl!..*

*Saçlarına külək daraq,*
*Qələminə ürək varaq*
*DilinəYar sözü yaraq -*
*nə gözəl!..*

*Baxışına Günəş çəpər -*
*Olub, alıb səndən təpər,*
*Baxışından o nur səpər -*
*nə gözəl!..*

*Varlığına səcdə varsa,*
*Səcdəgah Allah, həm yarsa*
*Məni bu sevgi aparsa -*
*nə gözəl!..*

Hə, mən bu yazını bilgisayara diktə edərkən elə bildimki, hardasa özüm daha tək deyiləm.... Amma yazıya nöqtə qoyanda gördüm ki, yenə mən səndəyəm. Özüm isə tənha.

***P.S. İnsan öz durumunu, öz gerçəkliyini və bir də içindəki sevgi və nifrəti göstərmək zorunda deyil. Yenə bir məqamdan başqa. Yəni artıq duyulmursansa, hiss olunmursansa,görünmürsənsə, onda hansısa bir formada öz haqqını göstərməyə məcbursan. Belə məqamda da görünməsən, onda qalır qarşıqarşıya gəlmək. Bunu isə heç kimə arzu etmirəm. Ən yaxşısı sakit və anlayışlı şəkildə ömür payını yaşamaqdı...***

***Özü də , soruşmadan sən kimsən? Onda bu misraları oxuyun:***

*Mən bəlkə də heç kiməm*
*Bəlkə də sonuncu "ah"...*
*Bəlkə də bu dünyada-*
*Günahın özü günah!..*

*Əlim küləkdən tutub*
*Ayağım hava üstə...*
*Yer məni elə udub -*
*Gedir tay dava üstə...*

*Dözülməzdi tənhalıq*
*Dözülməzdi dörd divar...*
*Düşünün siz biranlıq -*
*Kimin lal, kar dərdi var?!*

*Bölüşmək çətinləşib*
*Qeyb olubdu isti söz...*
*Məni qüsul etməyin-*
*Məndən bezib -küsüb söz!...*

## Xalq yazıçısı Elçinin xatirəsinə həsr olunmuş "Baş" tamaşası nümayiş olunub

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında görkəmli dövlət xadimi, dramaturq, Xalq yazıçısı Elçin Əfəndiyevin anadan olmasının 83 illiyinə həsr olunmuş "Baş" tamaşası nümayiş olunub.**

Tədbirdə dövlət rəsmiləri, millət vəkilləri, mədəniyyət və incəsənət xadimləri, KİV və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tamaşadan öncə əməkdar incəsənət xadimi, professor Məryəm Əlizadə çıxış edərək görkəmli yazıçının Azərbaycanın ictimai-siyasi həyatında, milli mədəniyyəti və ədəbiyyatında əvəzsiz xidmətlərindən bəhs edib. Mirzə Fətəli Axundzadənin, Cəlil Məmmədquluzadənin



ənənələrini davam etdirən Elçinin müxtəlif illərdə yazdığı əsərlərin həm yerli, həm də ölkə xaricində teatrlarda uğurlu nümayişlərindən danışaraq onun bütün dövrlərdə yaşadığını qeyd edib: "90-cı illərdə onun yazdığı trilogiya "Ah, Paris, Paris", "Mənim ərim dəlidir", "Diaqnoz D" möhtəşəm komediyalar idi. Elçinin komediyalarındakı gülüş dramaturgiyanın inkişafına yol açmışdı. Azərbaycan dramaturgiyası tamamilə yeni mərhələyə qədəm qoydu".

Görkəmli yazıçının bir sıra tamaşalarına quruluş verən rejissor, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə Elçinin milli teatr prosesində əvəzsiz xidmətlərindən danışaraq, müəlliflə son yaradıcılıq işləri olan "Baş" tamaşasının ərsəyə gəlməsindən bəhs edib.



Nümayiş olunan "Baş" tamaşasının quruluşçu rejissoru və səhnələşdirmənin müəllifi Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Mehriban Ələkbərzadə, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, geyim üzrə rəssamı Vüsal Rəhim, bəstəkarı Azər Hacıəsgərli, rejissor assistentləri Ceyran Başaran və Nərmin Həsənovadır.

Tamaşada Xalq artistləri Rafiq Əzimov (Molla Müzəffər ağa), Hacı İsmayılov (Münşi Məşədi Həsənağa), Kazım Abdullayev (Hüseynqulu xan), Əməkdar artistlər Füzuli Hüseynov (Knyaz Sisianov), Vəfa Rzayeva (Çariça Mariya), Elnar Qarayev (Mahmud bəy), Anar Heybətov (Dilmanc Şərif bəy), Rövşən Kərimduxt (Fətəli şah), Kazım Həsənquliyev, (Hacı Muxtar), Elxan Quliyev (Həmdulla), Elşən Rüstəmov (İvan Petroviç Lazarev), Mətləb Abdullayev (Polkovnik fon Qrenfald), Ayşad Məmmədov (Mirzə Məhəmməd Əkbari), aktyorlar Elçin Əfəndi (Cavad xan), Rüstəm Rüstəmov (İbrahim xan), Cümşüd Zeynalov (Xacə Əbdül Rəhman), Cavidan Novruz (Qurd Kərim), Tural İbrahimov (Abbas Mirzə), Nəzrin Abdullayeva (Sarı Çoban qızı), Günəş Təkin (Ağabəyim ağa), Vüsal Mustafayev (Vaxtanq Potsixaşvili), Lalə Süleymanova (Markiza Natalya de Lafonje), Ləman İmanova (Hürü bəyim), Elsevər Rəhimov (Podpolkovnik Eristov), Elçin Nuruliyev (Podpolkovnik Pavlov), Əliulla Vəliyev (Mayor Lisaneviç), Kənan Hüseynov (Sarı Çoban), Muhuma Sahov (Leşgərnevis Rza), Rəvan Səmədov (Çapar), Rüfət Əhmədov (Əmir Həmzə) çıxış edib. "Baş" XIX əsrin əvvəllərində mənşəcə gürcü olan rus generalı Sisianovun komandanlığı ilə imperiya qoşunlarının Cənubi Qafqazı işğal etməsindən bəhs edir. Tamaşanın süjetini Bakıda Sisianovun başının kəsilib Fətəli şah Qacara göndərilməsi və bundan sonrakı gərgin mənəvi-siyasi hadisələr təşkil edir. Sisianovun başının "səyahəti" geniş bir coğrafiyada - Azərbaycan xanlıqlarında, Gürcüstan çarlıq və knyazlıqlarında, Rusiyada, Qacarlar səltənətində cərəyan edən hadisələri, insan xarakterlərini göstərir.

Qeyd edilməlidir ki, yazıçının "Baş" romanı rus, ingilis, türk, ukrayna, italyan, rumın, ərəb, alman dillərinə tərcümə edilmiş, dünyanın müxtəlif ölkələrində nəşr olunmuşdur. "Baş" tamaşasının premyerası 26 senytabr 2025-ci il tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında keçirilib.

# Aqil Abbasın Rəmiş oğurluğu

## (Aqil Abbasın "Rəmiş" povesti haqqında Seyran Səxavət ilə müsahibə)

**S.Səxavət** - Pəri bala, "Rəmiş"i oxudun?

**- Oxudum, Seyran müəllim. Həm də birnəfəsə oxudum.**

**S.Səxavət** - Mən Rəmişin romanını oxumuşam, yəni özünü oxumuşam. Biz çox yaxın olmuşuq. Aqilin də povestini elə birbaşa, birnəfəsə oxudum. Yəqin Aqil də bu povesti elə birnəfəsə yazıb. Çünki birnəfəsə yazılmayan yazılar birnəfəsə oxunmur. Hıqqına-hıqqına yazılan yazılar hıqqına-hıqqına da oxunur!

İndi də bu barədə yazmaq istəyirəm, amma nə hamının tanıdığı Rəmişdən, nə də Aqilin "Rəmiş"indən sadə, elə-belə bir yazı yazmaq istəmirəm. Mən də söz adamıyam, sən də. Bəlkə birləşib bir ilkə imza ataq

Povest haqqında bir müsahibə edək. Suallar səndən, cavablar məndən.

Rasim Balayev Nəsimini?! Yaxud da Aqil Abbas cənabları Rəmişi yaxşı tanıyar, yoxsa Rəmiş özü-özünü?! Yəqin ki, fikrimi çatdıra bilirəm. Bax, bu barədə həm də son dərəcə çətindir. Son dərəcə böyük cəsarət, böyük istedad və bunların başının üstündə çətir kimi böyük, nəhəng bir səmimiyyət istəyir. Yoxsa heç nə alınmazdı.

**- Aqil Abbas yazıb:" Rəmiş başdan ayağa ruhdur - yarı mələk, yarı şeytan."**

**Bəs Seyran Səxavət Rəmişi necə təsvir edər?**

**S.Səxavət** - Vallah, Aqil burda çox sərrast deyib.

Mən də onunla uzun müddət dostluq eləmişəm. Curruq eləmişik necə deyərlər.

Yer üzündə sırf mələk və yer üzündə sırf şeytan yoxdur. Aqil də onu ya bilərəkdən, ya da duyaraqdan belə toxunaq. Məsələn onun saçına və geyiminə görə müəyyən qadağalarla üzləşməsi.

**S.Səxavət** - Rəmişin saçı Sovet hökuməti kimi nəhəng bir dövlət üçün problemə çevrilmişdi. Bizim böyük sənətkarlarımızdan olan Vaqif Mustafazadə də bu cür qadağalarla tez-tez üzləşirdi. Hətta bir gün 50- 60- il bundan qabaq dövlət televiziyasının o vaxtkı sədri (ölüb deyə adını demirəm) ona deyib ki, bığını, saqqalını, saçını bir qaydasına sal da. Özdə kabinetnə çağırıb deyir bunu. Ağıllı adamdır axı bu da. Bunlarda ağıl lazım olanda başlayır işləməyə. Maşın qoşulan kimi. Elə baxır sədrin başının üstünə, görür orda Karl Marksın şəkli, o da saqqlı, bığlı. Deyir:" ay filankəs müəllim, budey, elə bizim rəhbərimiz də saç-saqqalı olub ki." Bununla da bu məsələyə birdəfəlik son qoyulur.

**- Kitabda yazılıb ki:" 2-ci - 3-cü sinifdə oxuyanda müəlliməsindən xoşu gəlirdi. Xüsusilə də saçını sığallamasından."**

**Seyran müəllim, ola bilərmi ki, Rəmiş o sığalın izini itirməmək üçün saçını uzadırdı?**

**S.Səxavət** - Bilirsən, Pərvanə xanım, Allah sənə insaf versin, bu sualın cavabını elə gözəl verdin ki, mən onu zədələmək istəmirəm, elə sən deyən kimidir. O sualın içində cavab da var. Nadir hallarda, çox nadir hallarda sualın cavabı həm də onun içində gizlənir. Elə sən deyən kimidir.

**- Bəs Seyran Səxavət ilk sevgisini nədə qoruyub, saxlayıb?**

**S.Səxavət** - Qarabağın böyük, nəhəng kəndlərindən olan bizim Yağlıvənd kəndində qoruqçular vardı. Onlar taxıl zəmisini maldan, heyvandan qoruyurdular, onlara "qoruqçu" deyirdilər. var imiş. Rəmiş də o dili yaxşı bilirmiş. Elə o "Pəncərə - xanım" da. İkisi də bu dili çox yaxşı bilirmiş. Onlar xeyli söhbət ediblər, saatlarla danışıblar. Sadəcə biz bəni adəm olaraq o dili bilmirik. O dildə oxumamışıq. Çünki o dildə nə məktəb, nə fakultə yoxdur ki, gedib oxuyasan. Uşaq gitaranı gətirəndə "pəncərə- xanımın" "o, bir də gəlməyəcək" dediyi yeri oxuyanda 5-6 dəqiqəlik hər şey yadımdan çıxdı. Hər şey... Dünyada o qədər yaddaşda qalmalı şeylər var. Əgər onların hamısı bir anın içində sənin yaddaşından tökülürsə, deməli ya sənin yadaşın pozulub artıq, işləməyəcək. Əgər o yaddaş beş dəqiqə sonra bərpa ounursa, deməli, yaddaşlıq bir iş yoxdur...

**- Seyran müəllim, bəs Rəmiş niyə daha gəlmir ora?**

**S.Səxavət** - Bax , o gitara hədiyyə verilən ana qədər gecə-gündüz o danışıb. Hətta o daşın üstündə oturmayanda da danışıb, mən buna yüz faiz inanıram. Gitaranı çalanda da danışıb. Bəlkə də Pəncərə- xanımla danışıqdır onun çalğıları. Və... İlahidən ona bir vəyh gəlib, hiss edib, duyub ki, o daşın üstündən durub, evinə çatana qədər bir balaca dincəlsin. O, çox yorulmuşdu. Bəşəriyyəti sevmək qədər çətin bir sevgidir Rəmişin o Pəncərə-portretə olan sevgisi. Evə çatana qədər dincəlib. Evə çatan kimi, o, ruhən yenə elə o daşın üstə oturub.

Ümumiyyətlə, Rəmiş elə bütün həyatını daşın üstə yaşayab, mənə elə gəlir. Həmin o İçərişəhərdəki daşın. İçərişəhərin də daşı nə olacaq ki?! Kənd daşı deyil ki, hündür stul kimi oturasan üstündə, yayxınasan. Orda daş da... Daş...

Daşlaşmış daş.

Mən bir dəfə demişdim ki, yumruq boyda daş Yer kürəsi boyda sıxılmış torpaqdır. Bu həm də elə Rəmişə də aiddir.

**- Povestdə zaman-zaman Rəmişlə Paqaninin dialoqu, bənzədilməsi, qarşılaşması yer alır.**

**Siz onu kimə bənzədirsiniz?**

**S.Səxavət** - Aqil onu Paqaniniyə bənzədib, sağ olsun. Paqanini haqqında mən filmə də baxmışam. O da elə Rəmiş kimi dəlinin biri idi. İki dəli görüşür də.

Paqanini çox böyük sənətkardır. Tarixdə elə böyük sənətkarlar az olub. Paqanini mən rəssamlardan Van Qoqla müqaisə eləyərdim. Çünki sadəlöv olmasan heç vaxt saf ola bilmərsən. Saf olmasan nə böyük qonşu ola bilərsən, nə böyük ana ola bilərsən, nə böyük dost ola bilərsən, o ki qalmışdı böyük Sənətkar olasan. Bu mənada oxşayıblar əlbəttə.

Mənim ürəyim gəlmir Rəmişi kiməsə bənzədəm. "Ötən günlər" verilişində Rəmiş haqqında demişdim. Aqil onu Paqaniniyə bənzədəndə mən bir balaca etiraz da elədim. Dedim:"Ma elə gəlir ki, baxmayaraq ki, Paqanini daha əvvəl yaşayıb, Rəmiş Paqaniniyə yox, Paqanini Rəmişə oxşayır."

Elə o fikrimdə də qalıram. Burda təəssübkeşlikdən söhbət gedə bilməz ha... Mən öz hisslərimə etibarsızlıq eliyə bilmərəm.

Bu adam ağıl üçün deyildi də. Bəlkə də Azərbaycanda yeganə adam idi ki (bəlkə də axtarsaq uzağı bir, ikisini tapmaq olar ya olmaz), Dünya da da yeganələrdən idi ki, Rəmişlə dost olmaq üçün ağıl lazım deyildi, ürək lazım idi.

(ardı 12-ci səhifədə)

**- Böyük məmnuniyyətlə. "Rəmiş"i Seyran Səxavət gözü, dili və üslubu ilə oxumaq çox maraqlı olar.**

**S.Səxavət** - Rəmiş elə qeyri adi, fövqəl bir vücud idi ki, o, özü haqqında çox böyük bir epopeya yazıb. Gör, Aqil özünə nə qədər arxayındır ki, bu həqiqəti bilə-bilə təzdən girişdi ki, yox mən də öz Rəmişimi yaradacam. Amma Rəmiş özünü çoxdan yaradıb da. Xasiyyəti ilə də, tərsliyi ilə də.

Azərbaycan xalqı məşhur "Uşaq və buz" şeiri kimi Rəmişi əzbər bilir. Bunun üstünə durub "Rəmiş" adlı bir əsər yazmağa girişmək böyük cəsarət istəyir. Amma elə bilirəm, Aqil bu əsəri yazmaq istəyəndə heç mən deyənləri fikirləşməyib. Elə "Ya Allah-Məhəmməd- ya Əli"- deyib və yazmağa başlayıb və möhtəşəm də bir nümunə yaradıb.

**- Hər kitab oxucuya hansısa bir fikri ötürür. "Rəmişi" yazmaqla Aqil Abbas oxucusuna nə demək istəyib, hansı ismarıcı göndərib, hansı fikri ötürmək istəyib?**

**S.Səxavət** - Oxucuya heç nə ötürmək istəməyib. Rəmiş özü-özünü oxucuya - Azərbaycan xalqına çox qəşəng təqdim edib və ötürüb. Amma bu şifahidi də Şifahi. Aqil sadəcə onu (Sadəcə də o qədər sadə olmasa da) rəsmiləşdirib, yazılı şəklə salıb. Yəni gələcəkdə, yüz ildən sonra bizim dünyaya gələnlərimiz onu tanısın. Çünki, dünyadan gedənlərimiz hərəsi özü ilə bir Rəmiş aparacaq - tay Rəmiş qalmayacaq ki...

Gör eee... yüz il sonra bizim nə qədər dünyadan gedənimiz olacaq? Hərəsi bir Rəmiş aparsa yerdə nə qalar? Mənə elə gəlir ki, Aqil məhz bu zərurətdən yazdı, təqdim elədi "Rəmiş"i.

Aqil Abbas öz əsərində Rəmişdən xeyli oğurluq eləyib, plagiat eləyib. Xeyli... Amma o oğurluq dünyada bəlkə də yeganədir ki, onun halallığı İlahidən verilib. Sənət tərəfindən, söz tərəfindən Aqil o halallığı alıb artıq. Amma oğru olmağına oğrudur.

Bir nüans da ondan ibarətdir ki, Aqili biraz da burda Rasim Balayevə oxşatdım. Biraz fərqli sahələrdir. Bu kinodur, necə deyirlər:"Bu kino ki var..." Həqiqətən də çox çətindir xalqın təfəkküründə, şüurunda, hissiyatında bir ərazisi olan obrazı yaratmaq, tutaq ki Nəsimini. O əraziyə heç kim toxuna bilməz. Necə deyərlər "çıxarış" da, "kupça"sı da ona məxsusdur o ərazinin. Rasim o obrazı yaratmaqda necə çətinlik çəkibsə, bəlkə beş qat da artıq Aqil çəkib. Çünki tanınmış adamı təqdim eləmək çox çətindir. Nəsimi özünü yaxşı tanıyar, yoxsa yazıb. Bu beyin istehsalı, bilgi materialı deyil, duyaraqdan deyib ki, Rəmiş yarı mələk, yarı şeytandır. Mən də onun fikri ilə razıyam.

Adamı bütün tanıdıqları sevmir ki. Eləcə tanıyır və qalır orda. Sonra nəsə olur, başlayır sevməyə ya da heç sevmir. Sevgi tanışlıqdan xeyli sonra gəlir, yaxud da ümumiyyətlə heç gəlmir. Məsələn, mənə elə gəlir ki, yüz adam Rəmişi sevirsə, ona ürəkdən, qəlbdə bağlıdırsa, deməli yüz Rəmiş var. Bu hesabla Rəmişin sayı mən deyimdən minlərlə çoxdur. Aqilin "Rəmişi" ilə də, Rəmişin "Rəmiş"i arasında fərq var. Aqil "Rəmiş"ini belə tanış edir- daha doğrusu, böyük Rəmişin bəzi xüsusiyyətlərini öz "Rəmiş"ində cəmləyib təqdim edir. Deyim ki, çox uğurlu da təqdim edib. Çünki mən də çox yaxından tanıyırdım Rəmişi. Amma bir şeyi də deyim ki, heç kim, heç bir canlı da Rəmişi əvvəldən axıra tanıyıb qurtara bilməz. Rəmiş o qədər uzun bir yoldur ki, onu getməyə bir ömür, iki ömür, beş ömür bəs eləməz. Mən hələ onun sənətinin yolunu deyirəm. Sənətinin yolu həm də Rəmişin yoludur.

**- Kitabda demək olar ki, əvvəldən sona qədər Rəmişin azad adam olmağından bəhs olunub.**

**Rəmişin azadlığı - Seyran Səxavətin azadlığı - tərəzinin hansı gözü ağır gələr?**

**S.Səxavət** - Bilirsiniz, Mən də azad olmuşam. Bir dəfə də dedim ki:" Azərbaycan xalqı otuz neçəsə ildir azad olub, mən elə səksən ildir azadam.

Bizim azadlığımız arasındakı fərq deyəndə həm də bu bizim aramızdakı bir şəxs olaraq, bir fərd olaraq fərqdən söhbət gedir. Pərvanə xanım, Rəmiş musiqinin, səsin ona verdiyi imkan daxilində azad adam idi. Mən də sözün mənə verdiyi imkan daxilində azad olmuşam həmişə.

Mənə elə gəlir ki, səs, söz ikisi də bir beldən gəlib. Amma söz biraz səsə borcludur. Bax mən danışıram da, söz deyirəm, bunu səslə deyirəm. Səs olmasa mən nə deyə bilərəm?! Burası biraz qəliz məsələdir, elə qoy Aqilvari deyim, Rəmişvari də eşitsin - orda bir balaca Rəmişin ağlı olsa biməlidir ki, o yazı adamlarından səs adamı olaraq çox-çox yuxarıdadır.

O gitarasını sinəsinə basanda, qabaq-qabağa otursaq da, biz ona elə aşağıdan yuxarı baxmışıq ki, başımızdan papağımız düşüb. Belə bir xalq ifadəsi də var, hörmətli Pərvanə xanım.

**- Azadlığından, sərbəst ruhlu olmağından danışmışkən, gəlin elə kitabda yer alan bəzi məqamlara da**



Rəmişdə də elə idi. Saç problemi, geyim problemi. Bunlar hamısı normal şeylərdir. Böyük sənətkarlar həmişə öz geyimlərinə oxşayıblar. Geyim insanın xasiyyətidir. Bax Seyran Səxavətin də əynindəki geyim deyil, öz xasiyyətidir. Ona görə də kiminsə geyiminə qəmiş qoymaq elə onun özünə qəmiç qoymaq deməkdir. Rəmiş də heç kəsi vecinə almırdı - Rəmiş geyimə götürmürdü.

**- Povestdəki bir mövzuya da aydınlıq gətirməyinizi istərdim - Rəmişin pasport problemi nədən qaynaqlanırdı?**

**S.Səxavət** - Pasport da geyim kimi, uzun saç kimi problem idi. Pasportun olmamağı elə-belə şey deyil. Bu bilirsənmi nə deməkdir - həmən o filankəslər, bəhmənkəslər (yəni dövlət adamları, "çinovniklər") Rəmişə pasport verməməklə onun nəhəngliyini subut eləyiblər: Rəmiş, pasportu bu planetdə, Yer kürəsində yaşayanlara verirlər, sən bu planetin adamı deyilsən. Mən bunu belə yozuram, belə qəbul edirəm. Bu mənim həqiqətimdir, heç kəs buna toxuna bilməz.

**- Aqil Abbasın "Rəmiş"i ilə Seyran Səxavətin "Rəmiş"inin oxşar cəhətlərini bilirik. Bəs fərqli cəhətləri nədir?**

**S.Səxavət** - Bayaq da dedim ki, yüz adam Rəmişi tanıyıbsa, deməli yüz Rəmiş var. Mənimlə Aqilin Rəmişi ekizdilər. Ekiztayıdılar. Amma mənim tanıdığım Rəmiş sözünə daha möhkəmdir, sözünün üstündə durandır. Hər adam sözünün üstündə dura bilmir, sürüşür. Mənə elə gəlir ki, mənim Rəmişim Aqilin Rəmişindən min dəfə yaxşı oğlandır. Aqilin Rəmişini çox istəyirəm, amma öz Rəmişimi lap çox istəyirəm.

Sevgini qormaq lazım deyil. Əslində Sevgi adamın özünü qoruyur. Adam sevginin yanında onun bir körpəsi kimidir. Sevgi onu böyüdür, sevgi onu əmizdirir. Mənim aləmimdə "sevgini qorumaq" ifadəsi yalnışdır. Bunlar Sevgini məişət zəminində söz-söhbətə endirir, lazım deyil onu qorumaq. Sən də belə söhbətlərə baş qoşma.

**- Povestdə Rəmişin bir qadına vurulması da təsvir olunub, yazılıb:"... Pəncərədən baxan xanıma vurulan Rəmiş eləcə gəlib evin önündəki daşın üstündə oturur və qızın baxmağından ləzzət alırdı".**

**Bu nə cür sevgidir? Bu aşiqliyin hansı qatıdır? Bu hissin adı nədir, Seyran müəllim?**

**S.Səxavət** - O, İçərişəhərdə daşın üstündə oturub baxırdı haa... Kitabı oxuyanda, orda bir yer var, mən orda ağladım bu yaşda. Məni ağlatmaq nə hər qadının işidir, nə hər kişinin işidir, nə də hər doğmanın. Yüz faiz hiss edirəm ki, sən də o məqamı duymusan.

Əvvəla ordakı o daş mənim yadıma bizim qədim "elçi daşı"nı saldı. Amma bu "elçi daşı" bizim qədim "elçi daşı" kimi öz borcunu yerinə yetirməyib də, belə deyək. Ümid verməyib.

Bir də orda bir yer var, "Pəncərənin balası"( belə deyək elə) düşür gəlir onun yanına, o, uşağa deyir:"gözlə bu dəqiqə gəlirəm"... gedib gitarasını gətirir verir ona və gedir. Uşaq evə gedəndə "Pəncərə - xanım" ağlayaraq deyir ki, o, bir də gəlməyəcək. İlahi, dəhşətdir bu. Cütlüklər var əsatir şəklində , dastan şəklində - "Leyli və Məcnun", "Fərhad və Şirin", "Əsli və Kərəm", Avropada "Ruslan və Lyudmila", "Romeo və Julyetta" var. Bunu oxuyanda mən bu qərara gəldim ki, Dünyanı bir ovuc torpaq kimi dağılmağa qoymuyan adını sadaladığım dastanların qəhrəmanlarının bir-birini sevməklə bu dünyaya etdiyi alqışlarıdır. Amma Rəmişin sevgisi onların heç birinə bənzəmir. Aqil Abbas sağ olsun, bu ilahi sevgini, bənzərsiz eşqi necə gözəl təsvir edib. Sevgini dili yoxdur, düzdürmü? Amma sən demə



*Çingiz Nağıyev,*
*"Qızıl qələm" mükafatı laureatı,*
*Şəki*

# ŞƏKİ MUZEYİ YENİ FORMATDA

**Mənim jurnalistlik fəaliyyətimin ilk illərində Azərbaycan Elmlər Akademiyasının Prezidenti, akademik Həsən Abdullayev Şəkidən SSRİ Ali Sovetinə deputat seçiləndə o, dəfələrlə seçicilərin görüşünə gəlmişdi. Görüşlər zamanı mən onun nitqlərini qeyd edir, sonra bu görüşlər haqqında "Şəki fəhləsi" qəzetində məqalələr dərc etdirirdim. Bu görüşlərin birində akademik Həsən Abdullayev obrazlı tərzdə dedi ki, "əgər Azərbaycanı bir gözələ bənzətsək, Şəki onun yanağındakı füsunkar xaldır". Bu günümüzün böyük şairi, gözəl insan, türk dünyasında tanınan ziyalı, Türkiyə Cümhuriyyəti Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının Fəxri doktoru Vaqif Aslansa Şəkini vəsf edən bir şeirində belə yazıb:**

***Şəki - qədim Şəki, əzəl Şəkidir,***
***Mehriban Şəkidir, gözəl Şəkidir.***
***Arxası dağlardı - başları qarlı,***
***Qarşısı bağlardı - nübarlı, barlı.***
***Yaylağı, qışlağı öz içindədir,***
***Təpələr üstündə, düz içindədir.***
***Yolları yük dolu karvanlar görüb,***
***Karvanlar başında sarvanlar görüb,***
***Örpəyi, çirtməsi, kəlağayısı,***
***Yaylığı, dəsmalı dillərdə dastan,***
***Xanlar məkanıdır, bəylər yurdudur,***
***Qızıyla, oğluyla ellərdə dastan.***
***Burda gözəllərin tülü ipəkdən,***
***Tülünün üstündə gülü ipəkdən,***
***Şəkinin donunu təbiət biçib,***
***Çəməni atlasdan, çölü ipəkdən,***
***Şəki - qədim Şəki, əzəl Şəkidir,***
***Mehriban Şəkidir, gözəl Şəkidir.***

Dağlar qoynunda məskunlaşan Şəki təkcə təbii gözəlliyi ilə deyil, həm də min illərin şahidi olduğu tarixi ilə tanınır. Şəkinin füsunkar gözəlliyini, zəngin tarixini, mədəni irsini əks etdirən möhtəşəm bir muzeyi vardır. Bu muzey son iki ildə əsaslı təmir - bərpa edildikdən sonra bu günlərdən istifadəyə verilib. Mən də bu münasibətlə muzeydə oldum və muzeyin direktoru Vüqar Mustafayevdən geniş bir müsahibə aldım. Vüqar müəllim muzey haqqında məlumat verərkən dedi:

-Əvvəlcə onu qeyd edim ki, bir neçə gün qabaq Şəki Tarix-Diyarşünaslıq Muzeyinin açılışı oldu. Açılışda ölkəmizin paytaxtı Bakı şəhərindən, qonşu rayonlardan xeyli qonaqlar gəlmişdi. Onlardan bir neçəsinin adını qeyd etmək yerinə düşər.

Möhtərəm cənab Prezidentimiz İlham Əliyevin qızları - Heydər Əliyev Fondunun Vitse Prezidenti Leyla xanım Əliyeva və Bakı Media Mərkəzinin təsisçisi Arzu xanım Əliyeva, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev, Şəki şəhər İcra Hakimiyyətinin Başçısı Elxan Usubov və başqaları açılışda iştirak edibdər.

Muzey haqqında "Ədalət" qəzetinin oxucularına məlumat vermək üçün deyə bilərəm ki, Şəki Tarix-Diyarşünaslıq Muzeyi Şəkinin tarixini və mədəniyyətini, etnoqrafiyasını tanıtmaq məqsədilə 1925-ci ildə yaradılıb. Muzey Şəki Qala divarları içərisində, XIX əsrin ortalarında inşa edilmiş tarixi binanın daxilində yerləşir. Təmir-bərpa və konservasiya işləri yerli memarlıq üslubu ilə Avropa memarlıq elementlərinin sintezi əsasında aparılmışdır. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sifarişi ilə həyata keçirilib. Muzeyin elmi-inventar fondunda 5000-dən artıq maddi-mədəniyyət nümunəsi toplanıb ki, bunun da 2000-dən çoxu ziyarətçilərə nümayiş etdirilir.

Muzey giriş hissəsindən və dörd müxtəlif sərgi zalından ibarətdir. Bundan başqa bir zalda Şəki rəssamlarının əsərlərinin nümayiş etdirildiyi qalereya, xatirə əşyalarının



satıldığı dükan və inzibati hissə fəaliyyət göstərir.

**MUZEYİN BİRİNCİ SƏRGİ ZALINDA** Şəkinin qədim dövrlərindən Qafqaz Albaniyasına qədərki arxeoloji irsi və abidələri, Qafqaz Albaniyası dövründən başlamaqla orta əsrlərə qədər və orta əsrlərdən sonra Şəki xanlığının süqutuna qədər, yəni XIX əsrin əvvəllərinə qədərki dövrə aid maddi-mədəni və tarixi irsi ətraflı nümayiş etdirilir. Burada sərgilənən 5 müxtəlif nehrə 9 min il ərzində nehrənin Azərbaycanda, xüsusilə Şəkidə təkamül prosesini əyani şəkildə müşahidə etməyə imkan verir. Bu zonada nümayiş etdirilən saxsı qablar öz unikal formaları, heyvan və insanabənzər formaları ilə diqqəti cəlb edir. Burada tısbağa formalı zoomorf qab xüsusilə maraqlıdır. Eramızdan əvvəlki I minilliyin əvvəllərinə aid, tısbağa formalı saxsı dolça 2017-ci ildə Şəki rayonu Küdürlü kəndinin yaxınlığında, Cüyürlü meşəsinin ərazisində aşkar edilmişdir.



Digər stendlərdə, Azərbaycanda tunc, dəmir və antik dövrə aid qədim dekorativ nümunələr, bəzək əşyaları nümayiş etdirilir. Mərkəzi hissədə nümayiş etdirilən, taxıl saxlamaq üçün istifadə edilən iri küpün 500 kq tutumu var. Bu küp VII-VIII əsrlərdə Şəki rayonunun Zəyzid kəndi ərazisində yerli sənətkarlar tərəfindən istehsal edilib.

Şəki ərazisində aşkar edilmiş və Sasanilər dövrünə aid olan gümüş sikkələrdən ibarət dəfinə, Azərbaycanın orta əsr hərb tarixinə aid qalxan, qılınc, toppuz, dəmir qoruyucu maska və s. xüsusilə diqqəti cəlb edir. Dünyanın ən qədim samovarı ünvanına sahib olan saxsı samovar, orta əsr sufi dini-mənəvi irsinə aid olan maddi-mədəniyyət nümunələri də öz unikallığı ilə seçilir.

Muzeyin birinci zalında Şəkidə orta əsrlərdə dini inanclarla bağlı əşyalar, təsbehlər, təbərzin, kəşküllər də nümayiş etdirilir. Bu stenddə dərvişlər və orta əsr sufi inancı haqqında ümumiləşdirilmiş məlumatlar, kəhrəba, ağac və əqiq materialından hazırlanmış dini əşyalar haqqında məlumatlar verilir. Müxtəlif sufi təriqətlərinə aid baş geyimləri, Azərbaycanın orta əsr dövrlərinə aid olan tarixi məktublar, yazışmalar və möhürlər də burada xüsusilə diqqəti cəlb edir.

Birinci sərgi zalının son hissəsi Şəki xanlığının tarixinə həsr edilib. Şəki xanlığının ordusunda istifadə edilmiş odlu silahlar, barıt qabları burada nümayiş edilir. Məlumdur ki, XVIII əsrdə Şəki Qafqazda keyfiyyətli tüfəng istehsalı ilə məşhurlaşmış bölgə idi. Qarabağ xanının vəziri Molla Pənah Vaqif, 1770-ci ildə Şəki xanı Məhəmmədhüseyn xan Müştaqdan ona tüfəng hədiyyə olunmasını xahiş edib. Molla Pənah Vaqif istəyini şeirlə belə ifadə edib.

***Bu Qarabağ içrə çox çıxdım tələb meydanına,***
***Müşkül oldu, çünki yol bulmaq onun imkanına.***
***Eylədim bu müşkülü izhar Şirvan xanına***

**Çingiz Nağıyev:** Mən də Vüqar müəllimin Molla Pənah Vaqifdən söylədiyi şeirə Məhəmmədhüseyn xan Müştaqın yazdığı şeirlə cavab verdim.

***Şeirinə əhsən ki, etməz heç bir əşar ona,***
***Hər kimin var isə həddi , söyləsin köftar ona.***
***Kimsə ləb tərpətməsin, kim gəlməz istifsar ona,***
***Eylədim Müştaqdan bu sözləri izhar ona.***
***Tutmasın nəzri rəkakət, var işə kəftar tüfəng.***

Vüqar müəllim sözünə davam edərək dedi:

- Əlbəttə ki, onların şeirləşmələri çoxdur və biz onların hərəsindən bir nünumə dedik.

Bu xahişə görə Şəki xanı Məhəmmədhüseyn xan Müştaq Molla Pənah Vaqifə qızıl suyuna çəkilmiş aynalı tüfəng, bir köhlən at və Qarabağın şaxtalı günlərində geyinmək üçün Şəki sənətkarlarının əli ilə hazırlanmış üstü təkəldul toxumaları ilə bəzədilən kürk göndərir. Ümumiyyətlə Şəki xanları öz humanist əməlləri ilə həmişə fərqləniblər. Şəkinin tarixində, şəhər kimi fornalaşmasında xüsusi xidmətləri olan Hacı Çələbi xan və digər Şəki xanları haqqında muzeydə maraqlı məlumatlar toplanmışdır və burada seyircilərə həmin mövzuda geniş məlumat verilir.

**Çingiz Nağıyev:** Vüqar müəllim, mən bura gələndə baxdım, muzeyin ikinci zalı mənə daha maraqlı göründü. Bu mövzuda geniş məlumat verməyinizi xahiş edirəm.

Vüqar müəllim dedi:

**-MUZEYİN İKİNCİ SƏRGİ ZALINDA** Şəki şəhərinin tarixini, mədəniyyətini, qədim sənət növlərini, etnoqrafiyasını, mətbəxini əks etdirən yüzlərlə digər eksponat nümayiş etdirilir. At və ondan istifadə haqqında etnoqrafik məlumatlar muzeyimizdə öz əksini tapmışdır. Burada ata aid yəhər, çul, qamçı, müxtəlif dövrlərə aid at bəzək əşyaları nümayiş etdirilir. At ilə bağlı dəmirçilik əşyaları, nal və üzəngi haqqında məlumatlara da xüsusi diqqət ayrılır.

Muzeydə Şəkidə sənətkarlığın demək olar ki, bütün sahələrinə aid əşyalar, dabbaq sənəti və başqa sənətlər haqqında məlumatlar verilir, Şəki xanlığı dövründə yaşamış bəylərə, bir sıra tarixi şəxsiyyətlərə aid baş daşları nümayiş etdirilir. Bu baş daşlarının hər birinin yanında kimə aid olması haqqında da məlumatlar öz əksini tapır. Bu baş daşları öz incə işləmələri, üzərindəki naxışları ilə seçilir. Xüsusilə, Fətəli



xan Xoyskinin bacısına aid olan qəbir daşı diqqətçəkicidir.

Muzeyin bu hissəsində Şəkinin orta əsr mədrəsələrində tədris vasitəsi kimi istifadə edilmiş qədim əlyazmalar, rəhllər nümayiş olunur. Kitablar həm dini, həm də dünyəvi mövzuları əhatə etməklə Şəkinin qədim irsinə güzgü tutur. Mərkəzi vitrində isə Şəkinin mətbəxinə həsr edilmiş nümunələrin mulyajları sərgilənir.

**MUZEYİN ÜÇÜNCÜ SƏRGİ ZALINDA** Şəkidə ənənəvi, özünə məxsus tikilən evlərin interyerinə aid dekorativ memarlıq elementləri və məişət-ev əşyaları nümayiş olunur. Burada şəbəkə pəncərələr, buxarı, güzgü, lampalar sərgilənir. Ənənəvi Şəki evlərinə aid darvazanın üzərində bütün memarlıq elementlərinə, xüsusilə təqqülbab adlanan, dəmirdən hazırlanan qapı zənglərinə rast gəlinir. Burada da Şəki əxlaqı özünün göstərir. Belə ki, Şəkidə adətən evlərin girəcəyində qoyulan böyük darvazalarda və kiçik qapılarda adətən iki zəng qoyulub.

Bunun biri qadınlar üçün, biri isə kişilər üçündür. Əgər qadın zəngi çalardısa, qapıya evdən qadın çıxardı, kişi zəngi çalınardısa, qapıya kişi çıxardı.

Bu da Şəkinin əxlaqi dəyələrinin göstəricisidir.Qapı aksesuarları olan dəmirçilik əşyaları, Şəki evlərinin interyerinə aid buxarı, pəncərənin dəmir çərçivəsi və barmaqlıqlar da xüsusi gözəlliyi ilə diqqəti cəlb edir.

**Çingiz Nağıyev:** Vüqar müəllim muzeyin dördüncü zalı haqqında daha geniş danışdı və belə məlumat verdi:

**MUZEYİN DÖRDÜNCÜ SƏRGİ ZALINDA** Şəkinin ipəkçilik irsinə aid olan baramanın açılma prosesi və kəlağayı istehsalına aid əşyalar nümayiş olunur. İpəkçilik tarixinə aid məlumatlar və bunun regional ticarətdə, eyni zamanda qədim İpək yolu ilə reallaşan ticarətdə rolunu əks etdirən məlumatlar əsas vitrində sərgilənir.

Şəkinin tarixən ipək və kəlağayı istehsalı mərkəzi olmasına görə burada geniş bir vitrin vardır və məxsusi kəlağayıya həsr edilib. Bundan başqa, Şəkidə ipək parça istehsalı və bunun şəhərin sosial-iqtisadi həyatında oynadığı tarixi rol nəzərə alınaraq Şəkinin ipək parçalarından nümunələr əyani şəkildə nümayiş olunur.

**Çingiz Nağıyev:** Dördüncü sərgi zalının baş hissəsi Azərbaycanda xalçaçılıq sənətinə və onun toxunmasında istifadə edilən əmək alətlərinə həsr edilib. Mən Vüqar müəllimdən soruşdum ki, bəs Şəki xalçaları haqqında niyə geniş məlumat verilmir? Vüqar müəllim cavabında dedi ki, Şəkidə xalçaçılıq sənətini əks etdirən nümunələr, əl işləri çox azdır. Buna görə də muzeydə Şəki xalçaları haqqında geniş məlumat verilməyib.

**Çingiz Nağıyev:** Ancaq mənim bildiyimə görə Şəki qadınları əsasən evlərdə ipək xalçalar toxuyublar. Bu xalçaların çoxu satış üçün yox, imkanlı ailələrdə böyüyən qızların cehizi üçün hazırlanıb. Mənim ulu nənələrim, anam bu sənətlə məşğul olublar və indi qızılarım da xalça toxuyurlar. Ulu nənəmdən eşitdiyimə görə Şəki Xan sarayının 2-ci mərtəbəsindəki böyük zalın tavanında rəssamların işlədiyi gözəl rəsm əsərini qadınlar elə həmin sarayın həmin otağında tavana baxaraq eyni naxışda xovlu ipək xalça toxuyublar. Hələ o zamanlar yaşlı insanlardan aldığım məlumatlara görə həmin xalçanı və saraydakı bütün ipək xalçaları, eyni zamanda Xan sarayında və Şəki xanlarının evində istifadə olunan bütün əşyaları Şəki xanlığı fəaliyyətini dayandıranda rus qubernatorunun əmri ilə qarət edilib və Rusiyaya aparılıb. Yerli bəylərin, imkanlı ailələrin evlərində qalan ipək xalçalarını da sovet hakimiyyəti illərində ermənilər və yəhudilər şəxsi adamlardan alaraq aparıb xarici ölkələrdə satıblar.

Vüqar müəllim muzeyin dördüncü sərgi zalı haqqında sözünə davam edərək dedi:

Məlum olduğu kimi, Şəki şəhəri tarixən Azərbaycanda təkəlduz sənətinin mərkəzi sayılır. XVIII-XIX əsrə aid Şəki təkəlduz sənəti nümunələri burada daha geniş nümayiş etdirilir.

Bu sərgi zalındakı vitrinlərdən birində Şəkidə qədim geyim növləri, ləbbadə, köynəklər, mərkəzi vitrinlərdə isə Azərbaycanda orta əsrlərdə kişi və qadınların istifadə etdiyi bəzək əşyaları, o cümlədən qızıl və gümüş əşyalar və kəmər kimi aksesuarlar, geyim əşyaları, əldə toxunan rəngli corablar, tarixi ayaqqabılar, ayaqqabı qəlibləri nümayiş olunur.

**MUZEYİN ÇIXIŞ HİSSƏSİNDƏ** yerləşən qalereya və suvenir zalında isə tarixi fayton, rəsm əsərləri, ev maketləri nümayiş etdirilir.

Şəki Tarix-Diyarşünaslıq Muzeyinin eksponatları Efiopiyada, Madaqaskarda, İordaniyada, Pakistanda keçirilən sərgilərdə nümayiş etdirilib. Muzeyimiz Tümen vilayətinin Xantı-Mansiysk şəhərində yerləşən "Çelovek i priroda" muzeyi ilə əməkdaşlıq edir.

# Bəşəri ideyalar yazıçısı



*Vəfa Xanoğlan*
*Sənətşünaslıq elmləri doktoru*

**Çağdaş ədəbiyyatımızın canlı klassiki, görkəmli nasir, dramaturq, ədəbiyyatşünas, tənqidçi, ssenariçi, publisist, tərcüməçi, ictimai xadim, xalq yazıçısı Elçin zəngin və çoxşaxəli yaradıcılığı ilə dünya şöhrətli sənətkar zirvəsinə yüksəlib. 16 yaşından ədəbi fəaliyyətə başlayan yazıçının ilk hekayəsi 1959- cu il iyulun 5- də "Azərbaycan gəncləri" qəzetində dərc olunub. Bu, Elçinin böyük ədəbiyyata gəlişinin uğurlu başlanğıcı idi. 1966- cı ildən "Min gecədən biri" adlı ilk kitabının çapından sonra o, yazıçı kimi özünütəsdiqə nail oldu. Yaza- yaza yüksələrək, ustad sənətkar mövqeyinə ucaldı. İstedadlı qələm sahibi ədəbi yaradıcılığın müxtəlif istiqamətlərində daxili bir gəlirinclik şövqü və tükənməz enerji ilə yazıb- yaradır. Çünki istedad qaynar bulaqdır, o heç vaxt tükənmir. Yazıçının çoxçeşidli yaradıcılığı milli xüsusiyyətlərə malik olduğu kimi, həm də bəşəri mahiyyəti əks etdirir. Böyük ədəbi dünyagörüşə malik Elçin yaradıcılığının coğrafi sərhəddi çox genişdir. Geniş biliyə, zəngin erudisiyaya, böyük həyat təcrübəsinə malik olan dünya şöhrətli yazıçının yüksək tirajlarla müxtəlif dillərə tərcümə olunmuş əsərləri Azərbaycanımızı və xalqımızı layiqincə tanıdır. Onun bədii əsərləri dünyanın müxtəlif ölkələrində sevilə- sevilə oxunur, yaradıcılığı xarici ölkələrdə araşdırılır, elmi- tədqiqat işləri və dissertasiyalar yazılır. Elçin yaradıcılığını şərtləndirən özünəməxsus dəst- xətti, obrazlı dili, lirik üslubu, əsərlərində Şərq və Qərb dəyərlərini üzvi surətdə birləşdirməsi, xalq bədii təfəkkürünə, milliliyə və ənənəyə bağlılığındadır.**

Yazıçı üçün yaradıcılıq anları onun xoşbəxtliyidir. Özü demişkən, " Taleyimdən gileylənmək düzgün olmazdı. Mənim uğurum- nəhəng işin nəticəsidir. Amma mən bu işi sevirəm və həyatımı bu yaradıcılıq əzabları olmadan təsəvvür etmirəm." Yazıçı özünü o zaman xoşbəxt hesab edir ki, oxucuları ona diqqətli olur, intizarla yeni əsərlərini gözləyir. Elçinin yüksək sənətkarlıqla və zövqlə yazılmış çoxsaylı hekayələri, povestləri, romanları və pyesləri bu gün çoxmilyonlu oxucular tərəfindən sevilə-sevilə oxunmaqdadır. Onun bədii əsərləri zaman və məkan məhdudluğu tanımır. İstedad və zəhmətin bəhrəsi olan bu ədəbi sərvətlər zamanın sınağından uğurla çıxmışdır. Elçinin ədəbiyyat və mədəniyyət tarixində gördüyü işlərin miqyası olduqca geniş və böyükdür. Azərbaycan ədəbiyyatının və mədəniyyətinin dünyada tanınmasında və təbliğində yazıçının misilsiz xidmətləri var.

Yaradıcılığının ilk illərində yazıçı cəmiyyətdə, dünyada olan hadisələri, mənəvi- əxlaqi durumu dərindən dərk edərək onu bədii boyalarla və əlvanlığı ilə öz əsərlərində əks etdirib. Yazıçının ədəbiyyat tarixindəki mövqeyi həm də onun zamanın hadisələrinə öz fərdi baxışı ilə seçilir. Ömrünün altmış ildən çoxunu ədəbiyyata həsr etmiş qüdrətli qələm sahibinin hekayə, povest və romanları tərcümə edilərək dünya oxucuları tərəfindən maraqla qarşılandı. 60- cı illərdən bu yana Elçinin yaradıcılığına saysız- hesabsız rəylər, məqalələr, resenziyalar və onlarla irihəcmli tədqiqat əsərləri həsr olunub. Yaradıcılığına ədəbi- ictimai maraq bir an belə səngiməyib.

Elçinin çoxşaxəli yaradıcılığında onun hekayə janrında yazdığı əsərləri xüsusi yer tutur. Müəllifin hekayələrində mənəvi- əxlaqi təmizlik, insanın fikir və düşüncələrinin, psixologiyasının ən dərin qatları mənalı və ifadəli detallarla göstərilir. Obrazın psixoloji aləminə nüfuz etmək onun hekayələrinə xas olan ən əlamətdar xüsusiyyətlərdən biridir. Qəhrəmanın mənəvi aləmi və fərdi duyğuları vasitəsilə o, dövrün ictimai problemlərini canlandırır. Elçinin hekayələrinin cövhərinə hopmuş sadəlik, humanizm və bəşərilik onun bədii dəyərinə və estetik siqlətinə bir tamlıq gətirir. İnsan duyğularını həssaslıqla incələyən, bədii təsvir vasitələrinin bütün arsenalından məharətlə istifadə edən yazıçı onu şəhd- şirəli və obrazlı dillə aydın ifadə edir. Yazıçının " Şuşaya duman gəlib", "Bülbülün nağılı", "Baladadaşın ilk məhəbbəti", "Baladadaşın toy haması", "Qırmızı ayı balası", "Beş dəqiqə və əbədiyyət", "Hönkürtü" və s. hekayələri ideya məzmununa və bədii dəyərinə görə oxucular tərəfindən maraqla oxunur. Yazıçının ədəbi qəhrəmanları daxilən saf, təmiz, mənəviyyatca zəngin, həm də romantik qəhrəmanlarıdır. Bu insanlar gələcəkdə daha xoş günlərdə yaşamağı arzulayırlar. "Baladadaşın ilk məhəbbəti", "Bu dünyadan qatarlar gedər", "On ildən sonra", "Günlərin bir günündə", "Gümüşü, narıncı, məxməri" hekayələrinin qəhrəmanları məhz romantik xəyalları, xoşbəxt gələcək haqqında duyğu və düşüncələri ilə diqqəti cəlb edirlər. Bu qəhrəmanlar müxtəlif taleyə, dünyagörüşünə, zəif və güclü xarakterə malik olsalar da, onları bir ümumi insani cəhət birləşdirir: mənəvi zənginlik, təmizlik, saflıq və əxlaqi kamillik.



Elçinin "Qaçqınlar" silsiləsindən olan "Qarabağ şikəstəsi", "Sarı gəlin", "Bayraqdar" povest və hekayələri öz orijinallığı, həyatiliyi və yüksək sənətkarlığı ilə seçilir. Onun qəhrəmanları mərd, mübariz, mənən qürurlu insanlardır. Bu qəhrəmanların hər biri Elçinin şəxsi keyfiyyətlərinin ruporudur. "Bayraqdar" povestində Buzovna fəhlə yataqxanasında sığınacaq tapan, qəzet- jurnallar satmaq üçün maşınların üstünə qaçaraq çörək pulu çıxaran Surxay əlamətdar bayram günlərində üçrəngli bayrağını balaca otağının pəncərəsindən asır. Hətta o, yeganə oğlunun hüzr məclisində də müqəddəs bildiyi üçrəngli bayrağı mərasim evinin qənşərindəki iydə ağacının budağından asır. Çünki Surxayın qəlbində əbədi yuva salmış bu üçrəngli bayraq təkcə Surxayın ailəsinin deyil, həm də öz yurd- yuvalarından perik düşmüş bütün qaçqın ailələrini Qarabağa, doğma Şuşaya bağlayan son ümiddir. Povestdə bir ailənin timsalında Qarabağ faciəsinin bütün ağrı və əzabları, dözülməz məşəqqətləri əsl vətəndaş yanğısı və ustad sənətkar qələmi ilə təsvir edilmişdir. Əsərdə kamançaçı Tanrıverdinin sualına Surxay Bayraqdarın verdiyi cavab oxucunun da qəlbinə bir ümid işığı yandırır:

" - Deyirsən o bayraq qayıdacaq də, Şuşaya ?

- Əlbəttə! Bu bayraq ki, Şuşada elə...elə dalğalandı, yenə qayıdacaq Şuşaya!"

Surxay Bayraqdarın bu inamlı sözü Elçinin öz daxilindən gələn səsdir. Sanki bu sözlər Surxay Bayraqdarın yox, Elçinin dilindən səslənir. Akademik Nərgiz Paşayeva "Bayraqdar" povesti haqqında yazır: "Bayraqdar" povesti böyük faciənin yığcam bədii panoramını yaradan, eyni zamanda, ən dərin qatlarını üzə çıxaran sənət əsəridir. Bu əsər öz müəllifinə müasir dövrdə - XXI əsrin əvvəllərində də ədəbi bayraqdarlıq ucalığı gətirmişdir". Elçin nəsrinin ən səciyyəvi cəhətlərindən biri ondakı psixologizm, insanların daxili aləmini, onların mənəvi dünyasındakı ziddiyyətləri nəsrin obyektinə çevirməsidir. Bu əsərlərdə yazıçının əsas məqsədi insanın daxili aləminin mübhəm çalarlarını, insan taleyinin zaman axarında başqalaşmasını, dünya duyumunu, hisslər və duyğular aləmini aydınlatmaqdan ibarət olub. Özünün dediyi kimi, "yazıçının predmeti xislətdir və onun istedadı xislətin dərinliklərinə nə dərəcədə enə bilməsi ilə müəyyənləşir." Əsl vətəndaşlıq və milli özünüdərk özünə dərindən bələdlikdən başlayır. Yazıçının qəhrəmanlarında özünüdərk çox güclüdür.

Elçinin yaradıcılığında onun möhtəşəm romanları - "Mahmud və Məryəm", "Ağ dəvə", "Ölüm hökmü", "Baş" xüsusi yer tutur. Fikrimizcə, yazıçının tarixi mövzulu əsərlərində yaratdığı obrazlar həm də tarixi yaddaşın yaradıcısı olublar. "Ağ dəvə" romanında Böyük Vətən müharibəsi illərinin acı həqiqətləri təsvir olunur. Müəllif bir məhəllənin timsalında geniş ümumiləşdirmələr yolu ilə dövrün bütün mənzərəsini yarada bilmişdir. "Ölüm hökmü" romanının əsas qayəsi repressiya və durğunluq dövründə insanların başına gətirilən dəhşətli müsibətlər təsvir edilir. "Baş" əsəri də tarixi roman janrında yazılıb. Yazıçının 2015- ci ildə qələmə aldığı bu əsəri ədəbi tənqid "ədəbiyyatımızın baş romanı" adlandırdı. "Baş" romanı fəlsəfi- magik, psixoloji, bəzi məqamlarda isə ustalıqla mistik çalarlardan istifadə edilmiş əsərdir. Əsərə dünya ədəbiyyatının oxunaqlı və bəyənimli nümunələrindən biri kimi yüksək dəyər verildi. Roman ingilis, alman, ukrayna, ərəb, türk, rus və digər dillərə tərcümə olunaraq geniş oxucu auditoriyası qazandı. Müəllifin romanı atasına - xalq yazıçısı İlyas Əfəndiyevin xatirəsinə həsr etməsi ədəbiyaşar sənətkarımızın ruhuna dəyərli töhfədir.

Bir mərhələ olaraq Elçinin dramaturgiyası müstəqillik dövrünün yeni teatr hadisəsidir. Əslində onun dramaturgiyası öz başlanğıcını ötən əsrin 70- ci illərinin əvvəllərindən götürüb. İlk pyesi "Poçt şöbəsində xəyal"ı yazıçı 26 yaşında yazıb. Dramaturqun "Ah, Paris, Paris", "Mənim sevimli dəlim", "Mənim ərim dəlidir", "Arılar arasında", "Şekspir", "Qatil", "Sənətkarın taleyi", "Teleskop", "Cəhənnəm sakinləri", "Mahmud və Məryəm", "Ağ dəvə", "Ölüm hökmü", "Şuşa dağlarını duman bürüdü" pyesləri ölkəmizin teatrlarında tamaşaya qoyulmuşdur. Bir sıra pyesləri xarici ölkələrin- Nyu- York, İtaliya, Ukrayna, Kipr, Ankara, London, Sankt- Peterburq, Seul, Qazaxıstan, Gürcüstan, Moskva, İstanbul kimi böyük teatrların səhnəsində nümayiş etdirilmişdir. Sənətşünaslıq elmləri doktoru, professor Məryəm Əlizadə bu barədə yazır: "Elçinin pyesləri nəinki Azərbaycan teatrının repertuarını bəzəyir, həmçinin dünya teatrlarının repertuarını dolaşır. Onun dramaturgiyasını xarici ölkələrdə tanıyırlar, sevirlər və böyük maraqla səhnədə oynayırlar. Bu tendensiya gün - gündən artmaqda, şaxələnməkdədir." Azərbaycan-Türkiyə teatr əlaqələrinin genişlənməsində Elçin yaradıcılığı ayrıca bir mərhələdir. Dramaturqun pyesləri Ankaranın, Konyanın, Ərzurumun, İstanbulun, Adananın və Türkiyənin digər şəhərlərindəki dövlət teatrlarında nümayiş etdirilmiş və tamaşaçılar tərəfindən böyük maraqla qarşılanmışdır. Yerli mətbuat Türkiyədə göstərilən bu tamaşalara iki qardaş ölkə arasında mədəniyyət sahəsindəki əlaqələrin inkişafında böyük mədəni hadisə kimi yüksək dəyər verdi. Elçini isə Türkiyədə ən çox nəşr edilən müasir dünyanın qüdrətli yazıçısı kimi təqdim etdi. İstanbul Böyük Bələdiyyəsi Kültr İşləri dairə başqanı Əhməd Çökər yazır: "Elçin bəy yalnız qardaş Azərbaycanın deyil, bütün türk dünyasının, o cümlədən Türkiyənin də böyük yazarıdır. Onun Türkiyə teatrlarında səhnəyə qoyulmuş pyesləri əsl sənət uğurları əldə etmiş, tamaşaçıların həqiqi məhəbbətini qazanmışdır." Təkcə bir faktı qeyd edək ki, dramaturqun "Ulduzlar altında qətl" pyesi İstanbulda məşhur Möhsün Ərtoğrul səhnəsində üç ay ərzində 77 dəfə oynanılmış və yüksək reytinqli tamaşa kimi böyük uğur qazanmışdır. Bütövlükdə teatr Elçinin dram əsərləri hesabına repertuar zənginliyini daha da artırmışdır. Bir sıra rejissorların, aktyorların, rəssamların yaradıcılığının öyrənilməsi də Elçin dramaturgiyasının kontekstində gerçəkləşir. Tuncər Cücənoğlu yazır ki, "Elçinin pyesləri müasir dünya dramaturgiyasının layiqli nümunələridir." Doktor Metin Turan isə Elçini "Türk xalqları ədəbiyyatının ulduzu, ortaq qürur qaynağımız" kimi dəyərləndirib. 2007- ci ildə yazıçı "Türk dünyasına xidmət" mükafatına layiq görülmüşdür. 2022- ci ildə Elçin Türkiyənin yüksək mükafatına- "Necip Fazil" ödülünə layiq görülmüşdür. "Beynəlxalq mədəni- sənət" nominasiyası üzrə mükafatlandırılan yazıçıya mükafatı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan təqdim edib. Türkiyə Prezidenti çıxışında Elçin Əfəndiyevin müxtəlif dillərə tərcümə edilən əsərləri ilə qəlbləri fəth etdiyini deyib. Bildirib ki, Türkiyə- Azərbaycan dostluğunun səmimiyyətinin, həmrəyliyinin dünyada nümunə kimi göstərildiyi bir dövrdə verdiyimiz bu mükafat xüsusi məna daşıyır.

**(ardı var)**

## *ÜMT: İqlim böhranı humanitar fəlakətə səbəb ola bilər*

**Ümumdünya Meteorologiya Təşkilatının (ÜMT) yeni hesabatına görə, rekord temperatur, ölümcül daşqınlar, pisləşən quraqlıq və güclənən qasırğalar Latın Amerikası və Karib dənizində milyonlarla insanı aclıq, köçkünlük və su çatışmazlığı riski ilə üzə qoyur.**

Adalet.az xəbər verir ki, mayın 18-də ötən ili əhatə edən regional iqlim vəziyyəti hesabatını təqdim edən mütəxəssislər Latın Amerikası və Karib dənizində dəniz səviyyəsinin yüksəlməsi və ekstremal hava hadisələrinin artması ilə temperaturun orta səviyyədən xeyli yüksək qaldığını qeyd ediblər.

Hesabatda xəbərdarlıq edilir ki, ekstremal hava şəraiti daha şiddətli və intensiv olduqca, iqlim şokları getdikcə qida istehsalına mane olur, səhiyyə sistemlərinə təzyiq göstərir və regionda təmiz suya çıxışı təhdid edir.

2025-ci ildə güclü isti hava dalğaları bölgənin böyük bir hissəsində temperaturu 40°C-dən yuxarı qaldırıb, o cümlədən Meksikada rekord həddə - 52,7°C, Braziliya və Paraqvayda isə 44°C-dən yuxarı temperatur qeydə alınıb.

ÜMT xəbərdarlıq edim ki, həddindən artıq istilər, xüsusən də səhiyyə, soyutma və etibarlı elektrik enerjisinə çıxışı məhdud olan həssas icmalar üçün əsas ictimai sağlamlıq təhlükəsinə çevrilir. Bir çox ölkə hələ də istilərin səbəb olduğu ölümləri müntəzəm olaraq izləmir, lakin hesabatda 2012-2021-ci illər arasında 17 ölkədə hər il təqribən 13 min insanın öldüyünü təxmin edilir.

Qeyd olunur ki, intensiv hal alan yağışlar regionda humanitar vəziyyəti daha da pisləşdirir, icmalar dağıdıcı daşqınlar və uzunmüddətli quraqlıq dövrləri ilə üzləşir.

2025-ci ildə daşqınlar Peru və Ekvadorda 110 mindən çox insana təsir göstərib, Meksikadakı daşqınlar isə 83 nəfərin ölümünə səbəb olub və infrastruktura xeyli ziyan vurub, torpaq sürüşmələri baş verib.

Eyni zamanda, şiddətli quraqlıq Meksika ərazisinin 85 faizinə təsir göstərib, ölkənin tarixdə ən yağışlı iyun ayını yaşamasına baxmayaraq, məhsul və su anbarları üçün ciddi su çatışmazlığı yaradıb.

Karib dənizində də su çatışmazlığı qeydə alınıb, Cənubi Amerikanın cənubundakı quraqlıq şəraiti isə kənd təsərrüfatı itkilərini və meşə yanğınları risklərini artırıb.

**ÜMT xəbərdarlıq edib ki, iqlim ekstremal vəziyyətlərinin pisləşməsi kənd təsərrüfatı istehsalına və qida emalı (aqro-ərzaq) sistemlərinə artan təzyiq göstərir, regionda dolanışıq vasitələrini, qidaya çıxışı və kənd icmalarını təhdid edir.**

# Aqil Abbasın Rəmiş oğurluğu

## (Aqil Abbasın "Rəmiş" povesti haqqında Seyran Səxavət ilə müsahibə)

**(əvvəli 9-cu səhifədə)**

**- Bəs Seyran Səxavəti və Aqil Abbası kimə bənzədərdiniz?**

**S.Səxavət** - Yenə mən o Rəmiş təcrübəsindən istifadə edərək deyə bilərəm ki, Mən heç vaxt Aqil ola bilmərəm, Aqil də heç mənim yanımdan da keçə bimməz. O, Aqil Abbas kimi maraqlıdır, Mən Seyran Səxavət kimi. Biz bəzi adamlarda birləşmişik Aqillə - Qədir Rüstəmovda, Rəmişdə. Bax, gör, o hesabla götürəndə Rəmiş milyonları birləşdirib e...

Onların sevgi obyekti, sevgi ünvanı, sevgi məkanı, sevgi ərazisi eynidir, o adamları birləşdirib. Bax, sənətin böyüklüyü budur. Sənət də var ki, sənət deyil. Qədirlə, Rəmişi - qəlbində bir balaca insaf, mürvət olan insanların hamısı, birmənalı şəkildə hamısı sevrdi. Burda mübahisəyə yer qalmırdı ki, kimsə təsdiq edə, ya da kimsə inkar edə. Bütövlük, tamlıq, İlahi sənət, əfsanəvi sənət, o canlı karifey deyirlər a, maestro bax budur.

**- Seyran müəllim, kitabın bəzi yerlərində müəyyən hissələrin təkrarına rast gəlirik.**

**S.Səxavət** - Hə, başa düşdüm səni. "Müəyyən yerlərdə" deyəndə ki, 3 yerdədir. Yaxşı eləyib bu sualı da verdin. Bu povest həm elə bil ki, böyük bir şeirdir, həm də məndən ötrü elə gözəl bir nəğmədir. Sənin də, mənim də "təkrar" hesab elədiyimiz o abzas yarım bir yeri mənə elə gəlir ki, Aqil Abbas üç dəfə qəsdən yazıb. O, nəqarətdir. Gözəl bir mahnıda nəqarət hansı rolu oynayırsa, bu povestdə də həmin o, üç dəfə təkrar - nəqarət o rolu oynayır.

**- Kitabın bəzi səhifələrində dini və mifoliji səhnələri əks etdirən illüstrasiyalara rast gəlirik. Bunlardan istifadə səbəbi nə ola bilər?**

**S.Səxavət** - Kitablarda illüstrasiya ənənəsi olub bizdə. Hətta rəssamlar var, məsələn Arif Hüseynov - illüstrasiya rəssamıdır, xalq rəssamı mənim keçmiş qonşum və indiki dostum.

Mən kitabdakı illüstrasiyaların hamısına baxdım, çox qeyri adi şeylərdir. Heç bilmirəm Aqil onu kimə çəkdirib. Amma yəqin ki, elə o rəssam əvvəlcə əsəri oxuyub, həmin ruha uyğun çəkib. Çünki oxumasa bunu bu cür çəkmək mümkün deyildi. Bəlkə bir dəli də onu çəkən o rəssamdır. Allah eləsin Azərbaycan elə belə dəlilərlə dolu olsun. Dəli deyəndə - Koroğlunun ətrafındakılara da "dəli" demişik biz. El dilində bir ifadə də var, bir yaxşı kişi görəndə deyiblər:"Dəlidolu adamdır."

**- İllüstrasiyalara baxanda məhz İsa Məsihi simvolizə edən mənzərə canlanırdı. Bəlkə də o ruh məsələsi var orda deyə məhz Xristian dini ilə əlaqələndirilib o şəkillər.**

**S.Səxavət** - Haqlısan, var. Mən yenə deyirəm, elə bil ki, bu kitab bir səmadır, o şəkillər bir ruh, bir quş kimi bir xeyli uçdular başımın üstündə, oxucu başının üstündə dövrə vurdular və çıxıb getdilər.

**- Bu povest Aqil Abbasın Rəmişə bir dost vəfası, dost sevgisi, dost bağının sözlə təzahürü idimi?**

S.Səxavət - Sən elə fikirləşirsənsə çox sağ ol.

Burda fərddən söhbət gedə bilməz. Düzdür, Rəmişi gələcək nəsillərin də tanıması nöqteyi nəzərindən bu vacibdir. Amma bu işin texniki tərəfidir də.

İki çay birləşən yerə "Suqovuşan" deyirlər, hə. Bayaq da dedim, baxmayaraq ki, Aqildən xeyli əvvəl Rəmiş öz əsərini, öz Romanını yazıb. Bax, Aqilin Rəmişdən yazmağı - Suqovuşandır. Bu Suqovuşanın özü nəyə desən dəyər. Cənnətin filialı kimi baxıram mən suqovuşan yerlərə. Burda bir qovuşma da var axı - insani qovuşma - həsrətlilərin qovuşması, oğlunun davadan qayıtmasını gözləyən anayla balanın qovuşması. Suqovuşan müqəddəs yerdir, ora sadəcə iki suyun qovuşması kimi baxmaq ifadəmə görə üzr istəyirəm, amma çox əbləhanə bir yanaşma olar!!!

**- Seyran Səxavət - Rəmiş - Aqil Abbas hər üçünüzü birləşdirən bir dəyər də var Segah. Niyə məhz seygah?**

**S.Səxavət** - Bu Muğam deyilən şey təxminən müsəlman ölkələrinin hamısında ayaq üstə bütün boy-buxunu ilə görünüb. Azərbaycanda belə hesab edirlər ki 7 əsas Muğam var. Bir dəfə mən televiziya çıxışlarımın birində demişdim ki, bu yeddi Muğamın paytaxtı Segahdır. Rəmiş də Qarabağdandır, Mən də Qarabağdanam, Aqil də Qarabağdandır - Rəmiş də Segahdandı, mən də Segahdanam, Aqil də Segahdandır. Paytaxtımız birdir. Üçümüz də o mənada şəhər uşağıyıq.

**- Siz də sözün əsl mənasında Dost olmağı bacaran birisiniz. Keçən müsahibəmizdə dediniz ki:" ...söhbətləşmək, dərdləşmək istəyəndə dostlarım Yusif Səmədoğlu və Adil Hacıyevin məzarı üstə gedirəm, xeyli danışıram onlarla" . Bəs Rəmişin Segahını dinləmək istəyəndə nə edirsiniz?**

**S.Səxavət** - Rəmişn bir segahı olmayıb ha. Rəmiş yüz dəfə segah çalıbsa hərəsi bir qiyafədə, hərəsi bir boy-buxunda, hərəsində yanıq yerləri var, sadəcə duymaq lazımdır. Axtarmaq lazım deyil onu. Axtarmaqla başa gəlsəydi elə geoloqları işə salardılar da. Necə ki, faydalı və yaxud faydasız qazıntıları tapıllar. Bu ruh məsələsidir. O tapılmır ha, o duyulur.

Ruhun da maddi dünyadan, maddi aləmdən fərqi, gözəlliyi, şirinliyi, gözlərinin dərinliyi məhz elə bununla əlaqədard ki, o duyulur. Yoxsa nə yaxşı, elə hamı ...

**- Seyran müəllim, söhbətimizin əvvəlində vurğuladınız ki, kitabı birdəfəyə və birnəfəsə oxumusunuz. Təəssüratlarınızı öyrənmək istəyərdim.**

**S.Səxavət** - Burda mən həm qəhrəmanı tanıyırdım, həm də yazanı. Biri var Tolstoyun əsərini oxuyasan. Mən Tolstoyla oturub - durmamışam, tanımıram, onun qəhrəmanlarını da tanımıram. Tolstoy çox öyük yazıçıdır. Doğurdan bu tamam başqa bir şeydir. Biri də var yazanı da tanıyırsan, qəhrəmanı da tanıyırsan və sənə deym ki, elə bil özünü də tanıyırsan axı. Bu üçlüyün içində oxunan kitab...

Bizim xalq həmişə çörəyə and içməklə bərabər, qurana da , kitaba da and içib. Bu kitab da mənim üçün belə bir müqəddəsdir. Doğurdan da Allahın bu işlərdə əli var. Aqildə də əli var, Aqildən qabaq Rəmişdə də əli oub, Rəmişdən də qabaq gitarada... Bax belə bir dağınıq cavab verim.

Heç necə oxuduğumu bilmədim, ikinci cümlədən sonra aldı apardı məni qanadına.

Siz də bu kitabı oxumusunuz, görürəm ki, əməlli-başlı məlumatınız var.

Aqil bunu gözəl yazıb, mən də çox gözəl oxudum - Aqil Necə yazıbdırsa, mən də elə oxudum.

**- Rəmişlə söhbət eləyə bildiniz?**

**S.Səxavət** - Aqil imkan verəndə Rəmişnən, Rəmiş imkan verəndə Aqilnən söhbət elədik.

Şablon da olsa deyəcəm, Aqilin bir humanist yazıçı kimi bir üstünlüyü burdadır ki, əsərdə ölüm səhnəsi yoxdur. Aqil bicin biridir - bir sənətkar kimi. O, hiss eləyib ki, Rəmişin ölüm səhnəsini yazsa da heç kəs inanmayacaq, heç kəs. Birinci növbədə mən inanmayacaqdım və telefonu götürüb ona ağzıma gələni deyəcəydim ki, bu qeyri mümkündür.

**- Kitabda yazılıb:" Bu dəqiqə onun ürəyindən yalnız bir şey keçirdi. Ona görə də yavaş səslə otaqdakı tanımadığı adamlara dedi: - Gitaramı istəyirəm."**

**Bu cümlə məni çox düşündürdü. Dedim görəsən mən canımı tapşıranda son arzum nə olcaq? Özümə verdiyim bu suala Seyran Səxavət nə cavab verər?**

**S.Səxavət** - Mən heç nə istəməyəcəm. Çünki, ağlı olan adam ölümdən heç nə istəməz. Ölməmişdən qabaq ürəyimdən keçən bir şey olacaq ki, mən dünyada ölməyim, yuxudan ölümə köçüm.

Qayıdaq ona ki, Rəmiş niyə gitarasını istəmişdi. Mifologiyamızda belə bir şey var: yaşlı bir ata can verir, dünyasını dəyişmək ərəfəsindədir. Yeganə bir oğlu var, o da uzaq bir səfərdədir. Həmin ata oğlunu görməyincə ölmür. Hətta ölüm də ona imkan verir. Mənə elə gəlir ki, o gitara Rəmişin atasıdırmı, anasıdırmı, bəlkə də ona o istedadı verə Allahın portretidirmi. O gitaranı verməsəydilər, bəlkə də Rəmiş indiyə qədər elə can üstündə qalardı. Bax həmin o mifalogiyamızda olan məsələni oxucularmızın yadına salıram ki, bilsinlər nəyə görə onu istəyib.

**- Deyirsiniz ki, bəlkə də Allahın bir potreti bilib istəyib gitarasını Rəmiş. Bəlkə elə Allah da Rəmişlə təkbətək qalmaq üçün, onu dinləmək üçün yanına apardı?**

**S.Səxavət** - Yəqin ki... Bu çox ağır sualdır. Əstəğfurullah, müvəqqəti qoyuram göydəki yerində qalsın, kənara qoyaram deyə bilmərəm. Belə bir variant ola bilər: İnsan nəsə bir zəhmət çəkəndə, bir şey vyaradanda, ev tikəndə onun içində bir uzanır, dincəlir. Qohum əqrəbasını qəbul edir, balalarını böyüdür. O cəhətdən dəqiq olmasa da deyə bilərəm, güman edə bilərəm ki, o barmaqlar İlahi bir vergi idi. Barmaqlar... Şərqdə indi də götürəndə əllər yemək yemək üçün istifadə olunur da. Ancaq çəngəl, ya da qaşıq rolunu oynayır. Əlnən yəni barmaqla ağız arasında çox qısa bir məsafə gedib-gəlib. Baxır o kimin barmaqlarıdır və o barmaq nəyə sürtülür. Rəmişin barmaqları da gitaranın pərdələrinə sürtüləndə ilahi möcüzə yaradırdı. Rəmiş həmişə gitara çalanda mən onun əllərinə, barmaqlarına xüsusi fikir verərdim.Əlləri gözümün qabağındadır. Rəmişin bir portreti var, əllərinin iki portreti. Qəribə də olsa, Rəmişin gitarasını "Kalaşnikov" avtomatına, əllərini də avtomatın güllə darağı var ha, bax ona oxşadırdım. Güllələyirdi də. Amma o güllə öldürmürdü, o güllə yaşadırdı, o güllə müalicə edirdi. Onun o "Kalaşnikov"u birdən sözünə baxmasaydı Rəmiş onu çırpardı yerə. Necə ki. Qurban əminin (Qurban Pirimov) tarını çırpıb bir əbləhin təpəsinə. İndi ağlıma gəldi ki, sən düz deyirsən, bəlkə Allah da ona qulaq asırmış. Rəmişi toya zada çağırırdılar başqa rayonlara, Orta Asiya ölkələrinə, Rusiyaya. Hətta biraz gülməli də olsa deyirəm bəlkə Allahın da toyu zadı var kiməsə, çağırıb ki, Rəmiş orda çalsın. Buna inanıram. Ölüm gəlmişdi gəlməyinə, amma Rəmişi apara bilmədi. Rəmiş həmişə istədiyi yerə gedib. Onu kimsə harasa məcbur apara bilməyib. Bunun uzun və dərin səbəbləri var. Mən bilən bir balaca ağlı və hissiyatı olan oxucular biləcək ki, biz səninlə burda nə deyirik. Ölüm də Rəmişin xətrinə elə bil özünü aldatdı. Axı ölüm də hasabat verir və buna görə də gəldi Rəmiş adıyla, Rəmişəbənzər kimisə, nəyisə götürüb apardı. Onun apardığı ayrı şeydi. Rəmiş bu gün də bizimlədi, burda qalıb (ürəyini göstərir).

**- Çox sağ olun, Seyran müəllim. Sizinlə söhbətdən sonra kitabı elə bil ikinci dəfə oxumuş oldum və birinci dəfə gözümdən yayınan bir çox məqamları yenidən kəşf etdim.**

**S.Səxavət** - Siz də sağ olun, Pərvanə xanım. Çox gözəl, əhatəli suallar verirdiniz. Elə mən necə oxumuşamsa o kitabı, sən də o cür oxumusan. Yoxsa belə söhbətimiz heç alınmayacaqdı.

**Pərvanə Eyvazqızı**

## "Yada düşdü" jurnalının növbəti sayı çap olundu

**Yada düşdü" ədəbi-bədii, nostalji jurnalının növbəti - 2026-cı ildəki ilk sayı (yanvar-fevral-mart) çapdan çıxıb. "Təsisçidən" bölümündə jurnalın təsisçisi və baş redaktoru Nəzakət Məmmədovanın "Ağlamışam" şeiri yer alıb.**

***Mən ilk dəfə doğulanda ağlamışam.***
***Anamın "ana sevinci"nə qoşulub ağlamışam.***
***Sonralar ağladıblar ağlamışam.***
***Ağlağan olmamışam.***




Jurnalın bu sayında Südabə Sərvinin "Üçüncü minilliyin qəhrəmanı postinsan olacaq", Elmira Axundovanın "Heydər Əliyev ziyalılar arasında ayrıseçkilik etmirdi", Qəzənfər Paşayevin "Yada düşdü" dərgisinin baş redaktoru Nəzakət Məmmədliyə açıq məktub", Salatın Dəmirovanın "Qulu Ağsəs: Mən şeirə heç vaxt çörək kimi baxmamışam", Dilarə Adilgilin "Əqidə, amal şairi: Davud Nəsib", Vaqif Yusiflinin "Yada düşdü Nahid Hacızadə", Bəhruz Niftəliyevin "Ala gözlərin", Nəzmiyyə Yigitoğlunun "Azadə qəlbin nəğməsi", "Qəlbimizə yazılan şeirlər", Şəlalə Ana Hümmətlinin "O-Əziz Vəlilidən ətirli qasid", Nəzakət Məmmədovanın "Lütfkar qadın", Aysel Fikrətin "Bir ömrün musiqi salnaməsi", Fuad Biləsuvarlının "Rəşad Məcidin qələmsiz yazılanlar"ı", Vaqif Səmədoğlunun "Səməd Vurğun kimdir?", Salatın Əhmədlinin "Ədalət", Pərvanə Məmmədlinin "Süleyman Rüstəmin Cənubla bağlı xatirələri", Əkbər Əlioğlu Əliyevin "...Və sən"in bədii çəkisi və özəlliyi", Qəşəm Nəcəfzadənin "Sən ölən gün", Rəna Təbəssümün "Qısqanc adam", Aytəkin Mehmanqızının "Sevgi əngəl tanımır", Kamal Camalovun "Xaqani Şirvani-Allahı və doğruluğu sevən türk şairi", Tamxil Ziyəddinoğlunun "Qəbirlər də qəribləşir", Təranə Turan Rəhimlinin "Gücündən yorulan qadın", Daşdəmir Əjdəroğlunun "Ürək adam", Maarifə Hacıyevanın "Tofiq Əbdülhəsənli-70", Dilarə Ağamusa Nağıyevanın "Elə güllər becərəm ki..." yazıları (şeir, məqalə, xatirə və sair) görüşünüzə gəlib. "Uşaqlar ay uşaqlar" ənənəvi rubrikası da jurnalın bu sayına bəzəyib.

## Azərbaycanda içməli su necə yoxlanılır?

**"Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzi suyun təhlükəsizliyinin və sanitar-epidemioloji sabitliyin təmin olunması istiqamətində genişmiqyaslı dövlət nəzarəti həyata keçirir".**

Adalet.az xəbər verir ki, bunu "Sağlam radio"nun (93 FM) "Sağlam səhər" verilişində Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Sanitariya-gigiyena, fiziki-kimyəvi, toksikoloji və radioloji müayinələr laboratoriyasının həkim-laborantı Lalə Şirinova deyib.

Onun sözlərinə görə, Mərkəzin fəaliyyəti həm içməli su təchizatına, həm də çimərliklərdə dəniz suyunun monitorinqinə nəzarəti əhatə edir: "İçməli suyun laborator monitorinqi ölkə üzrə mərkəzləşdirilmiş su təchizatı sistemlərindən, su anbarlarından və modul tipli təmizləyici qurğulardan götürülən nümunələr əsasında aparılır. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin laboratoriyaları Azərbaycan Akkreditasiya Mərkəzi tərəfindən akkreditasiyadan keçirilib. Suyun bakterioloji, sanitar-kimyəvi və toksikoloji göstəricilərinin müayinəsi AZS ISO/IEC 17025 standartının tələblərinə uyğun şəkildə, müasir avadanlıqlarla həyata keçirilir".

Lalə Şirinova bildirib ki, Mərkəzdə aparılan laborator analizlər və toksikoloji-gigiyenik müayinələr AZS ISO/IEC 17025 standartına uyğun icra olunduğundan, əldə edilən nəticələr həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə etibarlı və rəsmi hesab olunur: "Məqsədimiz suyun keyfiyyət göstəricilərinin mövcud standartlara tam uyğunluğunu təmin etməkdir. Hər hansı problem aşkar edildikdə isə bunun aradan qaldırılması üçün aidiyyəti qurumlara məlumat verilir və müvafiq tədbirlər görülür".

## Azərbaycanlı yazıçı Bakıdan deport olundu

**Güney azərbaycanlı yazıçı, Azərbaycan Respublikasında da yaxşı tanınan Əli Çağla Bakı Beynəlxalq Hava Limanından ölkəyə buraxılmayıb və İrana deport olunub.**

Adalet.az xəbər verir ki, bu barədə Əli Çağla özü məlumat yayıb. Onun sözlərinə görə, bu gün Tehrandan Bakıya uçub. Yalnız Bakıya enəndə yadına düşüb ki, yeni qaydalara əsasən, aeroportda viza almaq proseduru ləğv edilib:

"İndi vizalar elektron şəkildə 3-5 gün öncədən alınır. Bakıya - Heydər Əliyev Beynəlxalq Hava Limanına çatdığımda Sərhəd Xidmətinin əməkdaşları vizanın olmadığını bildirib, məni deportasiya sənədi ilə Tehrana geri qaytardılar".

Əli Çağla qeyd edib ki, Bakıya VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalına dəvət olunub və festivala görə də Bakıya gəlirmiş. Qeyd edək ki, Bakıda VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı 22-26 may tarixlərində keçiriləcək.




**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**


# VAQİF HÜSEYNOV - 90

**Sən çılğın bir həyəcandın,**
**Dönüb necə sükut oldun?**

Bu misraların müəllifi mərhum şairimiz Vaqif Hüseynovdur. O, 1936-cı ildə Lənkəran rayonunun Separadi kəndində doğulmuşdu. Orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdı. Şeirə-sənətə həvəsi elə orta məktəb illərindən başlasa da, ilk şeiri tələbə ikən-1958-ci ildə "Azərbaycan gəncləri" qəzetində dərc edilmişdi. Vaqifin atası İbi kişi müharibəyə gedib, qayıtmayıb. O ağrını yaşaya-yaşaya Vaqif böyüyüb, yaşa dolub, dünyanın bundan da böyük ağrılarından keçib. Elə şairlik də bu ağrılardan doğub. Yuxarıda misal gətirdiyim misralar Vaqif "Atam yaşındayam mən" poemasındandır.

Universiteti bitirdikdən sonra Vaqif Hüseynov Lənkərana qayıtmış, rayon qəzeti "Leninçi"də şöbə müdiri, məsul katib vəzifələrində çalışmışdı. Rayonda ədəbi mühitin canlanmasında Məmmədhüseyn Əliyev, Şəkər Aslan kimi tanınmış yazarlarla bir sırada onun da fəaliyyəti az olmamışdır.Sonra o, Masallıya köçmüş, jurnalistlik və naşirlik içaliyyətini rayon "Çağırış" qəzetində davam etdirmişdi.Bu qəzetdə şöbə müdiriyindən redaktoa vəzifəsinə qədər yüksəlmişdi. Onun redaktorluğu dövründə "Çağırış" qəzeti "Pravda" qəzetinin baş məqaləsində tərifl ənmiş, Lenin yubiley medalı, Fəxri Fərman və respublika Jurnalistlər İttifaqının "Qızıl Qələm" mükafatına layiq görülmüşdü. Yaxşı xatırlayıram ki, o dövrdə "Çağırış" qəzeti nəinki Masallıda, bütün respublikada şöhrət qazanmışdı. Vaqif Hüseynov rayonda yaşayan bütün qələm əhlilərini bu qəzet ətrafında toplayır, rayonun ictimai həyatı, ziyalı mühiti ilə bağlı yazılar dərc etdirirdi.

Mən onda orta məktəbdə oxuyurdum və ara-sıra "şeirlər" də yazırdım. Bu "şeirlər" adicə nəzmkarlıq nümunələriydi, ancaq o zaman mənə elə gəlirdi ki, o qəzetdə "şeirim" çap olunsa, kənddə hamı məni barmaqla göstərəcək, adıma şair deyəcəklər. Qəzetə göndərdiyim "şeirlər" isə çap olunmurdu ki, olunmurdu. Bir gün o qəzetdə mən də tənqid edildim, təbii ki, "şeirlərimə" görə. Bu hadisə mənim uşaq qəlbimi yerindən oynatdı. Amma ruhdan düşmədim, "yaradıcılığımı" davam etdirdim. Çoxlu şeir kitabları oxudum və dərk elədim ki, ədəbiyyat aləminə hazırlıqsız daxil olmaq çətindir. Universitetin filologiya fakültəsinə daxil oldum, daha qeir yazmağı tərgitdim, elmi-nəzəri kitablar oxudum, tənqidçilik sənətinə meylim artdı. Doğrudur, şair olmadım, amma o zamanlar şeirə meylim mənim şeiri duymağa gərəkli oldu. Yoluma davam etdim, ədəbiyyat aləmində sözümü deməyə çalışdır, məqalələrim, resenziyaları mətbuatda tez-tez çap olundu. Nkamzədlik və doktorluq dissertasiyaları da müdafiə etdim. Elə bir gün oldu ki, Vaqif Hüseynovun "Yazıçı" nəşriyyatından şeirlər əlyazmasını mənə verdilər ki, rəy yazım.Yazdım, özü də müsbət rəy. Çünki Vaqif Hüseynov əsl şair idi.

Vaqif artıq qəzet redaktoru deyildi. 1975-ci ildə soyuq qış günlərinin birində qaMasallıya yeni bir katib göndərdilər. O qış Masallıya təkcə şaxta, qar gətirmədi həm də o katibin timsalında bir bəla gətirdi. Təpədən-dırağa hirs və hikkə, rayonun ən yaxşı ziyalılarına qarşı qərəzçi olan bu katib oqun qarşısında əyilməyən Vaqif Huüseynovu da qaraladı. Qəzetin "nöqsanlı" işi rayon partiya komitəsinin bürosuna çıxarıldı. Vaqif Hüseynov işdən azad olundu. Ondan sonra Vaqif hansı idarədəsə kiçik mühasiblik işinə düzəldi, amma o "kiçik padşah" hələ də Masallıdaydı, dünən Vaqifin şərəfinə ucu güllü, ütülü tost söyləyənlər isə bir andaca buxarlandılar. Və Vaqif Lənkərana köçdü, rayon radio verilişlərində işlədi Və günlərin bir günü əlli yaşı tamam olmamış vəfat etdi. Dözə bilmədi ona qarşı törənən bu haqsızlığa. O katib də indi yoxdur-ölüb, kimsə onu xatırlamır deyə bilərəm, amma Vaqif mənən yaşayır, unudulmaz bir şair kimi.

Mən 1996-cı ildə, Vaqifin ölümündən on il sonra onun "Vətən, sənə borcum qaldı" şeirlər kitabının tərtibçisi, ön sözün müəllifi oldum, o kitabı nəşrə hazırladım. Həmin kitab "Söz" şeiri ilə açılır.

***Sözüm-gözüm qarası,***
***Sözüm kəsərli almaz***
***"Gedər xəncər yarası,***
***Söz yarası sağalmaz".***

***Gah kükrəyən dağ çayı,***
***Gah narın yağış sözüm.***
***Gah ilin qızmar yayı,***
***Gah şaxtalı qış sözüm.***

***Söz zəngin xəzinəmdir,***
***Dərmandır, neştərdir o.,***
***Gah sevincdir, gah qəmdir,***
***"Cəngi"dir, "Şüştər"dir o.***

***Söz ürəkdə bir bulaq,***
***Söz dodaqda ürəkdir.***
***Sözün bədxərci olmaq***
***Xırdalanmaq deməkdir.***

***Söz üstə savaş gedib,***
***Neçə qəlbə düşüb köz.***
***Söz üstündə baş gedib,***
***Neçə baş qurtarıb söz.***

***Söz insan dodağında***
***Qəlbin, hissin aynası.***
***Ürəyin ocağında***
***Söz bişsin, söz qaynasın.***

Vaqif Hüseynov sağlığında öz birinci şeirlər kitabını görə bildi (1983), "Dəniz çağırır". Onun bir insan kimi bütün xüsusiyyətləri- Bu qəzəbi, sevinci, ağrısı, insanlara, təbiətə, sevgiyə münasibəti bu şeirlərdə əks olunub. Vaqif bir şeinində yazırdı ki:

***Elə mən özü də şair deyiləm,***
***Şair bir möcüzə göstərməlidir!***

Əlbəttə, bu sadəcə böyük ürəkdən qopub gələn təvazökarlıq hissi idi. Möcüzənin isə böyüyü, kiçiyi yoxdu. Əgər bir şeirdə poetik tapıntı görsənirsə, sən heyrətlənirsən. "Ay solğun bir fənərdir, ulduzlar nar giləsi" deyən şair sözün sehrinə yiyələnən adam ola bilər. "Əyninə geyərək qövsi-qüzehi Bir gözəl gedirdi bulağa sarı" misralarını ancaq poetik istedadı olan şair yaza bilər.

Bir dəfə Vaqifdən soruşdum: Şair olmasaydın, nə olardın? Sanki ona şair deməyimdən incidi, dedi: "Çalışardım, şair olum". Vaqif Hüseynov nadir hallarda ədəbi mətbuatda çıxış edirdi. Amma Bakıda, geniş ədəbi mühitdə onu tez-tez soraqlayırdılar. Vaqif Universitetdə, eyni kursda Yaşar Qarayevlə, Şamil Salmanovla, Arif Səfiyevlə, Tofiq Hacıyevlə, Firudin Ağayevlə, Ağacavad Əlizadə ilə, İbrahim Göyçaylı ilə, Hüseyn Kürdoğlu ilə birgə oxumuşdu. Onların hər biri tezliklə Azərbaycan ədəbi-elmi mühitində tanındılar. Vaqif isə Lənkəranda, Maslıda qəzetlərdə çalışırdı və bir redaktor kimi öz işində tanınırdı.Amma o ŞAİR idi. Ölümündən sonra mən onun bütün şeir külliyyatı ilə tanış oldum. Onun müharibə ağrılarını, atasızlıq dərdlərini özündə əks etdirən "Atam yaşındayam mən" poemasını, təbiətə həsr etdiyi şeirləri ilə tanış oldum, müxtəlif mövzularda qələmə aldığı şeirləri də oxudum. Lənkəranda yaşayan şairlərin bir çoxu, başda Şəkər Aslan olmaqla sonet janrına müraciət etmişlər. Vaqifin də gözəl sonetləri və sonetlər çələngi var. ("İnsan", "Lənkəran"). Mən cəmi 49 il ömür sürən Vaqif Hüseynov haqqında sözümü "İnsan" sonetlər silsiləsinin sonuncu soneti ilə bitirirəm. Ona rəhmət diləyirəm

***Xalı döşənməyib ömür yoluna,***
***Büdrəyib aşanda əzilməyəsən.***
***Qüvvət yığ dizinə, güc ver qoluna***
***Dolayda təngiyib üzülməyəsən.***

***Qorxunc bir dərədə yolunu azsan,***
***Zülmət qurşun kimi çökər üstünə.***
***Qranit qayanın köksünü qazsan***
***Zirvə daş qalağı tökər üstünə.***

***Ancaq heç vaxt ololma zirvə girinci,***
***İnci ol,. zirvədə nə gəzir inci?***
***İncini bağrında gizləyir ümman.***
***Şairin sözünü yadda saxla gəl:***
***Hamıdan ağıllı, hamıdan gözəl,***
***Hamıddan güclüsən, insan, ey insan...***


*Adilə Səfərova,*
*Azərbaycanın əməkdar*
*mədəniyyət işçisi*


# "Şərqin qapısı" Teatr Festivalı



**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 103, Naxçıvan teatrının 143 illiyi münasibətilə Qədim yurdumuz Naxçıvan mayın 8-dən 11-dək növbəti əlamətdar hadisəyə - "Şərqin qapısı" Teatr Festivalına ev sahibliyi edib.**

**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyinin dəstəyi, Naxçıvan Dövlət Milli Dram Teatrının təşkilatçılığı ilə keçirilən tədbir teatr ictimaiyyətinin yaddaşına xoş anlarla yazılıb. Festivalın açılış mərasimində Naxçıvan Muxtar Respublikasının mədəniyyət nazirinin müavini, nazirin vəzifələrini müvəqqəti icra edən Həsən Seyidov və Naxçıvan teatrının direktoru, Prezident mükafatçısı Mir Qabil Əkbərov qocaman sənət ocağında müasir və klassik dramaturqların əsərlərinin yer aldığını bildirib, teatrda sağlam bir mühitin formalaşmasından söz açıb, dövlətin bu sahəyə göstərdiyi qayğıdan danışıblar. Festivalda teatrın kollektivi aktyor məşqləri ustad dərsləri əsasında hazırlanan**

**"Şüuraltı kölgələr" psixodramatik tamaşadan kiçik səhnəciklər göstərib, maraqlı musiqi nömrələri ilə iştirakşılarda xoş əhval-ruhiyyə yaradıblar. Festival çərçivəsində Azərbaycanın müxtəlif bölgələrindən gələn sənət adamlar ilə yaradıcılıq mübadiləsi aparılıb, aktyorlar tanınmış teatr mütəxəssislərinin ustad dərslərində iştirak edib, oyun fəndləri,taktikası,səhnə hərəkətinin düzgün qaydaları ilə tanış olublar. Sonra teatrın pərdələri Azərbaycan Dövlət Pantomima Teatrının "Şinel" tamaşası ilə açılıb. Sözün bitdiyi, bədən dilinin və plastikanın danışdığı o anlarda tamaşaçı bir daha anlayıb ki, teatrın dili universaldır. Qoqolun kiçik insanının böyük faciəsi Naxçıvan səhnəsində sanki yenidən doğulub. Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının rus dilində hazırladığı Mirzə Fətəli Axundovun klassik komediyası - "Müsyö Jordan" festivalın milli dramaturgiyamıza sadiqliyini göstərib.**

**Festivalın ikinci günü Azərbaycanın müxtəlif bölgələrindən gələn sənət adamlar ilə yaradıcılıq mübadiləsi aparılıb, aktyorlar tanınmış teatr mütəxəssislərinin ustad dərslərində iştirak edib, oyun fəndləri, taktikası ilə tanış olublar. Sənət adamlarının həyəcanı, teatr foyelərində isə bitməkbilməyən yaradıcılıq müzakirələri böyük məna kəsb edib. Bir şeyi də vurğulamaq yerinə düşər ki, festivalın ürəyi təkcə alqışlarla döyünməyib, süni intellektin dünyanı ağuşuna aldığı bir vaxtda, canlı insan nəfəsinin və səhnənin əvəzolunmaz qoxusunun necə qorunacağı burada müzakirə olunub.**

**Tarixən "Şərqin konservatoriyası" adlandırılan Şuşa həm də peşəkar teatr düşüncəsinin və aktyor məktəbinin bünövrəsinin qoyulduğu məkanlardandır.Şuşada teatrın canlanması, Şuşa Dövlət Musiqili Dram Teatrının öz doğma yurduna qayıdışı səhnədə yenidən Üzeyir bəyin, Ə.Haqverdiyevin ruhunun duyulması ilə milli dramaturgiyamızın nəfəsini bərpa edib. Şuşada keçirilən festivallar teatr mühitinə yeni bir dinamika gətirib. Şuşa Dövlət Musiqili Dram Teatrının təqdimatında Hüseyn Cavidin "Ana "fəlsəfi dramı naxçıvanlı sənətsevərlərə təqdim olunub. Festivalın bağlanış mərasimində festivalda uğurlu tamaşalarla çıxış edən ayrı- ayrı teatr kollektivləri Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin fəxri-fərmanı, Naxçıvan Dövlət Milli Dram Teatrının təşəkkürnamələri ilə təltif olunublar.**

**Həmçinin Qarabağın və Şuşanın rəmzi sayılan "Xarıbülbül" kiçik xalçası Naxçıvan teatrının direktoru Mir Qabil Əkbərova təqdim olunub. Sənət adamları festivalın təşkilinə görə minnətdarlıq edib, bu cür festivalların tezliklə beynəlxalq festivala çevrilməsini arzu ediblər. Naxçıvan Dövlət Milli Dram Teatrının Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" tamaşası ilə yekunlaşan festival bir daha təsdiqlədi ki, o teatrların inkişafına təkan verməklə yanaşı, həm də sənət adamları arasında səmimi ünsiyyət , təcrübə mübadiləsini yenidən bərpa edir.**

**Festivaldan geriyə qalansa təkcə alqışlar deyil, həm də teatrımızın sabahına dair yeni ideyalar və axtarışlardır.**

# Keyfiyyətli yuxunun sirri

**Gecələr yataqda tez-tez çevrilən və çıxış yolunu dərhal aptek rəflərindəki əlavələrdə axtaran milyonlarla insan var. Maqnezium və ya melatonin kimi dəstəklər müasir dövrün populyar həllərinə çevrilsə də, biologiyamız daha sadə alternativ təklif edir.**

Adalet.az xəbər verir ki, bədənimizin təbii işləmə mexanizmi düzgün temperatur balansı qurulduqda heç bir xarici müdaxilə olmadan yuxu rejiminə keçə bilir. Üstəlik, bu təbii sistem tamamilə xərcsiz və yan təsirsiz istirahət prosesinə imkan yaradır. İnsan orqanizmi gün ərzində müəyyən ritm üzrə işləyərkən daxili temperatur da bu dövrə uyğun dəyişir. Axşam saatları yaxınlaşdıqca sistem tədricən soyumağa başlayır. Məhz bu mərhələdə əl və ayaqlar bir növ istilik boşaltma mexanizmi kimi fəaliyyət göstərərək mərkəzi nahiyədəki istiliyi bədəndən xaricə ötürür. Mərkəzi hissə soyuduqca beyin avtomatik şəkildə istirahət vaxtının gəldiyini anlayır. 1999-cu ildə aparılmış elmi araşdırma da bunu açıq şəkildə göstərib. Tədqiqat nəticələrinə görə, insanların yuxuya getmə sürətini müəyyən edən əsas amil psixoloji yuxululuq hissindən çox ayaqların istilik səviyyəsi olub. Bioloji saatınızı yönləndirmək və prosesi sürətləndirmək üçün tətbiq edə biləcəyiniz praktik üsullar mövcuddur. Yatarkən corab geyinmək və ya yatmazdan əvvəl ılıq duş qəbul etmək bunların başında gəlir. Duşdan çıxdıqdan sonra bədən sürətlə soyumağa çalışır və bu süni temperatur azalması yuxu mexanizmini birbaşa aktivləşdirir.

Bununla yanaşı, Uzaq Şərq mədəniyyətindən gələn və adı ilə diqqət çəkən başqa bir üsul da var. Yaponiyada yaranmış "Gokiburi Taiso" metodu Azərbaycan dilinə "Tarakan məşqi" kimi tərcümə olunur. Bu texnika arxası üstə uzanaraq əl və ayaqları havaya qaldırıb təxminən 30 saniyə silkələməyə əsaslanır. Beləliklə, ətraf nahiyələrdə qan dövranı artır, istilik bədən səthinə yayılır və mərkəzi hissə soyuyur. Nəticədə beyin rahatlama siqnalı qəbul edir.

Tarixi 1920-ci illərə və Katsuzo Nişi adlı mütəxəssisə gedib çıxan bu praktika barədə müasir tibb ədəbiyyatında hələlik qəti elmi sübutlar yer almasa da, zərərsiz üsul kimi populyarlığını qoruyur.

## *Bu ölkələrdə Ebola sürətlə yayılır*

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adanom Qebreyesus Ebolanın yayılma sürəti və miqyası ilə bağlı narahatlığını bildirib.**

Adalet.az xəbər verir ki, o, bu barədə Cenevrədə keçirilən 79-cu Ümumdünya Səhiyyə Assambleyasında çıxışı zamanı danışıb.

"Bu epidemiyanın sürəti və miqyası məni son dərəcə narahat edir", - deyə Qebreyesus ifadə edib.

O, Konqo Demokratik Respublikası və Uqandada Ebola virusunun yayılması səbəbindən ilk dəfə fövqəladə vəziyyət elan etdiyini açıqlayıb

Qebreyesus əlavə edib ki, bu günə qədər 500-dən çox şübhəli Ebola hadisəsi və 130-dan çox ölüm hadisəsi qeydə alınıb. Şimali Konqoda otuz, Uqandada isə iki hal təsdiqlənib. Yoluxanlar arasında müalicə üçün Almaniyaya köçürülən ABŞ vətəndaşı da var.



# BAYAT



№ 84 (944)



Sabir Rüstəmxanlı

## AD GÜNÜM

Bəlkə min il yaşlı, on min il yaşlı
Sirli bir mahnının ardınca bu gün.
Dağlara gəlmişəm yalqız, kimsəsiz
Öz doğum günümü qutlamaq üçün!

Ürək oxuyanın işləri müşkül,
Gözlərdə göz alan dərinlik qalmır.
Onsuz da seyrəlir dost məclisləri,
Sözlərdə əvvəlki şirinlik qalmır.

Tənha zirvələrlə verim baş-başa,
Məni onlar atdı burdan həyata.
Görüm ucaların halı necədi,
Dözə bilirlərmi bu gedişata!..

Adımı köksünə həkk eləmişdim,
Bilmirəm ağrısı dərindədirmi?
Salam çinar qardaş, nəğməm darıxır,
Sənin mahnıların yerindədirmi?

Əgər yerindəsə bir ağız oxu
Ya da sağlıq söylə köklər eşqinə,
Sən də badəyə dön, ay əlçim bulud
Qaldırım başıma göylər eşqinə!

O göl qədəhini qaldır, qoca dağ,
Nuş elə, lap nəfəs kəsəsi olsun.
Mən ömrüm uzunu səni öymüşəm,
Sən də bir ağız de, əvəzi olsun!

Bu meşə, bu çəmən, bu bulaq, bu yol,
Köhnə dostlarımdı məclisimdə cəm.
Şəhərin səhəri ayıltdı məni
Şəkər bulaqlardan keflənəcəyəm!

Elə sehir var ki, bu ucalıqda
Ürəyi dəyişir, vaxtı çaşdırır.
Dağlar ad günümə hədiyyə kimi
Ruhumu yenidən cavanlaşdırır.

***

Nəfəsim gəlib gedir
Ağlım da başımdadır.
Bir yol var keçmişimdə,
Bir yol da qarşımdadır.

Bir arzu gəlməyimdə,
Bir çarə ölməyimdə
Bir qisas gülməyimdə
Biri göz yaşımdadır.

Gül yolu, çiçək yolu,
Göz yolu, ürək yolu
Var olmağın tək yolu
Sonsuz savaşımdadır.

***

Bu dünyadan nə götürdüm,
Nə axtardım, nələr gördüm.
Hər sevincin finalında
Qüssə gördüm, kədər gördüm.

Səhnədəki tamaşalar
Bilmədim necə oynanır.
Komediya dəbdən düşüb
Təkcə facia oynanır.

Neçə-neçə dərs içində
Çətin həyatı öyrəndim.
Hamı tənlik, intiqral,
Mənsə Saatı öyrəndim.

## ZAMAN MƏNDƏN KEÇİR

Zaman məndən keçir, keçir durulur
Ürəyim sehrli sevgi süzgəci,
Sevgi ürəyimdən keçir durulur.

Günəşin işığı, ayın işığı
Qayğılı gözümdən keçib durulur.
Fikir burulğanı dağ çaylarıtək
Sıxılmış sözümdən keçib durulur.

Nəyi saxlamadım, nəyi saxladım?-
Dəyir sınaqların zərbəsi mənə.
Keçirtdim tarixi əsəblərimdən,
Dünənlə sabahın körpüsü mənəm!

Bitmişəm yer ilə göy arasında -
Bu birlik ilahi iradəsidir.
Kimsə eşitməyən nəğmələr keçir.
Ulduz pıçıltısı, duman səsidir.

Keçir ürəyimdən millətin ruhu.
Bir üzü ucalıq, bir üzü qorxu.

Min ilin qanıdır - içimdə diri,
Dünyada kim ölür? Yaddaşı itən!
Ürəyim bir qaçqın düşərgəsidi,
Keçir körpələrin göz yaşı məndən.

Keçir qardaşların məğlubiyyəti,
Üç qitə yolunda ayağım yorğun.
Vətən güclüdürsə, ucadı bayraq,
Vətən çəkiləndə bayrağım yorğun...

İlk nədi, son - ürəyim duyur.
Keçmişə yol alan köçürmüş məndən.
Zamana qoşulub bir ömür boyu
Tanrının özü də keçirmiş məndən.

## YOL

Gecə qaranlığında
işıqdan-işığa yol gedir insan.
Tarix qaranlığında
dahidən-dahiyə...
Ömür qaranlığında
bəndədən İlahiyə!
Hansı mənzilə varsan
ən kəsə yoldu düzlük.
Bir ucu ölümdürsə,
bir ucu ölümsüzlük...

## BOYASIZ MİSRALAR

Taxıl bir sapın üstə
dən tutub sünbül olur.

Ləçəklər bir-birinə
sarılaraq gül olur.

Əsintilər birləşib
rüzgar olur, yel olur.

Bulaqlar bir məcrada
qovuşanda sel olur.

Kəlmə kəlmə dalınca
düzüləndə dil olur.

Barmaqlar bir pəncədə
birləşəndə əl olur.

İnsanlar bir qədəri
paylaşanda el olur.

Millət şərə əyilsə
alışmadan kül olur.

## YOL BİTƏNDƏ

Tanrı bizi yollar üçün yaradıb,
Yol bitəndə - köy çəkəcək özünə.

Sevincimiz meyxanada paylanır,
Qəmimizi ney çəkəcək özünə.

Məlik olsun, kral olsun, şah olsun
Könlümüzü bəy çəkəcək özünə.

Elçiləri Tanrısını unuduan
Bir toplumu mey çəkəcək özünə.

Korumuzdu uçuruma can atan
Karımızı küy çəkəcək özünə!

Allah susur, ancaq Şeytan işində
Min hiyləylə hey çəkəcək özünə!

Nə yaxşı ki, torpaq bizi udanda
Ruhumuzu göy çəkəcək özünə!

## SON SALAMIM

Bircə sənəti var - insan alveri
Əritdi ömrümü zaman mum kimi.
Dağlar üyüdüldü bu dəyirmanda -
Dəni una döndü, daşı qum kimi.

Bilmirəm doğmadı, bilmirəm yaddı,
Ömrümü sınaqdan sınağa atdı,
Ən uzun yolları beş-altı addım,
Ən uzun sevgisi - bir udum kimi.

Nə ev istəyirəm, nə də ki hörgü,
Onsuz da bitəcək bu qısa sürgün
Ölüm xəbərimi eşitsən bir gün
Onu qəbul elə salamım kimi!

## SON YOLUM

Göz açıb-yumunca ötüb keçdi yaz,
İldırım həyatı bir anlığadır.
Sevilmək, atılmaq bahar rüzgarı,
Onun da qınağı cavanlığadır.

Bir əli böyüdür, bir əli kəsir,
Ruhu azadsa da, iştahı - əsir,
İnsan keçmişini torpaqda gəzir,
Bilmir sabahı da viranlıqdadır.

Yaşamaq nağılı - tale oyunu,
İlki doğuldusa gələcək sonu,
Mən işıq söylədim ömrüm uzunu
Yenə də qazancım qaranlığadır...

***

Məsum təbəssümlə yanaşdın mənə.
Rəsmi salamlaşma.. adi iş idi.
Mən də qonaqlardan biriydim sanki,
Nəzakət xətrinə bir görüş idi.

Nəyi gizlədəcək ancaq pərdələr
Sinəni gizlicə dağıdır ürək.
Mənə sarılmaqdan qorxaraq sanki
Ərinin qolundan tutmuşdun bərk-bərk.

Bəlkə yanılıram soyuyub hər şey
Yanında dayanan sənə əzizdi.
Onsuz da xatirə sahil qumudu
Yuyulur, insanlar hafisəsizdi.

Görünür belədir Allahın hökmü
Ayrılıq dönməsin əbədi yasa.
Necə yaşayardı insan dünyada
Vurulan yaralar tez sağalmasa.

”Sənsiz yaşamaram!” deyərdin mənə,
Dodağın qopmurdu dodaqlarımdan.
O şirin sözlərin quş olub uçmuş
O eşq vulkanını soyutmuş zaman.

Bəlkə doğrudan da heç yaşamırsan
Alışmaz bu ocaq min yol üfləsən
Bəlkə minillərin ardından gələn
Gözəl mumiyasan ortada gəzən.

## SAĞ OL, ANA DİLİM

Yollarım sınandı yad ölkələrdə,
Neçə yad dodaqda səsləndi adım.
Sağ ol, ana dilim, məni heç yerdə
Köməksiz qoymadın, yalqız qoymadın.

Barmağım altında düymə fırlanır,
Londonla, Parislə yanaşı Bakı
Doğma sözlər üçün darıxan hanı?
Deyin qoy dinləsin: ”Danışır Bakı!”

Danışır, açılır ömrün baharı,
Dünyaya mən onun qoynundan uçdum.
Mənim ürəyimin antenaları
Gözəl Azərbaycan dilinə tuşdu.

Döyüşdə qılınc tək sıyrıldı qından,
Başımın üstündə bayrağım oldu.
Torpağım ikiyə bölünən zaman
Bu dil bölünməyən torpağım oldu.

Utansın tarixə dəllallıq edən,
Tarix qapısına açar sözlər var.
Pərdəni qaldırsan, beş-on kəlmədən
Qondarma cildlər tar-mar olar.

Bu dildə sevincim, qəmim, kədərim
Təzə ümidlərə açılan səhər.
Bu dilin reaktiv təyyarələri
Araz sərhəddini qıran kəlmələr.

İpək nəğmələrim gülləbatmazdı,
Qolunu qandalla bağlamaq olmaz.
Bu taydan o taya arxayın keçən,
O taydan bu taya arxayın keçən

Dilin sənədini yoxlamaq olmaz,
Sevginin yolunu saxlamaq olmaz!
Sağ ol, ana dilim, ana öyüdüm,
Füzuli eşqindən divanə dilim.

Ürəyim başına nəfəs dərmədən
Fırlanıb kül olan pərvanə dilim.
Hanı Xanım çaylar, hanı bəy göllər,
Dillərdə cücərən yurdun izidir.

Yüz yol yaralanmış doğma kəlmələr
Xalqımın döyüşlər xəritəsidir.
Ala dağ, Qara dağ  di seç, di ayır,
Dağları basılmaz ordum sanmışam.

Harda bircə kəlmə sözüm yaşayır,
Oranı halalca yurdum sanmışam.
Üstünə yüyürdü Quran dilləri,
Peyğəmbər dilləri, qanun dilləri

Qapılar dalında qoydular səni,
Haqq dedin, dabandan soydular səni,
Ancaq məhv olmadın, anam, can dilim,
Ordular sarsıdan qəhrəman dilim!

Ömrüm qırılmazdı, yol qırılsa da,
Səninlə həmişə mən üzüağam.
Bədənim torpağa tapşırılsa da,
Ruhumu mən sənə tapşıracağam

## ÜRƏK YERİNƏ

Səni Allahımın əlindən alıb
Asaram sinəmdən ürək yerinə.
Bu eşq soyumasın deyərəm heç vaxt
Yazsan günahımı mələk yerinə

Mənim nəfəsinə ehtiyacım var,
Əssin dan yerindən külək yerinə
Dolsun gözlərimə Ay işığı tək
Qoxlayım sübhədək çiçək yerinə

Yanğımı soyudan sərin suyumsan,
Ya da bərəkətim - çörək yerinə,
Daha taleyindən danışma mənə,
Toxunma qəlbimin kövrək yerinə!

# Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 19 (2491) 22 may 2026-cı il

# O MİLLƏT XOŞBƏXTDİR Kİ, ONUN İSTEDADLI GƏNCLƏRİ VAR



**O günü metroda gedirdim, iki qız uşağı ilə rastlaşdım, yaşları uzaqbaşı 20-22 yaş olardı. Qatarda əyləşən kimi başqa həmyaşıdlarından fərqli olaraq mobil telefonla oynamadılar, hər ikisi çantasından bir kitab çıxararaq oxumağa başladılar. O kitablardan biri Seyran Səxavətin, digəri isə Aqil Abbasın "Dolu" romanı idi. Diqqətlə fikir verdim, heç kimə baxmadan hər ikisi kitabı açıb oxumağa başladılar. Çox sevindim, indiki gəncliyin belə vətənpərvər yazıçıların kitabını oxuması doğrudan da çox müsbət haldır. Düz metronun "Xalqlar dostluğu" stansiyasına qədər başlarını qaldırmadan gözlərini kitaba zilləmişdilər. Birdən elə oldu ki, qarşılarında xəstə və yaşlı bir insanı gördülər. Hər ikisi ayağa qalxdı və yerini həmin xəstə adama verdi. Amma onlarla yanaşı gözləri mobil telefonun ekranında olan digər adamlar o xəstə insana yer vermədilər, hansı ki düz on beş dəqiqə idi ki, həmin yaşlı insan ayaq üstə durmuşdu.**



Bu səhnəni görəndə bütün istedadlı, savadlı və ayaq üstə durmağı bacaran gənclərə, xüsusən də qızlara hörmətim daha da artdı. Elə üç kəlmə dedim: "Allah sizi xoşbəxt eləsin. Sizin kimi savadlı və tərbiyəli qızlar nə qədər çox olsa gəncliyimiz də bir o qədər güclü və qüdrətli olar".

Öyrəndim ki, hər iki qız Bakı Dövlət Universitetinin tələbəsidir və filologiya fakültəsində təhsil alırlar. Bu qızları qızım qədər, nəvəm qədər çox istədim. Üstəlik də söhbət zamanı dedilər ki, müəllim, biz bir gün kitab oxumasaq, elə bil nəsə qiymətli bir şey itirmişik. Çünki kitab oxuyanda düşüncəmiz, qəlbimiz, içimiz işıqla, nurla dolur. Xalqımıza, vətənimizə və yaşlı nəslə məhəbbətimiz daha da artır. Elə bilməyin ki, tək kitab oxuyan bizik, çox tələbə dostlarımız var ki, hər gün kitab oxumağı yaddan çıxarmırlar. Biz kitab oxuyanda həm də Vətənimizi, xalqımızı, qəhrəmanlarımızı dərindən tanıyırıq və onlara oxşamaq istəyirik.

Düzdür, bəzi insanlar gənclərdən narazılıq edirlər, deyirlər ki, onlar heç də hamısı mədəni və vətənpərvər deyillər. Düzdür, beləleri də var, amma sizi inandırım ki, onlar barmaqla sayıla bilər. Biz vətənə xidməti ancaq mükəmməl savad almaqla, təmiz əxlaqla, dünya elm və texnologiyasına kamil yiyələnməklə həyata keçirə bilərik. Bunun üçün də bu gün ölkəmizdə hər cür şərait yaradılıb. Sadəcə olaraq, biz hər şeyə, hər ana və hər bir çətinliyə sinə gərməyi bacarmalıyıq. Və şükürlər olsun ki, bunu da bacarırıq.

Bu tələbələrlə söhbətimizdən sonra bir daha bu qənaətə gəldik ki, Azərbaycanda çox güclü, savadlı və vətənpərvər gənclər yetişir. O gənclər bütün sahələrdə var- istər elm sahəsində, istər iqtisadiyyat sahəsində, istər mədəniyyət sahəsində, istərsə də digər sahələrdə belə gənclərimiz mövcuddur. Əlbəttə, onların hər cür gücü, potensialı və qüvvəsi var.

Bu gün ölkəmizdə çox möhtəşəm tədbirlər keçirilir. Həmin tədbirlərdən biri mayın 17-də Bakıda keçirilən dünya şəhərsalma və arxitektura işi ilə bağlı BMT-nin təşkilatçılığı ilə olan möhtəşəm bir tədbirdir. Bu tədbirə dünyanın çoxlu sayda ölkələrinin prezidentləri, baş nazirləri və digər vəzifəli şəxslər dəvət olunublar. Onlar Bakıya gəlib və Bakıda möhtəşəm gözəllik və tarixi hadisələrin şahidi olublar. Sözümün canı ondan ibarətdir ki, o yağışlı gündə Azərbaycan gəncliyinin də vətənpərvərliyinin və işgüzarlığının şahidi olduq. Elə metro qatarında onlarla belə gənc könüllü ilə rastlaşdıq və həmin gənclərlə də söhbət edəndə çox maraqlı fikirlərin şahidi olduq. Soruşduq ki, bəs bu yağışlı havada o tədbirə necə gedirsiniz? Gənclər hamısı bir ağızdan cavab verdi ki, əgər bu gün dünya Azərbaycanın bəşəri dəyərlərə və sivilizasiyaya böyük sevgi ilə yanaşmasını dəyərləndirirsə, təbii ki, bizim qarşımızı heç bir təbiət hadisəsi, leysan yağış ala bilməz. O gənclər Olimpiya Stadionuna doğru gedirdilər, özü də çox böyük sevgi və məhəbbətlə. O gənclər onu da deyirdi ki, biz könüllülər orda ölkəmizi çox şərəflə təmsil edəcək, hər hansı çətinliyi olan insanlara lazımi köməkliyimizi göstərəcəyik. Çünki artıq ölkəmizdə belə beynəlxalq səviyyəli tədbirlər çox keçirilib və biz də həmin tədbirlərdə iştirak edərək böyük təcrübə toplamışıq.

Hətta ötən il BMT-nin Bakıda keçirdiyi beynəlxalq tədbirdə də yaxından iştirak etdik. Və təsadüfi deyil ki, BMT-nin katibi bu tədbirin yüksək səviyyədə keçirilməsinə görə ölkə prezidenti cənab İlham Əliyevə və Azərbaycan xalqına öz təşəkkürünü bildirdi. Bu işdə biz könüllülərin də müəyyən qədər xidməti var. İkincisi də ölkə prezidenti cənab İlham Əliyev həmişə gəncliyə böyük qiymət verib və bizə güvəndiyini bəyan edib. Eyni zamanda Ulu Öndər Heydər Əliyev də Azərbaycan gəncliyinə, onun istedadlı, savadlı və vətənpərvər qüvvələrinə həmişə güvəndiyini, etibar etdiyini səsləndirib. Bütün bunlar isə bizdə çox böyük ruh yüksəkliyi və inam yaradıb.

Bu gün hansı sahəyə, hansı yerə baxsan orda gəncliyi görmək olar. Çünki Azərbaycan prezidenti İlham Əliyev kadrların seçilib yerləşdirilməsində gəncliyimizə çox böyük şans yaradıb. Neçə-neçə gənci nazir, nazir müavini, icra başçısı və eləcə də digər qurumlara rəhbər vəzifələrə təyin edib. Heç şübhəsiz, həmin vəzifə sahibləri də birmənalı olaraq cənab prezidentin və xalqın etimadını doğrultmağa çalışıb. Bütün bunlar gənclərimizdə vətənpərvərlik ruhunu daha da yüksəldir, onları dövlətə və dövlətçiliyə xidmət etməkdə yeni bir təkan yaradır.

**Heç şübhəsiz, istedadlı və savadlı gənclərin Prezident təqaüdü ilə hər il mükafatlandırılması çox böyük tarixi hadisədir. Çünki hər il ali məktəblərə yüksək balla qəbul olunan onlarla tələbəyə Prezident təqaüdü verilir. Bu isə həmin tələbələrin maddi problemlərinin həll edilməsində, onların daha dərindən elmə yiyələnməsində və çətinliklərinin qısa zaman kəsiyində öz yoluna düşməsində çox böyük rol oynayır. Və həmin tələbələr də dörd ildən sonra kamil mütəxəssis kimi vətənə daha yaxşı xidmət etməyə hazırdırlar. Yetər ki, onlar layiq olduqları yerlərdə olsunlar. Dövlət də həmişə belə istedadlı gəncləri layiqli vəzifəyə təyin edir və onlar da bu etimadı doğruldurlar.**

**Emin FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# "Bakcell"in dəstəyi ilə gənclər üçün "SummerStack Bootcamp" başlayır

**İnnovasiya lideri ”Bakcell” gənclərin rəqəmsal bacarıqlarının inkişafına yönəlmiş təşəbbüslərini davam etdirir. Şirkətin tərəfdaşlığı ilə ”Peerstack Academy” tərəfindən Java və Python proqramlaşdırma dilləri üzrə ”SummerStack Bootcamp” proqramı həyata keçiriləcək.**

Üç ay müddətində davam edəcək bootcamp proqramının əsas məqsədi gənclərə proqramlaşdırma sahəsində fundamental biliklər qazandırmaq, onları real layihələr üzərində işləməyə cəlb etmək və İT karyerasına güclü başlanğıc imkanı yaratmaqdır.

Proqram ”Java” və ”Python” proqramlaşdırma istiqamətlərini əhatə edir. Tədris prosesi qarşılıqlı öyrənmə və layihə əsaslı tədris modelləri əsasında qurulacaq. İştirakçılar təcrübəli mentorların dəstəyi ilə praktiki nümunələr üzərində işləyəcək, nəzəri biliklərini praktik tapşırıqlar vasitəsilə tətbiq edəcəklər. Bakcell-in dəstəyi ilə həyata keçirilən təqaüd proqramı çərçivəsində iştirakçılara 70%-dək təqaüd imkanı təqdim olunacaq.

Qeydiyyatdan keçən iştirakçılar məntiq və proqramlaşdırma biliklərini əhatə edən imtahan mərhələsində, daha sonra isə müsahibə prosesində iştirak edəcəklər.

Proqram iştirakçıların gələcəkdə İT sahəsində peşəkar inkişafı, real iş mühitinə uyğun bacarıqlar qazanması və bu sahədə uğurlu karyera qurmasına dəstək olacaq.

”Bakcell” və ”Peerstack Academy” arasında qurulan bu əməkdaşlıq innovativ ideyaların real texnoloji həllərə çevrilməsi üçün yeni imkanlar yaratmaqla yanaşı, ölkədə texnologiya sahəsində insan kapitalının inkişafına töhfə verməyi hədəfləyir. ”Peerstack Academy”nin tələbəsi olmaq istəyənlər linkə daxil olaraq qeydiyyatdan keçə bilərlər.

**”Bakcell” haqqında**

”Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan ”Bakcell” süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

**”Bakcell” müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən ”NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.**

# "Super qida"ya çevirdiyimiz cincilim

**Bütün təbiət hadisələri kimi, bitkilər də Yaradanın möcüzəsidir. Hər bitkinin özünəməxsus xüsusiyyətləri və faydaları var. Yabanı bitən bitkilərin kalorisi və faydası danılmazdır. Hətta onların bəziləri müxtəlif xəstəliklərin müalicəsində istifadə olunur.**

Təbiətin bizə ərməğan etdiyi bitkilərdən biri də hər kəsin ”ürək otu” dediyi cincilimdir. Bu bitki kiçik yarpaqları ilə tanınan cincilim kalorisinə, vitamin və mineral sıxlığına görə ispanaq, kələm və brokkoli kimi məşhur rəqiblərini geridə qoyub. Daha çox yol kənarında bitdiyi üçün bir çox insanların əhəmiyyət vermədiyi bu bitki təbabətdə xüsusi önəm daşıyır. Bitki müəyyən dərmanların hazırlanmasında istifadə edilir. Cincilimi ”super qida”ya çevirən əsas xüsusiyyətlər onun zəngin tərkibidir.

Yüksək C vitamini və bitki mənşəli birləşmələri sayəsində hüceyrələri sərbəst radikalların zərərli təsirlərindən qoruyur.



Tərkibindəki antioksidantlar damar sağlamlığını dəstəkləyir və ürək xəstəlikləri riskini azaldır.

K vitamini anbarı olan cincilim sümükləri möhkəmləndirir, A vitamini və lutein isə görmə qabiliyyətini qoruyur.

Çox aşağı kalorili olsa da, yüksək qida dəyəri olduğu üçün pəhriz saxlayanlar üçün önəmli qida vasitəsi hesab olunur.

Cincilim təbii su hövzələri ( gölməçələr) ətrafında yetişdiyi üçün gigiyena ən vacib məsələdir. Onun kol şəklində bitməsi təmizlənməsini çətinləşdirir. Digər bitkilərdən daha çox yuyulması tələb olunur. Çünki yaxşı yuyulmayan cincilim sağlamlığa zərər vura bilər. Qurd xəstəlikləri və digər infeksion xəstəliklərin yaranmasına yol aça bilər.

Yarpaqları o qədər kiçik olur ki, digər yabanı bitən otlarla da səhv salmaq mümkündür. Lakin diqqət etsək, cincilimin yarpaqları daha çox ürək formasındadır və bir-birinə sıx əkildə bitir. Digər bitkilərdə isə yarpaqlar nisbətən yumrudur və bir- birindən aralıdır.

Daha çox tərəvəzli və sulu xörəklərdə istifadə olunan cincilimin faydasını görmək üçün mütəxəssislər onu çiy yeməyi də məsləhət görürlər.

Dovğa, şorba kimi sulu xörəklərdə istofadə olunsa da, həkimlər bəzən bu bitkini salatlarda istifadə etməyi pasientlərə tövsiyə edirlər.

**Əntiqə KƏRİMZADƏ**

# Bu tapıntı ölkələri hərəkətə keçirdi

**Okeanların dərinliklərində yerləşən və ”od buz” adlandırılan sirli formasiya yenidən alimlərin diqqət mərkəzinə düşüb. İlk baxışda adi buz kimi görünən bu maddə, əslində, yüksək təzyiq altında sıxılmış böyük miqdarda metan qazı ehtiva edir. Mütəxəssislərin fikrincə, bu həm nəhəng enerji mənbəyi, həm də potensial iqlim təhlükəsi hesab olunur.**

Adalet.az xəbər verir ki, elmi adı ”metan hidrat” olan bu formalar əsasən materik şelflərinin dərin hissələrində və donmuş permafrost ərazilərində yaranır. Çox aşağı temperatur və son dərəcə yüksək təzyiq altında formalaşan kristal quruluş metan qazını buzun içində saxlayır. Lakin səthə çıxarıldıqda maraqlı bir hadisə baş verir: buz əridikcə içindəki metan qazı alışa bilir. Buna görə tədqiqatçılar uzun illərdir bu quruluşu ”yanan buz” və ya ”od buz” adlandırırlar. Tədqiqatçılara görə, metan hidratların ən diqqətçəkən tərəflərindən biri onların Yer üzündəki ən böyük təbii metan anbarlarından biri olmasıdır. Bəzi hesablamalara görə, okean dibində trilyonlarla kubmetr metan qazı mövcuddur. Lakin mütəxəssislər hesab edir ki, iqlim dəyişikliyi səbəbindən dəniz sularının temperaturunun artması bu strukturları qeyri-sabit hala gətirə bilər. Çünki ”od buz” əriməyə başlayanda içindəki metan qazı sərbəst buraxıla bilər. Metan isə karbon qazı ilə müqayisədə daha güclü istixana effekti yaradan qazlardan biri sayılır. Newcastle University rəhbərliyi ilə aparılan araşdırmalarda okean dibindəki bəzi qədim metan sızması izlərinin iqlimlə bağlı ərimələrlə əlaqəli ola biləcəyi bildirilib.

Tədqiqatçılar hesab edir ki, keçmişdə dəniz dibində yaranan nəhəng kraterlər metan çıxışları nəticəsində formalaşmış ola bilər.Bəzi ölkələr isə metan hidratları gələcəyin enerji mənbəyi kimi qiymətləndirir. Xüsusilə Japan və China kimi enerji idxalından asılı olan dövlətlər illərdir dəniz dibindəki bu ehtiyatları çıxarmaq üçün araşdırmalar aparırlar.

Mütəxəssislərə görə, metan hidrat ehtiyatları nəzəri baxımdan dünyanın enerji tələbatının böyük hissəsini qarşılaya biləcək potensiala malikdir. Lakin onların çıxarılmasının texniki baxımdan çətin və ekoloji cəhətdən riskli olduğu vurğulanır.

Bildirilir ki, okean dibindəki yüksək təzyiq balansı pozulduqda ani qaz çıxışları baş verə bilər və bu da dəniz dibi sürüşmələrinə səbəb ola bilər.

Bəzi araşdırmalar keçmişdə baş vermiş böyük sualtı sürüşmələrin metan hidratların əriməsi ilə əlaqəli ola biləcəyini irəli sürür.

**Alimlər hazırda həm enerji potensialı, həm də iqlimə mümkün təsirləri səbəbilə ”od buz” formalarını daha ətraflı şəkildə araşdırmağa çalışırlar. Xüsusilə Arktika bölgələri və dərin okean dibləri yeni tədqiqatların əsas mərkəzləri hesab olunur.**

## *Əməkdar artist: “Yaradıcılıq eşqim sönmür”*

**Əməkdar artist Gülüstan Əliyeva səhnə fəaliyyətindən, yaradıcılığından söz açıb.**



Adalet.az xəbər verir ki, o, həyatının məhsuldar anlarından danışıb:

”Ömrümün ən məhsuldar dönəmindəyəm. Həyat elə gözəldir ki, yaradıcılıq eşqim sönmür.İnsan bir mərhələyə gələnə kimi çox əziyyətlər çəkir. Sənət insanı püxtələşənə qədər bir ömür sərf edir. Sevinirəm ki, ömrümü hədər etməmişəm. Ardımca gələn gənclər var ki, onlar mənim səhnə performansımdan, oxu tərzimdən, mahnı seçimimdən onlar çox gözəl istifadə edirlər. Bu məni çox sevindirir. Əsla buna qarşı olmamışam, əksinə sevinmişəm”.

## *Ofelya Şabanova: “Bəzi qızlar ailə qurmaq istəmirlər”*



**İfalarından çox şəxsi həyatı ilə gündəm olan Ofelya Şabanova yenə də eyni mövzu ilə gündəmdədir.**

Adalet.az-a danşan müğənni efirlərə daha çox sənəti ilə yanaşı şəxsiyyətiylə də seçilən ifaçıların çağrılmasını istəyir:

”Bilirsiniz, oxumaq da gözəldir, istedad da mütləqdir. Ancaq bütün bunlardan üstün bir məqam var ki, o da insanın şəxsiyyətidir. Düşünürəm ki, insan hansı peşəyə sahib olursa olsun, əsas odur ki, xarakterli və dürüst adam olsun. Kiminsə üçün bu, mənasız görünə bilər. Ancaq mənim üçün bu, çox vacibdir.

Məsələn, sənəti gözəl olub, şəxsiyyət olmayan müğənni ilə münasibət qurmuram. Hətta mahnısını belə dinləmirəm. Çünki istər- istəməz həmin adamdan iyrənirəm. Özümdən aslı deyil, insan xaraktersiz olanda onun başqa keyfiyyətləri gözümdə heç olub gedir.

Hamm məni həyat yoldaşıma qulluq etdiyim üçün, bunu danışdığım üçün qınayır. Ancaq mən əxlaqsızlığı yox, ailə olmağı təbliğ edirəm. Vəzifəsindən, peşəsindən aslı olmayaraq bütün xanımlar ailə qurub, ana olsalar çox gözəl olar.

İndi qızların çoxusu ailə qurmaq istəmirlər. Yaxud da kiçik bir dava olan kimi ayrılırlar. Bunun hamıs dözümsüzlükdəndir. Yoldaşlarına hörmət etmirlər. Belə olmaz. Bu hal cəmiyyətə yaxşı nümunə deyil”.

## *Elcan Rəsulov: “Səhv addım atmaq istəmirəm”*

**Aparıcı, aktyor Elcan Rəsulov evlənməməsinin səbəbini açıqlayıb.**



Adalet.az bildirir ki, o, 21 yaşında ata olmaq ona evlənməməyi öyrətdiyini söyləyib: ”Bəzən dostlarım mənə deyir ki, biz evlənib əziyyət çəkirik. Sən də evlən. Niyə biz əziyyət çəkməliyik sən yox? Ancaq mənim üçün evlilik asan məsələ deyil. İndi 39 yaşım var deyə tez evlənib hansısa bir uğursuzluqla qarşılamaq istəmirəm. Çalışıram ki, həyatımda hər şey istədiyim kimi olsun. İnsan evlilikdə yaşadığı uğursuzluğun ömür boyu əziyyətini çəkir”.

**Əntiqə**

Faiq Qismətoğlu dostu **Elməddin Mehrəliyevə** əmisi **Mütəllim Mehrəliyevin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Hüsniyyə Əlizadə, Qobu 1 saylı tam orta məktəbin direktoru Şərəf xanım Qasımova, direktor müavini Mahirə Soltanova iş kollektivi ilə birgə **Əsmər, Əkbər, Gülsüm Quliyevaya, Nigar Faiq qızına, Məmməd Faiq oğluna, Rasim, Nazim, Fuad, Cəmilə, Tubuxanım, Fikrət, Hikmət Əliyevlərə, Lalə, Gülmira xanıma, Namiq bəyə** əzizləri **Şəhla Nəriman qızı Məmmədovanın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 279
Çapa imzalanmışdır: 21.05.2026